Xalqın qəzeti!

# Xalq qəzeti

№ 41 (30445) 23 fevral 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Azərbaycan "Yaşıl" gələcəyə "yaşıl işıq" yandırır

### COP29 ölkəmizin qlobal iqlim təşəbbüslərinə önəmli töhfəsi olacaq



**Dünya birliyinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Bakıda keçirilməsi ilə bağlı yekdil qərarı Azərbaycana olan etimadın göstəricisidir. Bu, həm də dünyamızın getdikcə daha çox qloballaşdığı bir şəraitdə Cənubi Qafqazda yaranan yeni reallığın beynəlxalq birlik tərəfindən etirafı deməkdir.**

Ötən müddətdə qlobal enerji və nəqliyyat-logistika layihələrinin təşəbbüskarı və əsas iştirakçısı kimi tanınan Azərbaycan hazırda dünyanın prioritet elan etdiyi "yaşıl keçid" platformasına da mühüm töhfələr verir. Bu baxımdan beynəlxalq birlik cari ilin noyabr ayında Bakıda keçiriləcək COP29-dan çox şey gözləyir. Hətta karbon emissiyalarının azaldılması, "yaşıl enerji"yə keçidlə bağlı tədbirlərin maliyyələşdirilməsi ilə bağlı məsələlərin də məhz Bakı konfransında həllinə ümidlər böyükdür.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerri ilə görüşündə iqlim maliyyələşdirilməsinin COP29-un əsas mövzusu olacağını vurğulayaraq bildirib ki, Azərbaycan da bu xüsusda qlobal həmrəyliyə, xüsusilə də qlobal Şimal və qlobal Cənub arasında həmrəyliyə nail olmaq istiqamətində səylərini davam etdirəcək.

Yeri gəlmişkən, ötən həftənin sonlarında keçirilmiş Münxen Təhlükəsizlik Konfransında ən çox müzakirə olunan məsələlərdən biri də COP29-la bağlı olub. Prezident İlham Əliyev konfrans çərçivəsində keçirdiyi görüşlər zamanı Azərbaycanın COP29-la əlaqədar bir daha özünün iqlim dəyişikliyi sahəsində beynəlxalq səyləri dəstəkləmək əzmini nümayiş etdirdiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı fevralın 17-də ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerri ilə görüşündə Azərbaycanın milli səviyyədə bərpaolunan enerji və "yaşıl keçid" prosesi sahəsində ciddi tədbirlər həyata keçirdiyini, bu istiqamətdə region səviyyəsində və qlobal miqyasda olan tədbirləri yaxından dəstəklədiyini vurğulayıb.

(ardı 8-ci səhifədə)

## Aİ-nin "binokllu diplomat-kəşfiyyatçıları"

**Ermənistanda fəaliyyətinin 1-ci ildönümünü bayram edən Avropa İttifaqının mülki missiyası qərarda göstərilən ilkin mandatından xeyli kənara çıxıb. Həm də, bu yoldansapmalar şərti sərhəddə müşahidə missiyasından fərqli fəaliyyətə baş vuran avrolegionun jandarmlar və hərbçilərinin maraqlı davranışları ilə müşayiət olunur.**



2022-ci il oktyabrın 17-də Aİ Xarici İşlər Nazirləri Şurası mülki missiyanın Ermənistana göndərilməsi barədə qərar verdi. Adı mülki, əslində isə hərbi legiona bənzəyən missiya 2023-cü il fevral ayının 20-də fəaliyyətə başladı. Daha sonra isə özlərini mülki yox, "xoşməramlı" missiya adlandırdılar. Hayastanda lövbər salmış Aİ missiyasının, əslində, mülki deyil, hərbi kontingentə çevrilməsi danılmaz faktdır. Bu da təəccüblü deyil. Elə missiyanın rəhbəri postuna Ştutqart şəhərinin polis idarəsinin rəisi, alman Markus Ritterin təyin edilməsi bir çox məqamlardan xəbər verir. Keçmiş polis şefinin "xidməti dosyesi"ndə Aİ-nin İraqdakı məsləhət missiyasının rəhbəri, Aİ və BMT-nin Cənubi Sudan, Gürcüstan və Kosovadakı missiyalarında xidmət, eləcə də Almaniyanın Əfqanıstandakı səfirliyində polis müşaviri qrafaları da yer alır. Fransa nümayəndəsi Şarl Fris isə Aİ-nin bölgədə həyata keçirdiyi bütün əməliyyatların kuratorudur. Bir sözlə, "alman–fransız legionu"ndakı əməkdaşların böyük əksəriyyəti elit bölmələrdə xidmət keçmiş eks-hərbçilər, polislər, müxtəlif ölkələrin kəşfiyyatçılarıdır. İşinə 50 nəfərlə başlayan missiya hazırda 209 nəfərlik heyətə malikdir. Belə yerli-yataqlı girişi ona görə veririk ki, oxucunun bir yaşını bayram edən Aİ-nin psevdo-missiyası barədə təsəvvürü bütöv olsun.

(ardı 5-ci səhifədə)

## Latviyanın ölkəmizin kənd məhsullarına böyük ehtiyacı var



Səhifə ⇨ 7

## İstanbulda Avrasiya İqtisadi Zirvəsi




Səhifə ⇨ 7

## Üzeyir Hacıbəylinin görkəmli yetirməsi

Səhifə ⇨ 10

## Makron İrəvanı "partladır"

### Bəs Nikol Paşinyanın Paris "işgüzarlığı" nədən qaynaqlanır?



**Sərlövhəni dahi Mirzə Fətəli Axundovun "Müsyö Jordan və Dərviş Məstəli Şah" klassik komediyasının motivləri əsasında çəkilmiş "Dərviş Parisi partladır" filmindəki məşhur frazaya oxşatmağımıza sonda aydınlıq gələcək. Yazımızda isə Ermənistan baş naziri Nikol Paşinyanın Fransaya işgüzar səfərindən söz açacağıq. Ancaq hələlik...**

"Təkrar etmək istəmirəm. Hərçənd bu məsələni unudan və ya bilməyənlərə xatırlatmaq yerinə düşər ki, Fransa Prezidenti Jak Şirak uzun müddət atamı Fransanın həmsədrliyinə razı salmaq istəyirdi və o, bundan imtina edirdi. Sonradan Prezident Şirakla keçirdiyim görüşlər əsnasında o, dəfələrlə onu necə razı salmaq istədiyini və Fransanın neytral olacağını vəd etdiyini xatırladırdı. Həmçinin mənim qarşımda əlavə edirdi ki, bu vədi atamın həyatda olmadığı vaxtda da yerinə yetirir. Mən bunu həmişə müsbət qəbul edirdim. Ancaq zahirən də, ümumilikdə, bütün bunlar onun dediyi kimi təsir bağışlayırdı. Hərçənd, bilmirəm ki, pərdə arxasında nələr baş verirdi, lakin son vaxta qədər balans zahirən saxlanılırdı. Balans, hətta Fransa tərəfindən İkinci Qarabağ müharibəsinə qədər pozulmuşdu və bu, görünür ki, Fransanın xarici siyasətində fundamental əsasların nəsil dəyişikliyi səbəbindən baş vermişdi. Biz hazırda bunu təkcə Fransada deyil, həm də Avropa ölkələrinin əksəriyyətində müşahidə edirik. Öz ölkəsində və beynəlxalq arenada böyük nüfuz sahibi olan insanlar siyasət səhnəsindən getdilər və ümumilikdə, təsadüfi adamlar – populistlər, demaqoqlar gəldilər və bunun nə ilə nəticələndiyini hamımız görürük".

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bildirib. Bəli, tam əminliklə demək olar ki, Fransa prezidenti Emmanuel Makron dövlətimizin başçısının nəzərində tutduğu populist və demaqoqlardandır və onun yeritdiyi siyasət Parisi Azərbaycan-Ermənistan münasibətlərində ədalətli vasitəçi obrazında görməyə imkan vermir. Makron hazırda var gücü ilə çalışır ki, Bakı – İrəvan münasibətlərinin nizamlamasında ikincinin xeyrinə yeni reallıqlar formalaşdırsın. Mövcud məqam Ermənistan baş naziri N.Paşinyanın Fransaya işgüzar səfəri zamanı da açıq göründü. Daha doğrusu, Makronun Paşinyanla keçirdiyi görüş əsnasında səsləndirdiyi bəyanat hər şeyi üzə çıxardı.

Ancaq yazımızda yalnız Makronun nələrdən söz açdığını diqqətə çatdırmayacağıq. Eyni zamanda, N.Paşinyanın Parisdə dilə gətirdiyi fikirlərə diqqət yetirəcəyik. O fikirlərə ki, hazırda Bakı – İrəvan sülh razılaşması ilə daban-dabana ziddir. O fikirlər ki, Ermənistanın qeyri-konstruktiv tərəf mövqeyini bir daha ortaya qoyur.

(ardı 4-cü səhifədə)

## "Qarabağ" səfərdəki zəfərini əzmlə qorudu



Son dərəcə gərgin mübarizə şəraitində keçən oyun 2:3 hesabı ilə bitsə də, komandamızın növbəti mərhələyə yolunu kəsə bilmədi. "Qarabağ" bu nəticə ilə futbol tariximizdə ilk dəfə Avropa Liqasının 1/8 finalına vəsiqə qazandı.

# İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

**Əlahəzrət!**
**Əziz Qardaşım!**

22 fevral – Səudiyyə Ərəbistanı Krallığının Təsis Olunması Günü münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında İslam həmrəyliyi, qardaşlıq, qarşılıqlı dəstək və etimad kimi sağlam təmələr üzərində qurulmuş dostluq və əməkdaşlıq əlaqələrinə böyük önəm veririk. Aramızda mövcud olan yüksək səviyyəli siyasi dialoq bir sıra sahələrdə səmərəli əməkdaşlığımız ilə müşayiət olunmaqdadır.

Ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə Səudiyyə Ərəbistanının ilk gündən göstərdiyi dəstəyini yüksək qiymətləndiririk. Əminəm ki, qardaş xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Səudiyyə Ərəbistanı əlaqələrinin dərinləşdirilməsi, həm ikitərəfli əsasda, həm beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətimizin bundan sonra da uğurla davam etdirilməsi istiqamətində birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 fevral 2024-cü il**

---

# Avtomobil yollarının tikintisi və istismarı sahəsində fərqlənən bir qrup şəxsin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Avtomobil yollarının tikintisi və istismarı sahəsində əmək nailiyyətləri ilə fərqlənən aşağıdakı şəxslər təltif edilsinlər:

### 3-cü dərəcəli "Əmək" ordeni ilə

Azadəliyev Azadəli Kəlbəli oğlu
Əkbərov Mübariz Hilal oğlu
Qocayev Əvəz İlyas oğlu
Mirzəbəyov Əhməd Əzizxan oğlu
Süleymanov Şahin Şahbaz oğlu

### "Tərəqqi" medalı ilə

Babayev Elşən Əlican oğlu
Bəndəliyev Araz Arif oğlu
Cavadi Elman Hökməli oğlu
Əbilov Fazil İsmayıl oğlu
Əliyev Elxan Bulud oğlu
Əzizov Tahir İslam oğlu
İsgəndərov Sadıq Yaqub oğlu
Qasımov Həsən Əsrafül oğlu
Lələyev Bəhruz Rauf oğlu
Mehtiyev Tural Elşad oğlu
Mircavadov Eldar Mirməmməd oğlu
Niftəliyev Ustubat Heydər oğlu
Rəfiyev Sabir İbad oğlu
Səmədzadə Elnarə Fətulla qızı
Süleymanova Rübabə Şahbaz qızı
Yusubov Fərid Fikrət oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 fevral 2024-cü il**

---

# "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 yanvar tarixli 4264 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 yanvar tarixli 4264 nömrəli Sərəncamının (Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 yanvar tarixli 4271 nömrəli Sərəncamı) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** "Samir Şərifov – Azərbaycan Respublikasının maliyyə naziri" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Xanlar Ağalarov – Dənizkənarı Bulvar İdarəsi İdarə Heyətinin sədri

Gülşən Axundova – "Qadın, İnkişaf, Gələcək" ictimai birliyinin sədri".

**2.** "Ruslan Əliyev – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru" abzası ləğv edilsin.

**3.** "Sevinc Fətəliyeva – Azərbaycan Respublikası Milli Məclisinin deputatı" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Səbinə Hacıyeva – Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi".

**4.** "Vüsal Hüseynov – Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Mehriban İmanova – Azərbaycan Elm Fondunun İcraçı direktoru".

**5.** "Ülvi Mehdiyev – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Məryəm Məcidova – Azərbaycan Respublikasının Gənclərin Gender Bərabərliyi Mərkəzi "Gender Hub" ictimai birliyinin sədri".

**6.** "Saleh Məmmədov – Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Natəvan Məmmədova – Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının baş katibi

Nigar Məmmədova – "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru

Şəbnəm Məmmədova – "SmartNation" platformasının təsisçisi".

**7.** "Bahar Muradova – Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"İlqar Musayev – Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi

Samirə Musayeva – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini".

**8.** "Fuad Nağıyev – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"Rövşən Nəcəf – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti

Könül Nurullayeva – Azərbaycan Respublikası Milli Məclisinin deputatı".

**9.** "Samir Rzayev – "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti" abzasından sonra aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Ruslan Sadıqov – Bakı "Ağ Şəhər" layihəsinin baş direktoru".

**10.** "Mariana Vasileva – Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini" abzasından sonra aşağıdakı məzmunda yeni abzaslar əlavə edilsin:

"İnarə Vəliyeva – Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi İdarə Heyətinin sədri

Pərvanə Vəliyeva – "Sağlamlığa Xidmət" ictimai birliyinin icraçı direktoru, "Environmental Protection First" Koalisiyasının həmtəsisçisi

Fatma Yıldırım – Azərbaycan Respublikası Milli Məclisinin deputatı".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 fevral 2024-cü il**

---

# Süleyman Ələsgərovun 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü ildə görkəmli Azərbaycan bəstəkarı, tanınmış dirijor və pedaqoq, respublika Dövlət mükafatı laureatı, Xalq artisti Süleyman Əyyub oğlu Ələsgərovun anadan olmasının 100 illiyi tamam olur.

Süleyman Ələsgərov milli mədəni ənənələr zəminində yüksələrək Azərbaycan musiqi mədəniyyəti tarixinə mühüm səhifələr yazmış sənətkarlardandır. Onun janr əlvanlığı və forma aydınlığı ilə seçilən zəngin yaradıcılığı öz mənbəyini xalq musiqisi xəzinəsindən almışdır. Operetta, opera, simfonik muğam və poemaları, süita, kantata, kamera-vokal və instrumental əsərləri, xüsusən də sözlə melodiyanın ahəngdar vəhdətində ərsəyə gətirdiyi və ifaçıların repertuarında geniş yer tutan mahnı və romansları bəstəkara musiqisevərlərin böyük rəğbətini qazandırmışdır. Süleyman Ələsgərov maarifçi və təşkilatçı kimi ölkənin mədəni həyatının müxtəlif sahələrində uğurla çalışmaqla yanaşı, həm də uzunmüddətli pedaqoji fəaliyyəti dövründə gənc musiqiçilər nəslinin yetişməsi istiqamətində təqdirəlayiq xidmətlər göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliği işinə dəyərli töhfələr vermiş Xalq artisti Süleyman Ələsgərovun 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Süleyman Ələsgərovun 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 fevral 2024-cü il**

---

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Prezident seçkilərində parlaq qələbə qazanmağınız münasibətilə Sizə Malayziya xalqı və hökuməti adından səmimi təbriklərimizi çatdırıram.

Sizin yenidən Prezident seçilməyiniz Azərbaycanı sülhə, sabitliyə və firavanlığa doğru aparmaqda nümunəvi rəhbərliyinizin göstəricisidir. Zati-alinizin xalqınızın tərəqqisi naminə davamlı fədakarlığı həqiqətən təqdirəlayiqdir. Əminəm ki, Siz Azərbaycanın dünya birliyinin hörmətli üzvü kimi nüfuzunu daha da yüksəldəcəksiniz.

Ölkələrimiz arasında mövcud dostluq münasibətlərini və xalqlarımızın qarşılıqlı rifahı naminə əməkdaşlığı gücləndirmək üçün Sizinlə yaxından işləməyi səbirsizliklə gözləyirəm.

Uca Allahdan Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycanı yeni iqtisadi tərəqqi və firavanlığa aparmaq üçün fəaliyyətinizdə uğurlar nəsib etməsini diləyirəm.

**Hörmətlə,**

***Ənvər İBRAHİM,***
***Malayziyanın Baş naziri***

***

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və fəaliyyətə başlamağınız münasibətilə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyi adından ən səmimi təbriklərimi qəbul edin.

Fürsətdən istifadə edərək Ümumdünya Səhiyyə Təşkilatının 2021-2025-ci illər üçün BMT-nin Davamlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsinə uyğun olaraq Azərbaycanın davamlı inkişafına istiqamətlənmiş milli prioritetlərin dəstəklənməsinə sadiqliyini bir daha nəzərinizə çatdırıram.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası ilə Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyi arasındakı tərəfdaşlıq və əməkdaşlığın davamlı olacağına inanıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Hande HARMANCI,***
***Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri***

***

**Zati-aliləri!**

İcazə verin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim.

Bu uğurunuz seçicilərin Sizə, fəaliyyətinizə və planlarınıza etimadının təzahürüdür. Liderlik keyfiyyətləriniz, yorulmaz işgüzarlığınız, şəffaf rəhbərlik üslubunuz sayəsində öz Vətəninin gələcəkdə də dinamik inkişafını Sizin adınızla bağlayan xalqın ehtiramını qazanmısınız.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, əmin-amanlıq, Azərbaycan xalqının rifahı naminə iqtisadiyyatın, elmin, mədəniyyətin inkişafında yeni böyük uğurlar diləyirəm.

**Hörmətlə,**

***Vadim VOROBYOV,***
***Rusiyanın "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin baş icraçı direktoru***

***

**Zati-aliləri, hörmətli Prezident Əliyev!**

İcazə verin, Sizi yenidən Azərbaycan Prezidenti seçilməyiniz münasibətilə təbrik edim. Almaniyanın Şərqi Biznes Assosiasiyası adından Sizə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Siz keşməkeşli geosiyasi dövrdə Azərbaycana rəhbərlik edirsiniz və bu dövr Rusiya-Ukrayna müharibəsi nəticəsində daha da çətinləşib. Azərbaycan logistika, bərpaolunan enerji sahələrində, eləcə də fosil yanacaqların mühüm təchizatçısı olaraq tərəfdaş kimi önəmli rol oynayır.

İqtisadi əlaqələri genişləndirməklə yanaşı, ölkəniz həm də regional əməkdaşlıqda əhəmiyyətli rola malikdir. İqtisadi baxımdan Almaniya Azərbaycan ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verir. Biz Bakının COP29-a ev sahibliyi edəcək şəhər kimi seçilməsi ilə bağlı qərarı alqışlayır və bu münasibətlə Sizi təbrik edirik.

Şərqi Biznes Assosiasiyası Alman-Azərbaycan Xarici Ticarət Palatası ilə əməkdaşlıq edərək, bu il fevralın 26-29-da Bakıya səfər edəcək Almaniya şirkətlərinin 50 nəfərdən ibarət nümayəndə heyətinə rəhbərlik edəcək. Biz planlaşdırma məqsədilə Azərbaycanın Berlindəki səfirliyi ilə sıx əlaqə saxlayırıq və cənab Prezident, Sizinlə görüşümüzdən çox məmnun olardıq.

**Hörmətlə,**

***Katarina Klaas MÜLHAUZER,***
***Almaniya Federativ Respublikasının Şərqi Biznes Assosiasiyasının Müşahidə Şurasının sədri***

---

# Azərbaycan Prezidentinin Türk birliyinə növbəti töhfəsi

**Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dövlətləri Təşkilatının Şuşada keçiriləcək toplantısına məni dəvət etməsindən çox məmnun oldum. Çünki Şimali Kipr Türk Cümhuriyyəti də Türk dünyasının ayrılmaz parçasıdır.**



Bu, tariximiz, mədəniyyətimiz və bir çox başqa bağlarımızla da özünü əks etdirir. Biz türkçülüyü Mərkəzi Asiyadan, Qafqazdan, Anadoludan Aralıq dənizinə qədər gətirən bir dövlətin təmsilçiləriyik. Bütün bunları nəzərə alaraq Türk Dövlətləri Təşkilatında yerimizi almağımız və bu cür mötəbər tədbirlərdə iştirakımız bizim üçün qürur mənbəyidir və uğurdur.

Bu fikirləri müsahibəsində Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar səsləndirib.

2022-ci ildə Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündə yekdilliklə qəbul edilən qərarla Şimali Kipr Türk Cümhuriyyətinin təşkilata müşahidəçi üzv seçildiyini xatırladan Şimali Kipr Prezidenti deyib: "Bu, bizim üçün tarixi bir qərar idi. Türk Dövlətləri Təşkilatı hər il inkişaf edən, iri addımlarla irəliləyən, daha da güclənən bir qurumdur. Üzv ölkələr arasında münasibətlər xüsusilə son illərdə iqtisadiyyatdan ticarətə, təhsildən turizmədək demək olar ki, bütün sahələrdə hər il daha da güclənməkdədir. Bunun başlıca səbəbi isə başda Türkiyə və Azərbaycan prezidentləri Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev olmaqla, üzv ölkələrin Türk birliyinə xüsusi əhəmiyyət verməleridir. Bütün Türk dövlətlərinin eyni çətir altında toplanması və aralarındakı əməkdaşlıq gələcəkdə bu birliyi daha yüksək səviyyəyə daşıyacaq. Bu çərçivədə Azərbaycanla da müxtəlif sahədə çox gözəl, səmimi münasibətlərimiz var. Şuşada keçiriləcək tədbirə dəvətə görə bir daha Prezident İlham Əliyevə təşəkkürümü və onun şəxsində Azərbaycandakı bütün qardaşlarımıza minnətdarlığımı ifadə edirəm".

***XQ***

---

# Aİ-nin xüsusi nümayəndəsi XİN-də

**Fevralın 22-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar ilə görüşüb.**

Nazir Ceyhun Bayramov uzun sürən sabitlikdən sonra heç bir təhrikedici amil olmadan snayper atəşi nəticəsində Azərbaycan hərbi qulluqçusunun yaralanması ilə nəticələnən Ermənistan təxribatının sülh prosesinə zərbə vurmaq məqsədi daşıdığını diqqətə çatdırıb.

Sülh sazişi layihəsinə gəldikdə, ölkəmizin növbəti şərhlərinin Ermənistan tərəfinə təqdim edildiyi və bu istiqamətdə danışıqlar prosesinin başlamasında maraqlı olduğumuz diqqətə çatdırılıb. Bununla yanaşı, Ermənistanın Konstitusiyasında, qanunvericilik aktlarında, beynəlxalq təşkilat və məhkəmələrdə ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialar bir daha xatırlanıb, bu iddiaların qəbuledilməz olduğu vurğulanıb.

***XQ***

Redaksiyanın poçtundan

# Qalib dövlətin müzəffər Komandanı

**Möhtərəm cənab Prezident!**

2024- cü il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkilərində seçicilərin böyük əksəriyyətinin -92,12 faizinin Sizə etimad göstərmələri ötən illər ərzində həyata keçirdiyiniz uğurlu daxili və xarici siyasətin məntiqi nəticəsidir. Sevinir və qürur duyuruq ki, bu parlaq qələbədə **"Sabirabad-konserv" Açıq Səhmdar Cəmiyyətinin** kollektivinin də payı vardır. Kollektivimizin bütün üzvləri seçkilərdə bir nəfər kimi Sizə səs verməklə öz inam və etimadlarını nümayiş etdirdilər.

Çox hörmətli cənab Prezident!

**"Sabirabad-konserv" Açıq Səhmdar Cəmiyyətinin** kollektivi sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi - qəlbdən təbrik edir. Sizin müdrikliyiniz və uzaqgörənliyiniz sayəsində bu gün Azərbaycan dünyada QALİB ölkə kimi tanınır. Növbədənkənar seçkilərin Azərbaycanın bütün ərazilərində keçirilməsi hər birimizi qürurlandırdı. İnanırıq ki, Sizin rəhbərliyinizlə ölkəmiz daha da inkişaf edəcək, əhalinin güzəranı getdikcə yaxşılaşacaq və dünya birliyindəki mövqelərimiz ildən-ilə möhkəmlənəcəkdir.

Bu gün Qarabağda yenidənqurma, tikinti- quruculuq və abadlıq işləri geniş vüsət alıb. Sizin həyata keçirdiyiniz uğurlu siyasət sayəsində keçmiş məcburi köçkün soydaşlarımız öz isti ocaqlarına – dədə - baba yurdlarına qayıdırlar. İnanırıq ki, yaxın gələcəkdə Sizin sayənizdə Azərbaycan dünyanın ən inkişaf etmiş dövlətlərindən biri olacaqdır.



# Azərbaycan Asiya Parlament Assambleyasına sədrliyi qəbul edib

**Dünən Bakıda Asiya Parlament Assambleyasının (APA) 14-cü plenar sessiyası işinə başlayıb. "Asiyada dayanıqlı inkişaf naminə regional əməkdaşlığın gücləndirilməsi" mövzusuna həsr olunmuş sessiyada 10 ölkənin spikeri, 40-dək ölkənin parlament nümayəndə heyəti iştirak edir .**






Plenar sessiyanın gündəliyinə büronun seçilməsi, sədrliyin Azərbaycana verilməsinin təsdiqlənməsi, İcraedici Şuranın sədrinin hesabat məruzəsi, APA-nın növbəti vitse-prezidentlərinin namizədliyinin təsdiqi, APA-da müşahidəçi statusunun təqdim edilməsi və digər məsələlər daxildir.

Qeyd edək ki, 2023-cü ilin noyabrında APA-nın İcraedici Şurasının Türkiyənin Antalya şəhərində keçirilən iclasında Azərbaycan qurumun 2024-2025-ci illər üzrə sədri seçilib. Bakının evsahibliyi etdiyi 14-cü plenar sessiyasında quruma sədrlik Türkiyədən Azərbaycana keçib. Beləliklə, Azərbaycan 2024-2025-ci illərdə Asiya Parlament Assambleyasına sədrlik edəcək.

Milli Məclisin Sədri Sahibə Qafarova sessiyada çıxış edib. Spiker qeyd edib ki, bugündən Azərbaycan Respublikasının Milli Məclisi növbəti iki il üçün Asiya Parlament Assambleyasına sədrliyi qəbul edir. O, Azərbaycan parlamentinin namizədliyini dəstəklədiklərinə görə, assambleyanın bütün üzvlərinə minnətdarlığımı bildirib və deyib ki, bu, bizim üçün böyük qürur mənbəyidir. S.Qafarova quruma sədrlik dövründə öhdəliklərə göstərilən sadiqliyə görə Türkiyə Böyük Millət Məclisinə və cənab Kurtulmuşa təşəkkürünü bildirib.

Spiker bu gün humanitar böhranların, münaqişələrin, yoxsulluğun, iqlim dəyişikliyi ilə yanaşı, ayrı-seçkiliyin, irqçiliyin, ksenofobiya və islamofobiyanın artması kimi aktual problemlərin Asiya regionuna da mənfi təsir göstərdiyni bildirib. O, bütün bu çağırışların ayrı-ayrılıqda deyil, yalnız kollektiv, birgə səylərlə həll ediləbiləcəyini diqqətə çatdırıb və bunun bölgəmizdə sülh, təhlükəsizlik, sabitlik və davamlı inkişaf üçün də keçərli olduğunu bildirib.

Parlamentin Sədri bölgədə baş verən proseslərə də münasibət bildirib. O, Ermənistanın təxribatlardan, qərəzli üçüncü tərəfləri cəlb etməkdən çəkinəcəyinə və Azərbaycanın ərazi bütövlüyünə qarşı davam edən iddialarından imtina edəcəyinə ümidvar olduğunu qeyd edib.

"Təmiz ətraf mühit və yaşıl artım Azərbaycanın dayanıqlı inkişaf gündəliyinin əsas prioritet istiqamətlərindəndir"– deyən S.Qafarova Azərbaycanın 2030-cu ilə qədər dünyada bərpa olunan enerji gücünü üç dəfə artırmaq qlobal təşəbbüsünə qoşulduğunu diqqətə çatdırıb. Ölkəmiz beynəlxalq birliyin yekdil dəstəyi ilə COP 29-a evsahibliyi etmək hüququ qazanıb. Bu, Azərbaycanın iqlim dəyişikliyi sahəsində beynəlxalq səyləri dəstəkləməyə sadiqliyinin tanınmasıdır.

Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyası işini komitə iclasları ilə davam etdirir.

Plenar sessiyanın sonunda Bakı Bəyannaməsi və APA-nın yekun hesabatı qəbul ediləcək.

# Milli Məclisdə görüşlər

**Fevralın 22-də Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuşla görüşüb.**

Sahibə Qafarova parlamentlərimizin həm ikitərəfli əsasda, həm də TÜRKPA çərçivəsində fəaliyyətin gücləndirilməsinin vacibliyindən danışıb.

Spiker TBMM-in AŞPA sədrinə ünvanladığı Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin bu qurumda təsdiqlənməməsinə etiraz edən məktuba görə türkiyəli həmkarına təşəkkürünü bildirib.

Görüşdə Türkiyə–Azərbaycan Universitetinin yaradılmasından məmnunluq ifadə edilərək, bunun ölkələrimiz arasında qardaşlığın daha bir örnəyi olduğu vurğulanıb. Qeyd edilib ki, bu universitet gənclərimizin inkişafına öz töhfəsini verəcək.

TBMM sədri Numan Kurtulmuş APA-ya sədrliyin Azərbaycana keçməsi və ölkəmizin bu qurumun sessiyasına yüksək səviyyədə ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırıb. O, TBMM-in Azərbaycanın təşkilata sədrliyini hərtərəfli şəkildə dəstəkləyəcəyini ifadə edib.

* * *

**Fevralın 22-də Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının (APA) 14-cü plenar sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan İraq Respublikası Nümayəndələr Şurasının sədri Möhsin Əli Əkbər Əl-Mandalavi ilə görüşüb.**

Milli Məclisin Sədri Sahibə Qafarova plenar sessiyada müzakirə olunan mövzuların müasir dövrdə bəşəriyyəti narahat edən məsələlərin həllinə xidmət edəcəyinə inamını ifadə edərək, tədbirin təşkilata üzv ölkələr arasında əməkdaşlığın möhkəmlənməsinə də töhfə verəcəyini bildirib.

Azərbaycan və İraq arasında münasibətlərin xalqlarımızın ortaq dini və mədəni dəyərlərinə söykəndiyini bildirən Sahibə Qafarova deyib ki, Azərbaycan və İraq BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında hər zaman qarşılıqlı dəstək nümayiş etdirirlər.

***Ə.BƏDƏLOV***
***XQ***

# Afrika qitəsinə ölkəmizin dəstəyi



**Fevralın 20-21-də Azərbaycanın dəstəyi ilə Efiopiyanın paytaxtı Əddis-Əbəbə şəhərində Afrika İttifaqının mənzil-qərargahında Afrika Qitəsi Azad Ticarət Zonası haqqında Sazişin icrası və Afrikanın ticari-iqtisadi inteqrasiyasının həyata keçirilməsi ilə bağlı hibrid formatda təlim proqramı təşkil olunub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AİDA) dəstəyi və Afrika İttifaqına bağlı olan Afrika Potensialın Gücləndirilməsi Fondu (APGF), həmçinin Afrika İttifaqı Komissiyasının təşkilatçılığı ilə həyata keçirilən proqramın əsas məqsədi Afrika Qitəsi Azad Ticarət Zonası haqqında Sazişin icrasının sürətləndirilməsi üçün təlim iştirakçılarını müvafiq bilik və bacarıqlarla təmin etmək olub.

Təlim proqramının rəsmi açılış mərasimində çıxış edən Afrika İttifaqının iqtisadi inkişaf, ticarət, turizm, sənaye və minerallar üzrə komissarı Albert Muçanqa, APGF-nin icraçı katibi Mamadu Biteye, BMT-nin Afrika üzrə İqtisadi Komissiyasının nümayəndəsi Stiven Karingi, eləcə də proqram iştirakçıları təlimin əhəmiyyətini vurğulayaraq baş tutması, o cümlədən Afrika İttifaqı Xarici İşlər Nazirləri Şurasının 2022-ci il 3 fevral tarixli 1160 saylı qərarının icrası üçün göstərilmiş dəstəyə görə Azərbaycana təşəkkür ediblər.

AİDA-nın rəisi Elməddin Mehdiyev Azərbaycanın Afrika dövlətləri və Afrika İttifaqı ilə əməkdaşlıq münasibətlərinin, dostluq əlaqələrinin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verdiyini, Afrika dövlətlərinin dayanıqlı inkişafının təmin olunması naminə qitə ölkələri tərəfindən həyata keçirilən fəaliyyətləri dəstəklədiyini vurğulayıb.

Təşkilatçıların dəvəti ilə Azərbaycanın İqtisadiyyat Nazirliyinin azad ticarət zonaları üzrə mütəxəssisi Həsən Əliyev tədbirdə təlimçi qismində iştirak edib.

Təlimin bağlanış mərasimində ölkəmizin Efiopiyadakı səfiri və Afrika İttifaqı yanında nümayəndəsi Ruslan Nəsibov həyata keçirilmiş proqramın faydalı olacağına əminliyini ifadə edib.

***XQ***

# Fransanın məkrli siyasəti heç bir nəticə verməyəcək

**Fevralın 21-də Fransa Respublikasının prezidenti Emmanuel Makronun Parisdə Ermənistanın baş naziri ilə birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi və Ermənistanı birtərəfli qaydada müdafiə edən əsassız iddialarını qətiyyətlə pisləyirik.**

Bu fikir Fransa prezidentinin iddialarına dair Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) şərhində yer alıb.

Bildirilib ki, 30 ilə yaxın müddətdə hüquqları pozulmuş, ərazilərindən didərgin düşmüş, kütləvi qırğınlara məruz qalmış azərbaycanlıların hüquqları barədə indiyə qədər heç bir şərh verməyən Fransanın öz istəkləri və heç bir zorakılıq tətbiq olunmadan Azərbaycan ərazilərini tərk etmiş ermənilərin hüquq və təhlükəsizliyindən danışması tamamilə yersizdir.

"Bununla yanaşı, Alma-Ata bəyannaməsi və müəyyən xəritələr çərçivəsində ərazi bütövlüyünün vacibliyinə toxunan Fransa tərəfinin, nəyə görə məhz bu kimi razılaşmalara zidd olaraq 30 ilə yaxın müddətdə davam etmiş Ermənistan təcavüzünə və Azərbaycan ərazilərinin işğalına, habelə hazırda Ermənistanın Azərbaycanın 8 kəndini hələ də işğal altında saxlamasına qarşı çıxmaması sualına aydınlıq gətirməsi daha faydalı olardı.

Heç bir təhrikedici amil olmadan 5 aya yaxın davam edən sabitliyi pozan Ermənistanın tənqid edilməsi əvəzinə, Azərbaycanın qeyri-proporsional cavab tədbiri görməkdə təqsirləndirilməsi qəbuledilməzdir və bu kimi qərəzli yanaşmalara son qoyulmalıdır.

Fransanın bölgədə yeni gərginlik yaratmaq, sülh və sabitliyə mane olmaq istiqamətində yürütdüyü məkrli siyasətin heç bir nəticə verməyəcəyini bir daha bəyan edirik", – Azərbaycan XİN-in şərhində vurğulanıb.

***XQ***

# Makron İrəvanı “partladır”

(əvvəli 1-ci səhifədə)

Makron – Paşinyan görüşündə səslənmiş bəyanatlarla əlaqədar qənaəti bir neçə cəhətdən qruplaşdırmaq mümkündür. Birincisi, hər iki ölkə 2022-ci ilin oktyabrında Avropa Siyasi Birliyinin Praqada keçirilmiş Zirvə toplantısı çərçivəsində reallaşmış dördtərəfli (Azərbaycan Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Fransa prezidenti Emmanuel Makron və Ermənistan baş naziri Nikol Paşinyan) görüşün nəticələrini ehkamlaşdırmaq yolu tutur.

İkincisi, Paris Ermənistanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı məsələni dünya ictimaiyyətinin, necə deyərlər, gözünə soxur və mövcud fonda elə təəssürat yaradır ki, sanki Azərbaycan təcavüzkardır və İrəvanın onun aqressiyasından qorunmasına ehtiyac var. Makron tərəfindən Ermənistana hər cür dəstəyin göstərilməsinə dair fikirlərin səslənməsi bunun təsdiqidir. “Bu gün sizin varlığınız bizim hamımız üçün çox vacibdir. Mən sizin hüzurunuzda bir daha demək istəyirəm ki, Fransanın Ermənistana dəstəyinə, onun müstəqilliyinə, ərazi bütövlüyünə, demokratik proseslərə və sülh istəyinə arxalana bilərsiniz”, – deyən Fransanın dövlət başçısının yanaşması Paşinyanın Parisdə keçirdiyi bütün görüşlərin leytmotivini təşkil edib.

Üçüncüsü, rəsmi Paris Cənubi Qafqazda qlobal maraqlarının olduğunu təsdiqləyir və Paşinyanın Fransaya səfəri həmin maraq və mənafelərin qorunmasında Ermənistan kartının daim əldə saxlanılacağının mesajıdır. Nəzərə alsaq ki, səfər gözlənilmədən reallaşıb, onu Azərbaycan Prezidentinin Türkiyəyə səfərinə cavab kimi də qiymətləndirmək mümkündür və deməli, Fransa Cənubi Qafqaz müstəvisində durumun gərginləşdirməsinə maraq göstərdiyini bir daha ortaya qoyur.

***

İndi isə konkretləşdirək. E.Makron çıxışının Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı hissəsində əvvəlcə fevralın 13-də hər iki ölkənin şərti sərhədində yaşanmış hərbi toqquşmaya münasibət bildirib. O, atışma nəticəsində bir azərbaycanlının yaralanmasından təəssüfləndiyini deyib və bunu Ermənistan rəhbərliyinin də tam şəffaflıqla etiraf etdiyini vurğulayıb. Sual yaranır: Rəsmi İrəvan nə zaman və nəyi etiraf edib? Yaxud, onun etdiyi etiraf idimi? Xeyr! Ermənistan rəsmiləri, sadəcə, ilk atəşin öz hərbçiləri tərəfindən açıldığını danmağı bacarmayıblar. Çünki ortada videogörüntü olub. Yəni, dana bilməmək etiraf və peşmançılıq deyil.

Amma Paşinyan və komandasının təmsilçilərinin Azərbaycanın cavabının qeyri-adekvat şəkildə alınmadığına dair deyimləri onların səmimiyyətdən uzaqlığının göstəricisidir. Hələ bu deyimlərdə Azərbaycanın işğalçı obrazının canlandırılması da var. Əslində, Makron da eyni yolu tutur. O bildirir ki, Fransa Azərbaycanın dörd erməni hərbçisini məhv edərək, qeyri-mütənasib qisas almasından təəssüflənir. Bundan sonra Makron ölkəsinin Azərbaycanla Ermənistan arasında ədalətli və davamlı barışa nail olmaq naminə səyləri dəstəkləyəcəyini bildirib. Görəsən, dəstəkləmək beləmi olur? Beləliklə, Makron bir yandan Prezident İlham Əliyevin təbirincə desək, balansı pozur, digər yandan isə Fransanı, guya, ədalətli kimi göstərir, Bakı ilə İrəvan arasında vasitəçi imici qazanmağa çalışır. Necə deyərlər, utanmasan, oynamağa nə var...

Balansı pozmaqdan söz düşmüşkən, mövzumuzun davamını məhz haqqında söz açdığımız Praqa görüşü məsələsinə gətirməyə çalışaq. Məlumdur ki, Azərbaycan Fransa tərəfinin həmin görüşdə iştirakına etiraz etməmişdi. Prezident İlham Əliyev yanvarın 10-dakı müsahibəsində İkinci Qarabağ müharibəsindən sonra Bakı – Paris münasibətlərindəki gərginliyə baxmayaraq, Makronun Praqa görüşünə qatılmasına razılıq verdiyini açıqlamışdı. Bəs, Makron nə etdi? Görüşdən heç iki həftə keçməmiş bildirdi ki, Azərbaycan işğalçıdır, Rusiya müttəfiqi Ermənistana xəyanət edib. Nəzərə alaq ki, Yelisey sarayı rəhbərinin bu mövqeyi liderlərin Brüssel raundu çərçivəsində 2022-ci ilin dekabrında nəzərdə tutulmuş növbəti görüşünün fiasko reallığını doğurdu. Nəticədə Aİ Şurası prezidenti Şarl Mişelin sülh vasitəçiliyi missiyası iflasa uğradı. Yəni, Makronun “töhfəsi” göz qabağındadır. Elə həmin Praqa görüşündəki pozitiv cəhətləri heçə sayması da, həmçinin.

Bəli, indi Fransa prezidentinin yadına vaxtilə nəticələrini alt-üst etdiyi Praqa görüşü düşüb. O, həmin təmas zamanı Azərbaycan və Ermənistan liderlərinin 1991-ci ilin Alma-Ata Bəyannaməsinə sadiqlik göstərdiklərini xatırladır və deyir ki, Azərbaycana qeyri-müəyyənliyi aradan qaldırmaq lazımdır: “Hesab edirəm ki, Azərbaycana Ermənistanın ərazi bütövlüyü, xəritələrlə bağlı qeyri-müəyyənliyi aradan qaldırmaq həmişə lazım olduğundan daha çox lazımdır. Sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı vicdanlı iş aparılmalıdır ki, bu da sərhədin hər iki tərəfindəki qüvvələrin geri çəkilməsinə əsas olacaq”.

Göründüyü kimi, Makron siyasi manipulyasiyaya baş vurur. Bu tendensiyada Alma-Ata Bəyannaməsini ehkamlaşdırmaq xəttinin aşkar duyulması öz yerində. “Qüvvələrin geri çəkilməsi” məntiqi isə Azərbaycanı işğalçı kimi göstərməyin fərqli metodudur. Deməli, Fransa Ermənistanın bu mövzuda irəli sürdüyü avantürizmi dəstəklədiyini təsdiqləyir.

Digər tərəfdən, bəli, Azərbaycan Praqa Sammiti zamanı Alma-Ata Bəyannaməsinə sadiqliyini bəyan edib. Amma Bakının və İrəvanın sənədə sadiqliyi interpretasiyalara yol açmamalıdır. Çünki bəyannamədə konkretlik yoxdur. Yəni, o, ümumi xarakter daşıyır, keçmiş SSRİ-nin müttəfiq respublikalarının bir-birinin ərazi bütövlüklərini tanımalarını rəhbər tutur və mövcud xüsusda bəzi məqamları vurğulamağa ehtiyac var. Birincisi, yenidən bildirək: Makron özü Praqadakı razılaşmanı heçə endirib. İkincisi, Praqa görüşündən ötən müddətdə qanunsuz erməni hərbi birləşmələri, daha doğrusu, Ermənistan ordusunun hissələri Azərbaycan ərazisində qalmışdı. Habelə, Qarabağda İrəvanın dəstəklədiyi separatçı rejim “fəaliyyətini” davam etdirmişdi. Yəni, Ermənistan Alma-Ata Bəyannaməsinə əhəmiyyətsiz yanaşmışdı. Hələ otuz ilə yaxın müddətdə İrəvanın həmin sənədə tam etinasız münasibətini, Azərbaycan ərazilərinin 20 faizini işğalda saxlamasını bir kənara qoyuruq...

Əslində, Alma-Ata Bəyannaməsinin ehkamlaşdırılmasının düzgün olmadığını Prezident İlham Əliyev də bildirib. Əlbəttə, bir qədər fərqli formada. Dövlətimizin başçısının fikirləri Makronun hazırda irəli sürdüyü “Azərbaycanın xəritələrlə bağlı qeyri-müəyyənliyi aradan qaldırmasının vacibliyi” ritorikasını hədəf seçir. İş ondadır ki, xəritə ilə bağlı məsələ heç də Alma-Ata Bəyannaməsinə qeyri-sadiqlik kontekstində qiymətləndirilə bilməz. Heç Ermənistan rəhbərliyinin delimitasiya və demarkasiya zamanı 1970-ci ildən sonrakı xəritələri əsas götürmək istəməsi də sözügedən sənədə sadiqlik deyil.

Sual olunur: nə üçün Ermənistan 1970-ci ildən sonranın xəritələrinə istinadın tərəfdarıdır? Dövlətimizin başçısının münasibəti həm reallıqları açıqlayır, həm də suala cavab mahiyyəti daşıyır. “Nə üçün 1975-ci ilin, yaxud da ki, indi 1970-ci ilin, hətta bəzi təkliflərdə 1970-ci, 1990-cı illərin xəritələri, cavab çox sadədir və mən bu gün bu barədə açıq danışmaq istəyirəm”. – deyən Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində XX əsrdə Azərbaycan torpaqları hissə-hissə Ermənistana verildiyini vurğulamış və prosesin bütün təfərrüatlarını açıqlamışdı. Ölkəmizin lideri həm 1918-ci ildə Azərbaycan Demokratik Respublikası qurulan zaman İrəvanın Ermənistana paytaxt kimi verilməsini, həm 1920-ci ilin sovetləşməsindən sonra Qərbi Zəngəzurun böyük hissəsinin Azərbaycandan qoparılmasını yada salmış, həm də belə torpaq hədiyyələrinin illər ərzində düz 1969-cu ilin mayınadək davam etdiyini vurğulamış, əlavə etmişdi ki, nəticə Azərbaycanın 100 min kvadratkilometrdən çox ərazisindən 86,6 min kvadratkilometr qalmışdı. Prezidenti İlham Əliyev, həmçinin, ulu öndər Heydər Əliyevin 1969-cu ilin iyul ayında rəhbərliyə başlamasından sonra torpaq hədiyyələrinin dayandığını dilə gətirərək bunları bildirmişdi: “Onlar məhz buna görə 1970-ci illərin xəritələrini əsas götürmək istəyirdilər. Mən sual verəndə ki, yaxşı, niyə 1970-ci illər? Deyin, mənə izah edin, bunun hansı metodoloji əsasları var, siyasi əsasları var? Yoxdur. Əgər biz siyasi əsaslarına istinad etsək, onda istinad nöqtəsi kimi ya Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövrünü, ya da sovetləşmə dövrünü götürməliyik. O olar siyasi metodologiya. Əgər biz xronoloji metodologiyaya üstünlük versək, onda gəlin baxaq, XX əsrin əvvəlində xəritələr nə idi, gəlin bu xəritələr üzərində işimizi quraq. Yəni, siz 1960-cı, 1950-ci, 1940-cı illəri kənara qoyursunuz və məhz 1970-ci illərə istinad etmək istəyirsiniz. Məhz buna görə ki, bizim tarixi torpaqlarımız artıq onlara verilmişdi. Ona görə biz buna qəti surətdə etiraz etmişik və edirik. Əfsuslar olsun ki, 1970-ci illərin xəritəsini, əsas götürmək istəyən təkcə Ermənistan deyil, onun yəni, “Ermənistan plyus” qruplaşmasıdır və biz buna heç vaxt razılıq verə bilmərik”.

***

Bəli, “Ermənistan plyus” qruplaşmasının başlıca fiquru Fransadır və Makron Paşinyanla görüşündə Azərbaycanla sülh prosesinə, öz aləmində yeni durum gətirməyə də çalışır. Söhbət Qarabağ ermənilərinin bölgəyə qayıtmalarından gedir. Ölkəmizin prinsipial baxışı budur ki, Qarabağ ermənilərinin yaşadıqları yerlərə dönüşü vaxtilə Ermənistandan didərgin salınmış azərbaycanlıların əzəli torpaqlarına, yurd yerlərinə qovuşmaları ilə eyni kontekstdə qiymətləndirilməlidir. Yəni, sülh müqaviləsində hər iki qayıdış əsas götürülməlidir. Ancaq Fransa prezidentinin səsləndirdiyi fikir bunun əksidir. O, Beynəlxalq Ədalət Məhkəməsinin 17 noyabr 2023-cü il tarixli qərarından söz açır və deyir ki, Azərbaycan 2023-cü il sentyabrın 19-dan etibarən “Dağlıq Qarabağı tərk edən və geri qayıtmaq istəyən şəxslərin” təhlükəsiz, rəvan və tez bir zamanda bu əraziyə dönmələrini təmin etməlidir. Yəqin, “Dağlıq Qarabağ” ifadəsinə diqqət yetirdiniz. Təkcə bu ifadə Fransanın Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə münasibəti baxımından hər şeyi ortaya qoyur... Qarabağ erməniləri isə yalnız bəhanədir. Məqsəd onların qayıtmaları üçün yaranacaq təminatı beynəlxalq səviyyədə müəyyənləşdirməkdir ki, bu da öz növbəsində Parisin Qarabağdakı erməni separatizmini yenidən alovlandırmaq cəhdidir.

***

Makronun Paşinyanla görüş əsnasında səsləndirdiyi fikirlər Fransanın qlobal siyasət trayektoriyasının məhsulu kimi də qiymətləndirilə bilər. Ermənistanın ərazi bütövlüyü və suverenliyi, ardınca Azərbaycanın Ermənistan üçün vacib olan məqamlarla razı salınması cəhdi. Növbədə daha bir “vəzifə” var. Fransa prezidenti deyir ki, Cənubi Qafqazın sülh, inteqrasiya və əməkdaşlıq regionu olmasını istəyir. Onun sözlərinə görə, kommunikasiya kanallarının parçalanma deyil, inteqrasiya faktoru olması zəruridir. “Mən Mərkəzi Asiyaya səfər etmişəm və istəyirəm ki, Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropa İttifaqı arasında kommunikasiya əlaqələri inkişaf etsin”, – deyən Makron yenə də ermənipərəstliyini göstərir və İrəvan tərəfindən irəli sürülmüş “Dünyanın kəsişməsi” ideyasını alqışladığını bildirir. Deməli, o, Paşinyan administrasiyasının təşəbbüsünü özünün “kommunikasiya oxunun” tərkibində görür. Və deməli, tam məlum olur ki, “Dünyanın kəsişməsi” təkcə erməni iqtidarının deyil, həm də rəsmi Parisin düşüncə məhsuludur.

Bəli, Fransa dolayısı ilə Azərbaycanın “Zəngəzur dəhlizi” təşəbbüsünə qarşı çıxır. Ümumən, göstərir ki, Cənubi Qafqazda mübarizə plasdarmı formalaşdırmaqda, bölgəyə yeni siyasi reallıqlar gətirməkdə maraqlıdır. Görünür, Paris kollektiv Qərbin Cənubi Qafqaz maraqlarını yerinə yetirməkdə, belə demək mümkünsə, qladiatorluğa keçib. Əlbəttə, hazırkı durumda Ermənistan, obrazlı desək, qladiatorun əl meymununa, ya da təlxəyinə oxşayır. Amma Paris həmin təlxəyi müdafiə edəcəyini vurğulayır və bu anlamda Makronun Fransanın Aİ ilə İrəvan arasındakı əlaqələrin inkişafına güclü dəstək verəcəyini bildirməsi başlıca faktordur. Əlbəttə, ən vacib məsələ Ermənistanın ərazi bütövlüyünə və suverenliyinə dəstəkdir.



Qeyd edək ki, artıq Ermənistandakı bəzi dairələr məhz söz açdığımız dəstək ritorikasına əks yanaşma ortaya qoyurlar. Onlar çox haqlı olaraq bildirirlər ki, əvvəllər ölkənin ərazi bütövlüyünü və suverenliyini qorumaq kimi gündəmi yox idi. Həmin dairələr məsələnin, ümumən, nəinki gündəlikdə olmadığını, heç ağla belə gəlmədiyini vurğulayırlar. İndi Paşinyan administrasiyası bundan söz açmağı xoşlayır və vətənpərvərlik məntiqinə güc verir. Halbuki, durum dramatik şəkil almaya da bilərdi.

Nəticəyə gəlirik ki, N.Paşinyan administrasiyası Ermənistanı qlobal oyunların məngənəsinə atır və yaxşı bilir ki, bu oyunlardakı məğlubiyyətin cəzası ağır olacaq. Ona görə qabaqdangəlmişlik edib ucuz populizm yolu tutur. “Ermənistanın ərazi bütövlüyünü və suverenliyi” mövzusu məhz bu səbəbdən gündəmdədir.

Makrona gəldikdə isə o, fikirləri ilə təxminən belə deyir: Ermənistan kollektiv Qərbin regional maraqları naminə hər şeyi etsin, həyasızlıq yolu tutsun, o cümlədən, Azərbaycana qarşı çıxsın, bütün bunların müqabilində dövlət kimi yox olub getməkdən narahat olmasın. Bəs İrəvanın çıxardığı oyunlara görə cəzasız qalacağına təminat varmı? Fransa prezidentinin sözlərindən belə düşünmək olar ki, təminat Avropa İttifaqının Azərbaycan – Ermənistan şərti sərhədinin Ermənistan tərəfində lövbər salmış mülki müşahidə missiyasıdır. Guya ki, missiyanın məqsədi sabitliyi təşviq etmək, beynəlxalq ictimaiyyətə qərəzsiz məlumat vermək və münaqişə zonalarında həssas əhalinin təhlükəsizliyinin təminatıdır. “Ermənistan da Avropanın sülh alətlərindən yararlanmalıdır. Avropa İttifaqı və Ermənistan yeni tərəfdaşlıq üçün cədvəl hazırlamaq istəyirlər”, – deyən Fransa prezidentinin İrəvanı illüziya bataqlığına sürüklədiyi gün kimi aydındır. O, Ermənistandakı illüziyanı sınıq-salxaq fransız silahlarını ölkəyə verməklə də dərinləşdirir...

***

Makronun hansı tərəfdaşlıq cədvəlindən danışdığı hələlik tam agah olmasa da, bir şey dəqiqdir ki, Paşinyanın Paris səfəri zamanı dedikləri Fransa prezidentinin fikirlərinin davamıdır. Yəni, Nikol da 2022-ci ilin Praqa Sammitindən söz açıb və bildirib ki, həmin görüşdəki prinsiplərə əməl olunarsa, Ermənistanla Azərbaycan arasında sülh mümkündür.

Deməli, Paşinyan şərt dilində danışmağa üstünlük verir. O, eyni zamanda, faktiki olaraq, ölkəsinin silahlanma kursunu davam etdirəcəyini bildirir və bunun regionda təhlükəsizliyin və sabitliyin təminatı baxımından vacibliyini önə çəkir. …Erməni baş nazir bir yandan qonşuların ərazi bütövlüyünə, suverenliyinə hörmət, Ermənistanın müdafiə qabiliyyətinin inkişafının heç kəsdə narahatlıq doğurmamasına dair yalnız sözdə olan təminat, digər yandan İrəvanın regionda düzgün balans yaratmaq, qanuni, suveren əraziləri, sərhədləri qorumaq istəməsi. Göründüyü kimi, Paşinyanın fikirləri təzadlıdır, məntiqsizdir. Durum nədən yaranır? Məsələ ondadır ki, Paşinyan Makronun Ermənistanı saldığı oyunda riskin mövcudluğunu yaxşı anlayır. Bu səbəbdən ölkəsinin müdafiə qabiliyyətinin yüksəldilməsindən danışır. Bir növ, sağ qalmaq üçün təminat istəyir. Yəni, o, nə qədər pərdələmək istəsə də, içərisində olduğu oyunun qorxunc nəticələr doğuracağından əndişələndiyini gizlətməkdə çətinlik çəkir.

Paşinyan çıxışında digər məqamlara da toxundu. Ancaq onun başqa nələrdən danışdığının üzərində dayanmağa ehtiyac duymuruq. Yekun budur ki, artıq Fransa öz prinsipial mövqeyini tam açıq şəkildə ortaya qoyur. Ümumən, Ermənistanın baş nazirinin Parisə işgüzar səfəri həmin mövqeyin ifadə səhnələri ilə yadda qaldı. Bu yerdə Azərbaycan Prezidentinin bir fikrini də diqqətə çatdırmağı vacib sayırıq: “Sadəcə, Fransa artıq heç bir başqa amillərlə maskalanmayaraq açıq şəkildə anti-Azərbaycan fəaliyyəti aparmağa başladı – qətnamələrin qəbul edilməsi cəhdləri, bundan sonra BMT Təhlükəsizlik Şurası platformasında Azərbaycana qarşı sanksiyalar tələbi. Zənnimcə, ən azı 5 dəfə bu cür cəhdlər edildi və onların hamısı tam uğursuzluqla nəticələndi, çünki ölkələrin əksəriyyəti bizi dəstəklədi və bu qətnaməni qəbul etdirmək üçün onlar dövlətlərin zəruri sayını toplaya bilmədilər. Bu, əlbəttə, onlar üçün çox güclü siyasi zərbə idi, çünki biz belə desək, onlara öz meydançalarında qalib gəldik. Həmçinin düşünürəm ki, Avropa İttifaqının onlara qoşulmaması da böyük bir zərbə oldu, hərçənd məlum oldu ki, Avropa İttifaqı diplomatiyasının rəhbəri təəssüf ki, Fransanın Azərbaycana qarşı siyasətinə dəstək verənlərin arasında yer alıb. Lakin ümumilikdə, Avropa İttifaqı ölkələri Azərbaycana münasibətdə vahid mövqe üzrə razılığa gələ bilmədilər, Fransa isə məhz sanksiyalarda və başqa addımlarda israr edirdi. Artıq bu tezislər səsləndirilib və onlar belə desək havadan asılı qalıb, sözdən əmələ keçməyib”.

Sonda lap əvvələ qayıdaraq deyək ki, “Dərviş Parisi partladır” filmindəki hamımıza tanış olan dərviş obrazı Fransa prezidenti E.Makronun özüdür. İndiki durumda barıtı çox edən yox, Parisdən çoxlu barıtla qayıdan isə baş nazir N.Paşinyandır. Paşinyan həm də barıtla düzgün rəftarı bacarmayan biridir. Deməli, Makronun onun köməyi ilə Ermənistanı “partlatması” an məsələsidir və hadisələrin bu perspektivə doğru getdiyi şübhə doğurmur.

**Əvəz CAHANGİROĞLU**
**XQ**

# Daxili işlər naziri Saatlıda qəbul keçirib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov fevralın 22-də Saatlı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**



Nazir əvvəlcə ümummilli lider Heydər Əliyevin Saatlı rayonundakı abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Sabirabad, Beyləqan, İmişli, Saatlı, Füzuli və Xocavənd rayonlarından qəbula gələn 215 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

35 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 154 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***

# Naxçıvan – Türk dünyasına açılan qapı

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli “Türk dünyasına açılan Şərq Qapısı: Naxçıvan – 100” konfransının iştirakçısı olan Türk Ağsaqqalları Birliyinin rəhbər heyəti ilə görüşüb.**



Fuad Nəcəfli qonaqlara Naxçıvanda həyata keçirilən sosial-iqtisadi inkişaf tədbirlərindən – su təminatı, energetika, infrastruktur quruculuğu, təhsil, səhiyyə, kənd təsərrüfatı və digər istiqamətlərdə reallaşdırılacaq çoxprofilli layihələr barədə məlumat verib. Səlahiyyətli nümayəndə bildirib ki, Naxçıvan inkişafının yeni mərhələsini yaşayır, 2023–2027-ci illərdə sosial-iqtisadi inkişafa dair dövlət proqramının icrası çərçivəsində muxtar respublikada 11 prioritet sahə üzrə mühüm layihələr reallaşdırılacaq. Naxçıvan Azad İqtisadi Zonaya çevrilməklə investorların xüsusi diqqətini cəlb edəcək.

Türk Ağsaqqalları Birliyinin sədri Sudeyf İmamverdiyev, qurumun rəhbər heyətində təmsil olunan Milli Məclisin deputatı Musa Qasımlı, Dünya Türkologiya Mərkəzinin sədri Güllü Yoloğlu, AzTV Akademiyasının rektoru Telli Pənahqızı Naxçıvanın Azərbaycan tarixində və müstəqil dövlətçiliyimizdə xüsusi yerini vurğulayaraq, muxtar diyar əhalisinə xoş günlər arzulayıblar.

***XQ***

# Xüsusitəyinatlıların qış təlimi

**Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) hissə və bölmələri ilə “Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması” mövzusunda növbəti taktiki-xüsusi təlim keçirilib.**



Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, təlimdə xüsusi təyinatlılar ərazinin maketi üzərində tapşırıqları dəqiqləşdirib, yüksək dağlıq ərazidə və şiddətli soyuqlarda xizəkli texnikalarla taktiki yerdəyişmə fəaliyyətlərini yerinə yetiriblər.

Döyüş qrupları şəklində şərti düşmənin dayaq məntəqəsinə qəfil pusqu keçirilib, həmlə obyektində və onun cinahlarında aşkar edilmiş canlı qüvvə məhv edilib, təminat yolları bağlanıb və dəstək üçün gələn digər qüvvələrin məhv edilməsi üzrə tapşırıqlar icra edilib.

Qarlı-şaxtalı hava şəraitində komandir heyətinin bölmələrin idarə edilməsi üzrə bilik və bacarıqlarının artırılması, döyüş əməliyyatları və xilasetmə tədbirlərinin aparılması, şəxsi heyətin xizəksürmə, eləcə də hərəkətli və hərəkətsiz vəziyyətdə atəşaçma vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə qarşıya qoyulmuş tapşırıqlar yüksək peşəkarlıqla yerinə yetirilib.

***XQ***

# AMEA-da hərbi attaşelərlə görüş

**Dünən Azərbaycan Milli Elmlər Akademiyasında ölkəmizdə akkreditə olunan xarici dövlətlərin hərbi attaşelərinin tanışlıq görüşü keçirilib.**

Hərbi attaşelik aparatının nümayəndələri əvvəlcə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin yerləşdiyi tarixi “İsmailiyyə” binası ilə tanış olublar. Qonaqlara bildirilib ki, ötən əsrin əvvəllərində Müsəlman Xeyriyyə Cəmiyyətinin qərargahı olmuş bu nadir tikilini 1918-ci ildə Bakıda kütləvi soyqırımı törətmiş erməni silahlı quldur dəstələri yandıraraq büsbütün dağıdıblar. Sonradan bərpa edilmiş bina Azərbaycan elminin məbədgahına çevrilib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli tanışlığın davamında qonaqlara milli akademiyanın yaranma tarixi və fəaliyyəti haqqında məlumat verib.

***XQ***



Redaksiyanın poçtundan

# Regionda yeni reallıq yaradan Lider

**Möhtərəm cənab Prezident!**

Bu il fevralın 7-də növbədənkənar prezident seçkilərinin son dərəcə azad, demokratik və ədalətli keçirilməsi dünya ictimaiyyəti tərəfindən də etiraf olunur. Bunu dünyanın müxtəlif ölkələrindən, eləcə də, nüfuzlu beynəlxalq təşkilatlardan Sizə ünvanlanan saysız-hesabsız təbrik məktubları da təsdiqləyir. Seçkilərin Azərbaycanın bütün ərazilərində, o cümlədən işğaldan azad edilmiş torpaqlarımızda da keçirilməsi, Sizin ailə üzvlərinizlə birlikdə Xankəndidəki seçki məntəqəsində səs verməyiniz bütün dünyaya bəyan etdi ki, Qarabağ Azərbaycandır!

Çox hörmətli cənab Prezident! Seçkilərdə qazandığınız qələbə bir daha təsdiqlədi ki, Prezident-Xalq birliyini heç bir qüvvə sarsıda bilməz. Bu parlaq Qələbə münasibətilə **"FRUKTUZ AQROPARK" MMC-nin** kollektivi Sizi səmimi-qəlbdən təbrik edir və ümidvar olduğunu bildirir ki, Azərbaycanın gələcək taleyi və xalqın həyat tərzinin daha da yaxşılaşdırılması etibarlı əllərdədir.

Möhtərəm Prezident! Seçkilərdə xalqın Sizə inam və etimadı bir daha özünü açıq şəkildə göstərdi. Hamımıza yaxşı məlumdur ki, Azərbaycanın yenilməz Ordusu Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə işğal və təcavüzə, habelə separatizmə son qoydu. Bundan sonra Azərbaycanda, bütövlükdə regionda yeni reallıq yaranmışdır. Sizin düzgün müəyyənləşdirdiyiniz daxili və xarici siyasət Azərbaycanı tarixin ən güclü dövlətinə çevirib. Sizin gərgin zəhmətiniz sayəsində ölkəmiz dünyada söz sahibinə çevrilib. Artıq bütün dünya azərbaycanlıları Azərbaycan vətəndaşı olmaqdan qürur hissi keçirirlər. Biz bu uğurlara Sizin sayənizdə nail olmuşuq. Sizə gələcək işlərinizdə yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayırıq.

# Aİ-nin "binokllu diplomat-kəşfiyyatçıları"

## *Son bir ildə şərti sərhəddə baş verənlər göstərdi ki, bu missiya təxribatla məşğuldur*

**(əvvəli 1-ci səhifədə)**

"Avropa İttifaqının (Aİ) Ermənistandakı müşahidə missiyası Cənubi Qafqazda sabitliyə zəmin yaradır və cari hadisələrin şəffaflığının təminatında mühüm amildir". "Armenpress" xəbər verir ki, bu sözləri Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Aİ-nin Ermənistandakı müşahidə missiyasının fəaliyyətinin 1-ci ildönümünə həsr olunmuş tədbirdə söyləyib. O, yada salıb ki, arxada qalan il Aİ-nin mülki missiyası üçün olduqca vacib mərhələ olub: "Missiyanın dislokasiya yeri, kadr heyəti, onun fəaliyyətinin hüquqi əsasları ilə bağlı bir sıra məsələlər həllini tapıb və böyük tərəqqiyə nail olunub".

Avromissiyanın Ermənistanda hansı "tərəqqiyə" nail olduğuna fevralın 12-də şahidlik elədik. Münhen Təhlükəsizlik Konfransına beş gün qalmış Ermənistan ordusunun şərti sərhəddə təxribata əl atması, erməni snayperin Azərbaycan sərhədçisini yaralaması və bunun ardınca baş verənlər, nədənsə, Aİ-nin müşahidə missiyasının "gözündən yayındı". Ermənistan ordusu layiq olduğu cəzasını aldıqdan sonra isə Aİ-nin Ali baş komissarı Cozep Borrelin Azərbaycanı qınayan bəyanatı bizə suyun bulandırıldığı səmti göstərdi.



"Yubiley" tədbirinə qayıdaraq, A.Qriqoryanın alovlu çıxışından bəzi məqamlara nəzər salaq: "Aİ-nin missiyası Ermənistanda öz fəaliyyətinə bizim üçün çox çətin dövrdə başladı və artıq bir ildir ki, Ermənistan və Azərbaycan arasında beynəlxalq hüququn tanıdığı bütün sərhəd boyu monitorinq funksiyasını yerinə yetirir. Ermənistan tərəfi Aİ-nin iyirmidən çox üzv ölkəsinə, Brüsseldəki rəhbərliyə və missiyanın əməkdaşlarına bu vacib işə verdikləri töhfəyə görə minnətdardır. Biz missiyanın tərkibində Aİ-yə üzv ölkələrin hamısının nümayəndələrini görəcəyimizə ümid edir və gözləyirik".

* * *

Bu məqamda qeyd etməyi zəruri sayırıq ki, rəsmi Bakı Ermənistanla şərti sərhəddə öz ərazisinə Aİ-nin mülki missiyasının göndərilməsi cəhdlərini qətiyyətlə rədd edib. Azərbaycan Prezidenti İlham Əliyev bu barədə 2022-ci il oktyabrın 14-də Astanada MDB Dövlət Başçıları Şurasının iclasında çıxışı zamanı bildirib: "Avropa Siyasi Birliyi"nin yeni platforması çərçivəsində Praqada Fransa Prezidenti, Avropa İttifaqı Şurasının prezidenti, Ermənistan baş naziri və Azərbaycan Prezidentinin iştirakı ilə dördtərəfli görüşdə Ermənistan–Azərbaycan sərhədi yaxınlığında Ermənistan ərazisinə Avropa İttifaqının 40 nəfərdən ibarət mülki missiyasının göndərilməsi barədə qərar qəbul olundu. Sonradan öyrəndik ki, onların sayı 50 nəfər olacaq. Onlar orada azı 2 ay olacaqlar. Missiyanın məqsədi, gördüyümüz kimi, tərəflərə delimitasiya ilə bağlı məsələlərin müəyyənləşdirilməsində kömək etməkdir. Bu səbəbdən buna razılıq verdik. Bu missiyanı Azərbaycan tərəfinə göndərmək barədə də cəhdlər oldu, ancaq bizim tərəfimizdən bu cəhdlər qətiyyətlə rədd edildi".

Aİ mülki missiyasının son birillik fəaliyyəti cənab Prezidentin onun əsl məramının nədən ibarət olduğunu elə rüşeymindəcə dəqiq müəyyənləşdirdiyini isbatladı. Yuxarıda yazdığımız kimi, Aİ-nin bu strukturu heç bir halda mülki missiyaya deyil, hərbi kontingentə bənzəyir. Bu baxımdan missiyanın büdcəsinin həcmi də maraq doğurur. "Aİ-nin Ermənistandakı missiyası haqqında şuranın qərarı"nın 13-cü maddəsinə əsasən, bu qərarın qüvvəyə minməsindən sonra dörd ay ərzində missiya ilə əlaqəli xərcləri ödəmək üçün nəzərdə tutulmuş əsas maliyyə məbləği 8.103.590,82 avrodur. Yəni, onun birillik büdcəsi 24 milyon avrodan çoxdur. Sizcə, mülki missiya üçün bu məbləğ çox deyil?

* * *

Bakı Aİ-nin şübhəli fəaliyyətindən narazılığını dəfələrlə dilə gətirib. Amma qarşı tərəf buna əhəmiyyət verməyib. Vəziyyəti düzgün dəyərləndirən rəsmi Bakı Aİ-nin Azərbaycandakı səfiri Peter Mixalkonu ilk dəfə Xarici İşlər Nazirliyinə dəvət edib. Görüş zamanı səfirin diqqətinə Azərbaycan tərəfinin bəzi narahatlıqları çatdırılıb. Aİ-nin Ermənistandakı monitorinq missiyasının əldə olunmuş ilkin razılıqlara zidd addımlar atdığı, missiyanın regional sabitlik, habelə Azərbaycanla Ermənistan arasında etimad quruculuğuna töhfə verməsinin əksinə olaraq, ölkəmizə qarşı təbliğat vasitəsi kimi geniş şəkildə sui-istifadə olunduğu vurğulanıb. Bununla yanaşı, rəsmi Bakı Ermənistan ərazisindəki missiyanın bəyan edilmiş mandatına uyğun surətdə neytral, mülki və silahsız missiya qismində fəaliyyət göstərməsinə çağırış edilib.

Yuxarıda deyilənləri bir yerə toplasaq, mənzərə tam aydın olar: Cənubi Qafqaz uğrunda böyük geosiyasi oyun davam edir. Təbii ki, 44 günlük müharibədən sonra güclənən Türkiyə–Azərbaycan tandeminə qarşı düşərgədə Ermənistana Cənubi Qafqazın Livanı rolu ayrılıb. Bu da onun boyuna uyğun seçilmiş missiyadır...

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Keçmiş hərbçilərdən və kəşfiyyatçılardan ibarət Avropa İttifaqının müşahidə missiyası iki ölkənin şərti sərhədində nəyi izləyə bilərdi? Aydın məsələdir ki, onların əsas məqsədi bölgədə vəziyyəti müşahidə etmək, zəruri məlumatları toplamaq və həmin informasiyaları öz ölkələrinə göndərməkdən ibarətdir. Yəni, söhbət ondan gedir ki, həmin missiya "binokl diplomatiyası" adı altında regionda real şəkildə, çox güman ki, gizli fəaliyyətlə məşğul olur. Digər tərəfdən, bu missiya Ermənistanı kimdən və necə qoruyur? Axı, şərti sərhəddə Ermənistanın təhlükəsizliyi hansı formada təmin edilir?

Azərbaycanın Ermənistana qarşı heç vaxt ərazi iddiası olmayıb. Bundan sonra da, yəqin ki, olmayacaq. Əgər Aİ missiyası, həqiqətən də, vəziyyəti müşahidə edib, hansısa qoruyucu tədbirləri həyata keçirirlərsə, onda ilk növbədə, Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının qarşısını almalıdır. Sərhədin bu üzündəki əsgərlərimizə erməni snayperləri tərəfindən atəş açılır. Bu halda onlar nəyi müşahidə edirlər, nəyi izləyirlər? Buna sərhəd zolağında sabitliyin qorunması adını vermək olarmı? Düşünürəm ki, avromissiyanın bu xarakterli qeyri-müəyyən fəaliyyəti heç bir konkret nəticə verə bilməz. Çünki Aİ-nin mülki missiya ilə bağlı qərarında açıqlanan əsas məqsəd və funksiyalar, sadəcə olaraq, görüntü xarakteri daşıyan müddəalardır.



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşadırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi**

Avropa İttifaqı Cənubi Qafqaza özünün mülki missiyasını göndərəndə onu hər iki respublikada yerləşdirmək istəyirdi. Azərbaycan Prezidenti, haqlı olaraq, bunun əleyhinə çıxdı. Zatən Qarabağda Rusiya hərbi kontingenti olduğu halda, bölgəyə avromissiya da gəlsəydi, bu, mütləq qarşıdurmaya səbəb olacaqdı. Azərbaycana əlavə problem lazım deyildi. Amma Ermənistan baş naziri Nikol Paşinyan Brüsselin bu təklifini sevincək qəbul etdi. Bunun bir səbəbi də İrəvanla Moskva arasında yaşanan gərginlik idi. Yəni, Paşinyanın Rusiyadan narazılığı onun Avropaya üz tutmasına səbəb oldu.

Keçən bir ildə Aİ misiyasının bölgəyə heç bir faydası olmayıb. Əksinə, əlavə gərginlik yaradan elementə çevrilib. Bu mülki missiyanın sərhədlə bağlı doğru-düzgün fəaliyyəti də yoxdur. Missiyalarına uyğun onlara yaxşı ad da qoymuşuq: "binokl diplomatiyası". Yəni, həmin fransız və alman emissarlar şərti sərhədin o üzündən Azərbaycan tərəfə baxır, şəkillər çəkir, hətta onları internetdə də yayırlar. Bundan məqsədləri Azərbaycanı qıcıqlandırmaqdır. Halbuki, Aİ İrəvanla yanaşı, Bakı ilə də əməkdaşlıqda maraqlıdır. Fəqət bu xarakterli missiya Aİ–Azərbaycan münasibətlərinə ancaq ziyan vurur. Şərti sərhəddə ortaya çıxmış son insident isə İrəvanın seyrçi mövqe tutduğunu ortaya qoydu. Azərbaycan sadəcə təxribata adekvat cavab verdi. Aİ məsuliyyəti atdı Rusiyanın üzərinə. Guya, sərhədin həmin hissəsi Rusiyanın nəzarətindədir.

Avropa, faktiki olaraq, Rusiya və Ermənistan arasında maraqların mübarizəsini aparır. Digər tərəfdən, Moskva anlayır ki, Aİ monitorinq missiyasının əsl məqsədi heç də sərhəddə müşahidə aparmaq deyil, Rusiyanın Gümrüdəki hərbi bazası, sərhədçiləri barədə kəşfiyyat məlumatları toplamaqdır. Hansı tərəfdən baxsaq, bu mülki missiyanın bölgə üçün heç bir faydası olmadı. Ən böyük ziyanı isə Ermənistan özü gördü.

# Türk dünyasının yeni hədəfləri

## Prezident İlham Əliyevin Türkiyə səfəri işığında

**I MƏQALƏ**

**Gənclərimizin təlim-tərbiyə, təhsil, tədris işinə diqqətinizi azaltmayın.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**



### Real strateji müttəfiqlik

Yaranmış ənənəyə əsasən, Türkiyədə Prezident seçilən ilk xarici səfərini Azərbaycana, Azərbaycanda Prezident seçilən isə Türkiyəyə edir. İlham Əliyevin 2024-cü il fevralın 7-də yenidən Azərbaycan Respublikasının Prezidenti seçiləndən sonra ilk rəsmi səfərini Türkiyəyə etməsi bu baxımdan çox normaldır. Türkiyənin dövlət başçısı R.T.Ərdoğanla keçirilən görüşdə həmin qayda haqqında da danışıldı. Dövlət başçıları qarşılıqlı səfərləri iki qardaş dövlət arasında əməkdaşlığın daha da inkişaf etməsinə xidmət göstərdiyini vurğuladılar.

Ənənə şəklini almış hər belə səfər zamanı iki qardaş dövlət arasında münasibətlərin daha da inkişaf edəcəyi haqqında nəticə çıxarılır. O cümlədən, bu növ səfərlər iki türk dövləti arasında strateji müttəfiqliyin real rəmzi kimi dərk edilə bilər.

Bunlarla yanaşı, İlham Əliyevin Türkiyəyə bu səfərində bir sıra yeni geosiyasi məqamlar vardır ki, onların üzərində geniş dayanmaq gərəkdir. Həm də ona görə ki, İlham Əliyevin bu səfəri göstərdi ki, Azərbaycan – Türkiyə strateji birliyi, bütövlükdə, Türk dünyasının perspektivli inteqrasiyası üçün əsas model rolunu oynaya bilər. Biz bu tezisimizi üç strateji faktorun qarşılıqlı əlaqəsi işığında əsaslandırmağa çalışacağıq.

### Cənubi Qafqazın geosiyasi həssaslığı

Regionumuzda geosiyasi proseslər həm daha çox qeyri-müəyyən hala gəlmiş, həm də ən kiçik xaotik faktorlara qarşı həssas olmuşdur. Bunun səbəbi Ermənistan və onun havadarlarının əvvəlki geosiyasi konfrontasiya xəttini davam etdirmələridir. Belə bir pozucu tendensiyanın qarşısında isə Azərbaycan – Türkiyə birliyi vardır. Hazırda bu birlik, faktiki olaraq, regional sabitliyin təminatçısıdır. Bu barədə dövlət başçıları açıq fikir bildirirlər. Bu baxımdan İlham Əliyevin Türkiyəyə son səfərini iki qardaş dövlətin Cənubi Qafqazda sabitliyi təmin etmək istiqamətində hansı yeni addımları atmağın lazım gəldiyini müzakirə etmək imkanı kimi də qiymətləndirə bilərik.

Məsələnin vurğuladığımız aspektinin geosiyasi anlamı böyükdür. Çünki burada faktiki olaraq Cənubi Qafqazda regional miqyasda iki türk dövlətinin tarixi missiyasının və məsuliyyətinin yeni anlamı mövcuddur. Son 300 ildə belə bir situasiya yaranmamışdı. Əsasən kənar dağıdıcı qüvvələr regionda geosiyasi vəziyyəti diktə etmişlər və iki türk dövləti buna qarşı dura biləcək güc ortaya qoya bilməmişdir. Nəticədə zaman-zaman hər iki qardaş dövlət geosiyasi nüfuzda, ərazidə, təsir dairəsində və müstəqil inkişaf imkanlarında itirmişdir.

Həmin mərhələni dövlət üsulu aspektində dərk etməyə çalışsaq, hər iki türk dövlətinin imperiya üsul-idarəsi çərçivəsində real vahid güc ola bilmədiyi qənaətinə gəlirik. Rusiya Qafqazı işğal edəndən sonra isə vəziyyət daha da pisləşdi. XX əsrin ikinci onilliyində Osmanlı imperiyası parçalandı və Azərbaycan da qısa müstəqillikdən sonra suverenliyini itirdi. Nəticədə Osmanlının şinelindən çıxan Türkiyə Cümhuriyyəti Qərbin təsiri altına, parçalanmış Azərbaycan isə Rusiyanın nəzarətinə keçdi. Bununla da siyasi və geosiyasi mənada iki türk dövlətinin hər hansı birliyindən danışmaq imkanı aradan qalxdı.

Keçən əsrin 90-cı illərində Azərbaycanın müstəqillik əldə etməsi də real anlamda türk dövlətlərinin vahid güc kimi çıxış etməsini təmin etmədi. Səbəblər çoxdur, lakin biz onları xatırlamayacağıq. Yalnız ulu öndər Heydər Əliyevin ciddi səyləri nəticəsində Azərbaycanla Türkiyənin real vahid geosiyasi güc olmaq şansı yarandı. İlham Əliyev XX əsrin ilk onilliklərində bu tendensiyaya konkret məzmun verdi. Bunun nəticələrindən biri II Qarabağ savaşında qazanılan Zəfər oldu.

Beləliklə, İlham Əliyev 2024-cü ilin fevralında yenidən Prezident seçilərək Türkiyəyə səfər etməsi ilə iki türk dövlətinin müttəfiqliyi və ümumilikdə, türk dövlətləri birliyi aspektində yeni tarixi dövrün başlanğıcını qoydu. Burada yeni dönəmdə üç strateji faktoru ayrıca vurğulamaq lazımdır.

### Azərbaycan–Türkiyə birliyi: 3 strateji amil

Həmin faktorları Ankarada Prezident İlham Əliyev bəyan etdi. Onlar ortaq təhsil, ortaq ordu quruculuğu və ortaq hərbi sənaye kompleksinin yaradılmasıdır! XXI əsrdə müstəqil və güclü dövlət olmanın şərtlərinə baxsaq, bu iki faktorun həlledici olduğuna əmin olarıq. Bu tezisin əsaslı izahı vardır.

Heç kəsə sirr deyildir ki, XXI yüzili bir sıra hallarda "intellektlərin, mədəniyyətlərin yarışı əsri" adlandırırlar. İndi dünyanın hər bir müstəqil cəmiyyətinin inkişafını intellketsiz və deməli, təhsilsiz təsəvvür etmək mümkün deyil. Təhsil həm peşəkar kadrlar yetişdirir, həm də insan formalaşdırır. Bu iki aspektin sintezi məsələsi hazırda inkişaf etmiş ölkələrdə geniş araşdırılır. Belə qənaət vardır ki, müasir mərhələdə ən inkişaf etmiş dövlətlərdə belə universitet strategiyasının yeniləşməsi lazımdır. Çünki artıq Humbolt modeli üzrə insan yetişdirmək dövrün tələblərini ödəmir. Meydana çox sayda yeni şərtlər çıxmışdır. Məsələn, insan daha çox aspektləri əhatə edən biliyə sahib olmağa məhkumdur. İnsanın yeni sürətlə dəyişən dünyada əsl vətənpərvər olması şərtləri də dəyişməkdədir. Qloballaşma bir tərəfdən, iqtisadi əlaqələrə yeni universal təkan verirsə də, digər tərəfdən milli özünəməxsusluğu "əridir". Bu da sonda milli müstəqil dövlətçiliyə zərər verir. Bunun qarşısını almağın yeganə yolu milli dəyərlərə sahib vətənpərvər gənc nəslin yetişdirilməsidir.

### Yeni təhsil strategiyası

Azərbaycan Prezidenti İlham Əliyev andiçmə mərasimindəki nitqində yeni gənc nəslin tərbiyəsini əsas strateji prioritetlərdən biri kimi təqdim etmişdir. Həmin bağlılıqda dövlət başçısı birmənalı olaraq təhsilin əhəmiyyətini də vurğulamışdır. Deməli, yeni mərhələdə təhsilin təşkili Azərbaycan üçün vacib strateji vəzifələrdən biri kimi artıq dövlət səviyyəsində qəbul edilmişdir.

Məhz bu faktın işığında Ankarada təhsillə bağlı aparılan müzakirələrin ən azı iki mühüm cəhətini müəyyən etmək olar.

Birincisi, türk dövlətlərinin ortaq təhsil konsepsiyasının hazırlanması və reallaşdırılması.

İkincisi, ortaq təhsilin hər bir türk dövlətində gənclərin vətəndaşı olduğu ölkəyə və başqa türk dövlətlərinə qarşı sevgi ilə tərbiyə olunması. Bu istiqamətlər, təbii ki, bir-birini tamamlamalıdır. Hətta burada sıralama şərtidir - hər ikisi əhəmiyyətinə görə birincidir.

Bununla yanaşı, həmin istiqamətlərin izahına ciddi ehtiyac vardır. Çünki hazırda Qərb təhsil sistemi o dərəcədə nüfuzludur ki, milli əsasda təhsili qurmaq bir sıra hallarda təbəssüm doğurur, "əgər yaxşı nümunə varsa, milli təhsil strategiyası nəyə lazımdır" deyilir. Bir qism ziyalı isə "geriyə, sovetlərin təhsil sisteminə" kimi çağırışlar edirlər. Hesab edirlər ki, Azərbaycan üçün ən yaxşı təhsil məhz sovet dövründə olmuşdur. Nümunələr də göstərirlər: filan sahədə görkəmli Azərbaycan alimi yetişdi, dənizdən neft çıxardıq, kosmosun fəthində lazım olan yeni cihazlardan bəziləri Azərbaycanda hazırlandı, həmin mərhələdə gənclər daha çox milli ruhlu idilər, poeziyamız, ədəbiyyatımız və təbiət elmləri inkişaf etdi. Bunlar Azərbaycanın təhsil ocaqlarında və SSRİ-nin müxtəlif ali məktəblərində təhsil almağın sayəsində oldu.

Sonra davam edirlər ki, indiki mərhələdə isə təhsilimiz bir çox çətinliklərlə üz-üzədir, ona görə də sovetlərə qayıtmaq daha doğru olardı. Doğrudan da, SSRİ dövründə Azərbaycan çox sayda görkəmli alimlər yetişdi. Onlar ölkəyə çox fayda verdilər. İndi də müstəqillik mərhələsində öz bacarıq və biliklərini dövlət üçün əsirgəmirlər. Lakin müasir dövrün yeni tələbləri kontekstində bir sıra vacib məqamlar vardır ki, onlar da mütləq nəzərə alınmalıdır.

Birincisi, sovet dövrünün təhsil sistemi Azərbaycanın ehtiyacları və daxili inkşafının (intellektual və mənəvi-əxlaqi aspektlərdə) şərtləri əsasında tətbiq edilməmişdi. Həmin təhsil sistemi özlüyündə müsbət keyfiyyətlərə malik idi, lakin onların stratejidə Azərbaycanın tarixi təkamülünün özəllikləri prizmasında nə dərəcədə milli maraqlara cavab verdiyi məlum deyildi. Bu səbədən də bütün müsbət tərəflərinə və imkanlarına baxmayaraq həmin təhsil sstemini effektiv səviyyədə saxlamaq mümkün olmadı və o, faktiki olaraq çökdü.

İkincisi, sovet təhsil sistemi Azərbaycanda özünün təhsil sistemini yaratmaq konsepsiyasının qalıcı olmasına təməl yaratmadı. Nəticədə kənardan gətirilmiş futbolçuların komandası kimi, həmin "legionerlər" gedəndən sonra yenidən "nə edək?" sualı aktuallaşdı.

Üçüncüsü, Azərbaycan müstəqil olandan sonra istər-istəməz inkişaf etmiş ölkələrdəki təhsillə ünsiyyət çoxaldı və məlum oldu ki, bizim təhsildə praktiki tətbiq və innovativlik onlardan kəskin şəkildə geridə qalır. Müqayisə üçün deyək ki, elmi kəşflərin tətbiqi mexanizmlərində Rusiya kimi güclü intellektual potensiala malik dövlət Tanzaniyadan belə geridə qalır.

Dördüncüsü, dünya sürətlə dəyişir. Bu dəyişmə kadrların və insanların hazırlanmasında da situasiyanı anbaan dəyişir. Belə şəraitə çevik uyğunlaşmaya imkan verən, təhsil və elmi yeniliklərə açıq olan sistem mütləq vacibdir.

Beşincisi, məlum oldu ki, indi ən çox inkişaf edən təhsil sistemlərində türk xalqlarının milli özünəməxsusluğuna cavab verən kadrlar və vətəndaşlar yetişdirmək çox çətindir. Türkiyə Prezidenti R.T.Ərdoğan məhz bu səbəbdən ölkədə tamamilə yeni təhsil konsepsiyasının hazırlanıb həyata keçməsi zərurətini dəfələrlə vurğulamışdır. Eyni situasiya Azərbaycandadır. Prezident İlham Əliyev dəfələrlə demişdir ki, təhsil sferası prioritetdir. Həm peşəkar və bilikli kadr hazırlığı, həm də milli mövqeli gənclərin yetişdirilməsi baxımından. Andiçmə mərasimində də ikinci şərtin ödənməsi üçün milli ailə və məktəb sisteminin varlığını ayrıca vurğulamışdır.

Yuxarıdakı şərtləri birlədirsək, belə alınır ki, hazırda Azərbaycanın inkişafı üçün təhsil konsepsiyası prinsipial rol oynayır. Prezident İlham Əliyev Ankarada bu xüsusiyyətin lakonik izahını vermişdir. Məsələ bütövlükdə yeni tarixi mərhələdə Azərbaycanın uğurlu inkişafı strategiyası çərçivəsində təhsilin tərəqqisi xətti ilə bağlıdır. Həmin prosesdə isə Türkiyə – Azərbaycan Universiteti ciddi rol oynamalıdır. Belə çıxır ki, söhbət sadəcə Azərbaycan və Türkiyə üçün yeni ortaq təhsil ocağı qurmaqdan getmir. Ali məktəb vahidi kimi qurulacaq universitet özünün yerli sərhədlərini aşır və stratejidə türk cəmiyyətləri üçün istiqamətverici rol oynayan təhsil konsepsiyasının formalaşmasının müjdəsidir! Bu kontekstdə Prezident İlham Əliyevin ifadə etdiyi fikirlərin prizmasında Azərbaycan – Türkiyə Universitetinin missiyasına nəzər salaq.

"Bu universitet nədir?" sualı nə ritorikdir, nə də məhdud cavabla izah oluna bilər. Bunu biz İlham Əliyevin Ankarada R.T.Ərdoğanla birgə keçirdiyi brifinqdə ifadə etdiyi fikirlərdən aydın görə bilərik. Azərbaycan Prezidenti yeni universitetin əsasən gələcək üçün kadrlar hazırlayacağını və milli ruhlu gənclərin tərbiyə edilməsində mühüm rol oynayacağını ifadə etmişdir. Dövlət başçısı Azərbaycan-Türkiyə Universitetinin təkcə Azərbaycan və Türkiyədə deyil, bütövlükdə regionda aparıcı təhsil ocağı olacağına ümidini ifadə etmişdir. Şübhəsiz ki, bu kontekstdə Azərbaycan-Türkiyə Universitetinin türk dövlətlərinin hər biri üçün vacibliyi aydındır.

Bütün bunlara görə, yeni təhsil ocağının mahiyyəti, missiyası və funksiyaları ilə bağlı geniş düşünmək lazımdır.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Fransa Ermənistanı "Qafqazın Ukraynası"na çevirmək istəyir

**Ermənistan baş naziri Nikol Paşinyanın Fransaya səfəri və burada prezident Emmanuel Makronla görüşməsi, verilən açıqlamalar, gözlənildiyi kimi, bölgədə sülhə xidmət etmədi. Əlælxüsus, Ermənistanı özünə "kiçik bacı" adlandıran Fransa dövlət başçısının Paşinyanla görüşdən sonra verdiyi açıqlamalar diplomatik etiket qaydaları ilə bir araya sığmır.**

Makronun səsləndirdiyi fikirlər arasında ötən ilin sentyabrının sonlarında Qarabağ iqtisadi rayonundan ermənilərin könüllü köçü ilə bağlı məsələ diqqəti cəlb edir. Halbuki, həmin hadisə Fransanın bölgədə oynadığı destruktiv siyasətin, Ermənistanı qızışdırmasının nəticəsi olaraq meydana çıxmışdı. Fransa 2020-ci ildən ötən dövr ərzində Ermənistanın Azərbaycanla sülhə gəlməsinə müxtəlif yollarla əngəl törətdi. İrəvanı silah-sursatla təmin etdi. Ermənistana Avropa İttifaqının mülki adlansa da, əslində, yarımhərbiləşdirilmiş missiyasının göndərilməsinə çalışdı və buna nail oldu. 2022-ci il oktyabrın 6-da Praqada baş tutan Avropa Siyasi Birliyinin I sammiti çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin görüşündə E.Makronun iştirakı pozuculuqla yadda qaldı. Kəsəsi, Paris hər vəchlə çalışdı ki, 2020-ci ildən ötən 3 il ərzində Bakı və İrəvan sülh əldə edə bilməsinlər. İndi bütün bunlara görə, E.Makronun sakit dayanması uyğun olduğu halda ölkəmizi ittiham etməyə çalışması "adımı sənə qoyum, səni yana-yana" el məsəlini xatırladır.

Fransa prezidentinin Qarabağ ermənilərinin qayıtması ilə bağlı fikirləri ilə tanış olduqda Makronun ermənilərdən daha çox erməni olmağa çalışdığı fikri inandırıcı görünür. Məsələ ondadır ki, hətta Ermənistan da artıq bu mövzuya toxunmağı dayandırıb. Ümumiyyətlə, bu mövzu bir çox avropalı siyasətçilər üçün gündəmdən çıxıb. Fransa isə Cənubi Qafqazda bütün səviyyələrdə əlavə gərginlik yaratmağa davam edir.

Bundan əlavə, Fransa prezidenti fevralın 12-13-də Ermənistan–Azərbaycan şərti sərhədində baş vermiş erməni təxribatını özünəməxsus şəkildə təqdim edib. O, erməni təxribatını "Azərbaycanın Nerkin Handda yerləşən erməni mövqelərinə hücumu qeyri-proporsional addım idi" şəklində, necə deyərlər, sırımağa çalışıb. Əgər Makron ədalətli olsaydı, heç bir təhrikedici amil olmadan beş aya yaxın davam edən sabitliyi pozan Ermənistanı tənqid etməli idi. Bunun əvəzinə, Azərbaycanın, guya, qeyri-proporsional cavab tədbiri görməkdə təqsirləndirilməsi qəbul oluna bilməz. Halbuki, Azərbaycana qarşı törədilən həmin təxribata görə, Ermənistanın hərbi-siyasi rəhbərliyi bilavasitə məsuliyyət daşıyır. Fransanın belə qərəzli yanaşmalara son qoyması lazımdır.

Qeyd edək ki, Azərbaycan Xarici İşlər Nazirliyi dünən yaydığı açıqlamada Makronun Parisdə Paşinyanla birgə mətbuat konfransı zamanı Azərbaycana qarşı səsləndirdiyi



və Ermənistanı birtərəfli qaydada müdafiə edən əsassız iddialarını qətiyyətlə pislədiyini bildirib. Nazirlik qeyd edib ki, 30 ilə yaxın müddətdə hüquqları pozulmuş, ərazilərindən didərgin düşmüş, kütləvi qırğınlara məruz qalmış azərbaycanlıların hüquqları barədə indiyə qədər heç bir şərh verməyən Fransanın öz istəkləri və heç bir zorakılıq tətbiq olunmadan Azərbaycan ərazilərini tərk etmiş ermənilərin hüquq və təhlükəsizliyindən danışması tamamilə yersizdir. Bildirilib ki, bununla yanaşı, Alma-Ata Bəyannaməsi və müəyyən xəritələr çərçivəsində ərazi bütövlüyünün vacibliyinə toxunan Fransa tərəfinin, nəyə görə məhz bu kimi razılaşmalara zidd olaraq 30 ilə yaxın müddətdə davam etmiş erməni təcavüzünə və Azərbaycan ərazilərinin işğalına, habelə indiyədək Ermənistanın ölkəmizin 8 kəndini hələ də işğal altında saxlamasına qarşı çıxmaması sualına aydınlıq gətirməsi daha faydalı olardı.

Qeyd edək ki, Paşinyan fevralın 22-də günorta saatlarında Fransanın daha bir ermənipərəst məmuru – paytaxt meri Ann İdalqo ilə görüşüb. Azərbaycan vətəndaşı ötən ilin avqustunda Paris merinin başçılıq etdiyi nümayəndə heyətinin Qarabağa "humanitar yardım" aparmaq şousunu unutmayıb. Ancaq ölkəmizin qətiyyətli mövqeyi sayəsində ərazimizə kənar yerdən qeyri-qanuni daxil olmağa edilən cəhdlərin qarşısı alındı və xanım İdalqo, necə deyərlər, suyu süzülə-süzülə geri qayıtmalı oldu. Onunla birgə sərhədə gələn TIR-lar isə bir müddət sərhəddə gözlədikdən sonra geri qayıtmaq məcburiyyətində qaldı. Bu mənada Paşinyanın Paris meri ilə görüşündə nələrdən danışıldığını təxmin etmək də çətin deyil.

Günün sonuna yaxın isə Paşinyan Fransanın baş naziri Qabriel Attalla görüşüb. Paşinyan "Facebook" səhifəsində yazıb ki, Attalla iqtisadi sahədə əməkdaşlığın ardıcıl inkişafı və möhkəmləndirilməsi ilə bağlı bir sıra məsələləri müzakirə edib. Bununla da Paşinyanın Fransaya ikigünlük işgüzar səfəri başa çatıb.

Ancaq Paşinyanın Paris səfərinin hələ davam etdiyi vaxtda – dünən səhər Fransanın Ermənistana yeni silah-sursat göndərəcəyinə dair yayılan məlumat yanan ocağa yanacaq tökməyə bənzəyir. Ölkənin "Le Figaro" qəzeti yazıb ki, Fransa Ermənistana yeni silah partiyası göndərəcək. Nəşrin yazdığına görə, Fransanın "Ground Master" (GM200) radarları, gecəgörmə cihazları və durbinlər Ermənistana gətiriləcək. Xatırladaq ki, ötən ilin oktyabr ayının 23-də Hayastanın müdafiə naziri Suren Papikyanın Fransaya səfəri zamanı Ermənistan və Fransa arasında müdafiə sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Memorandumda 3 ədəd "Ground Master" radarının, həmçinin gecəgörmə cihazlarının alınması üçün müqavilələr əlavə edilib. Həmin radarlar 250 km radiusda hava obyektlərinin tanınmasına imkan verir.

Həmçinin qeyd edilir ki, tərəflər arasında imzalanan müdafiə sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumunda Fransa ordusunun bu il erməni hərbi qulluqçular üçün 3 dağlıq şəraitdə döyüş hazırlığı kursu keçirməsi nəzərdə tutulur.

Ölkənin müdafiə naziri Sebastyan Lekornu isə yaxın zamanda Ermənistana səfər edəcək. Bu barədə də Fransanın "RTL" radiosu məlumat yayıb. Qeyd olunub ki, o, Ermənistana səfər edən ilk Fransa müdafiə naziri olacaq. Nazir radioya müsahibəsində qeyd edib ki, ölkəsi Ermənistana kömək etmək, xüsusən də onun müdafiə potensialını artırmaq üçün məsuliyyət daşıyır. Lekornunun sözlərinə görə, söhbət yalnız müdafiə məqsədləri üçün nəzərdə tutulan zenit sistemləri və zirehli texnikanın tədarükündən gedir.

Onu da bildirək ki, Ermənistana hərbi texnika göndəriləcəyinin anonsu elə Makron tərəfindən fevralın 21-də Paşinyanla Parisdə keçirilən görüş zamanı verilmişdi. Fransa prezidentinin həmin açıqlaması bir daha göstərir ki, Makron Ermənistanı yeni Ukraynaya çevirir. Vaxtilə Qərb dairələri Vladimir Zelenskini də tərifləyə-tərifləyə Ukrayna xalqını və dövlətini qırğına verdilər. İndi isə prosesləri kənardan müşahidə edirlər. Eyni aqibət Ermənistanı da gözləyir. Bu istiqamətdə Fransanın "Agoravox" nəşrində dərc olunan "Fransa müharibəyə Rusiyanın qonşuları hesabına hazırlaşır" sərlövhəli məqalədə deyilir: "Paris öz siyasəti ilə eyni vaxtda bir neçə məqsəd güdür. Birincisi, bu, köhnəlmiş silah anbarlarını boşaltmaq və hətta, ondan nəsə qazanmaq imkanıdır (yalnız pul deyil, həm də siyasi təsir). İkincisi, yeni silahların istehsalı hərbi-sənaye kompleksinin inkişafı və iqtisadiyyatın bu sektorunun yüksəlişi deməkdir. Üçüncüsü, sırf geosiyasi problemlər ortaya çıxır. Amma belə görünür ki, Fransa qarşısına birbaşa Rusiya ilə qarşıdurmaya getmək vəzifəsi qoyub. Fransanın Rusiyanı zəifləmək istədiyi heç kimə sirr deyil".

Məqalədə Fransa Senatının sənədindən sitat gətirilib: "Fransa hakimiyyəti Ermənistana müdafiə silahlarının tədarükü təşəbbüsü ilə çıxış edib. Əslində, müdafiə və hücum silahları arasında o qədər də fərq yoxdur. Bunu Ukraynada baş verənlər də göstərdi. Gəlin eyni səhvləri təkrar etməyək və Ermənistandan lazım olan hərbi texnikanın tədarükünü gecikdirməyək. Biz Ermənistan hakimiyyətinin bütün müraciətlərinə operativ şəkildə cavab verməliyik. Xüsusən də artilleriya ilə bağlı müraciətlərə".

Ancaq Fransa hökuməti nəhayət, anlamalıdır ki, bölgədə yeni gərginlik yaratmaq, sülh və sabitliyə mane olmaq istiqamətində yürütdüyü məkrli siyasət heç bir nəticə verməyəcək. Bu istiqamətdə fikirlərini Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bir daha bəyan edib. Dövlətimizin başçısı deyib: "Mən artıq bunu demişəm, bu il müdafiə sənayesi kompleksinin nəzdində olan zavodlarımıza həm dövlət, həm özəl sektor tərəfindən ən azı bir milyard manat investisiya qoyulacaq. Yəni, biz özümüzü daha böyük həcmdə lazım olan vasitələrlə təmin edəcəyik. Yəni, biz heç vaxt sakitləşə bilmərik. Bizim ordu quruculuğu prosesi davam edəcək və Ermənistan da bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən bunu gizlətmirəm ki, sabah heç kim deməsin nəsə gözlənilməz oldu. Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə, o Fransanın sınıq-salxaq "Bastion" maşınları, o konserv bankaları yox, real təhlükə yaransa, biz preventiv addımlarla o təhlükəni istənilən nöqtədə məhv edəcəyik". Zənnimizcə, əlavə şərhə ehtiyac yoxdur.

***Səxavət HƏMİD***
***XQ***

# İstanbulda Avrasiya İqtisadi Zirvəsi

## *Toplantıda qlobal böhranlar müzakirə edildi*




**İstanbulda keçirilən və Mərmərə Qrupu Strateji və Sosial Araşdırmaları Vəqfinin təşkil etdiyi 27-ci Avrasiya İqtisadi Zirvə toplantısı "Böhranlardan sabitliyə, əhatəli bir dünya inşa etmək" mövzusuna həsr olunub. Dünyanın 40 ölkəsinin nümayəndələrinin iştirak etdiyi mərasimdə Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakçılara ünvanlanan məktubları diqqətə çatdırılıb. Dövlətimizin başçısının məktubunda hazırda hökm sürən iqlim dəyişmələrinin planetimizi təhdid edən başlıca çətinliklər sırasında yer aldığı, bu problemin təsirlərinin artıq həyatın bütün sahələrində özünü büruzə verdiyi xüsusi vurğulanıb.**

Məktubda daha sonra Azərbaycanın iqlim dəyişmələri ilə mübarizə məsələlərinə böyük diqqət ayırdığı, onun mənfi fəsadlarının azaldılması üçün birgə fəaliyyətin təmin olunması istiqamətində səylər göstərdiyi bildirilib və dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) bütün ölkələrin yekdil qərarı ilə 2024-cü ildə məhz respublikamızda keçiriləcəyinin təsadüfi olmadığı qeyd edilib.

Prezident İlham Əliyevin məktubunda vurğulandığı kimi, Azərbaycan Avrasiya regionunda dinamik inkişafı ilə səciyyələnən tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə hər zaman mühüm önəm verib. Bu baxımdan ölkəmiz yüksək inkişaf mərhələsi yaşayan nəqliyyat-logistika infrastrukturuna malik etibarlı tranzit dövlət olaraq Avrasiyada regional əməkdaşlığın irəliləməsində, iqtisadi tərəqqinin təşviqində yüksək nəticələr əldə edib.

Yeri gəlmişkən, Avrasiya İqtisadi Zirvə Toplantısı dövlət xadimləri, tanınmış siyasətçilər və iş adamlarının bir araya toplandığı, regionda, eləcə də qlobal miqyasda cərəyan edən proseslər ətrafında fikir mübadiləsinin aparıldığı, hazırkı mürəkkəb böhranların aradan qaldırılması yollarının müzakirəsinin keçirildiyi nüfuzlu bir platformadır. Ənənəvi olaraq hər il keçirilən bu platformada sürətlə transformasiyaya məruz qalan müasir dünyada davamlı təhdidlərlə yanaşı, bəşəriyyətdə ciddi narahatlıq doğuran yeni çağırışların və təhlükələrin meydana gəlməsi regional və qlobal problemlərin həlli istiqamətində yeni yanaşmaların formalaşdırılmasını labüd edir. 2024-cü ildə gerçəkləşdirilən Zirvə Toplantısında da belə mövzuların, məsələn, iqlim böhranı, ətraf mühitlə əlaqədar problemlərin gündəliyə salınması diqqət çəkir.

Avrasiya İqtisadi Zirvə Toplantısında dünyada baş verən təbii, sosial-iqtisadi və siyasi proseslərin bəzən regional və ya qlobal böhranlara çevrildiyi, belə ciddi qlobal böhranların həllinin isə ölkələr arasında sıx əməkdaşlıq zərurəti yaratdığı bildirilib. Tədbirdə, həmçinin dünyada hazırda iqlim dəyişikliyinin, Rusiya-Ukrayna və İsrail-Fələstin qarşıdurmaları ilə davam edən hadisələrin qlobal arenada təsirlərinin davam etdiyi bir vaxtda həmin əməkdaşlığın daha da gücləndirilməsinə ciddi ehtiyac duyulduğu diqqətə çatdırıb. Şübhəsiz ki, bu cür məsələlərin iqtisadiyyata təsirsiz ötüşmədiyi də dəfələrlə bütün dünyaya mesaj kimi ötürülüb.

Sözügedən iqtisadi zirvə toplantısında İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranan son vəziyyətə də toxunularaq bu şəraitin tarixi sülh üçün bir fürsət olduğu vurğulanıb. Bu fürsətin dəyərləndirilməsinin bölgəmiz üçün yeni dövrün başlanğıcı ola biləcəyi qeyd edilib və bu çərçivədə ən qısa zamanda Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasının gözlənildiyi diqqətə çatdırılıb. Eyni zamanda, iki ölkə arasında sülh müqaviləsinin imzalanacağı təqdirdə, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması istiqamətində də maneə qalmayacağı deyilib.

Bu məqamda onu da qeyd edək ki, bu gün ən yüksək inkişaf mərhələsində olan Azərbaycan–Türkiyə münasibətlərinin önəmini xüsusi vurğulamağa ehtiyac var. Belə ki, Azərbaycanın qardaş ölkə ilə çoxşaxəli birgə fəaliyyəti, bu istiqamətdə gerçəkləşdirilən irimiqyaslı layihələr strateji müttəfiqliyimizi şərtləndirən mühüm amillər olmaqla yanaşı, regional əməkdaşlığa, təhlükəsizliyə və sabitliyə əhəmiyyətli töhfə verir. Hər iki xalqın qardaşlığı və birliyindən, ortaq tarixindən, zəngin milli-mənəvi dəyərlərindən güc alan strateji müttəfiqliyin, habelə "Bir millət, iki dövlət" prinsipinin bundan sonra da dönməz xarakter daşıyacağını deməyə əsas verir.

Yeri gəlmişkən, hazırda dünyada dövlətlərarası münasibətləri tənzimləməli olan mexanizmlər getdikcə zəifləyir, beynəlxalq hüququn aliliyinə inam azalır. Müharibələr, geosiyasi münaqişələr, bütün bunlarla bərabər baş verən enerji böhranı da beynəlxalq münasibətlər sisteminin tənəzzülünün nəticələri kimi diqqət çəkir. Bu yeni qlobal konfiqurasiya daxilində mümkün nizamın qorunmasında, qarşılıqlı əməkdaşlığın və dayanıqlı inkişaf mühitinin təmin olunmasında Türkiyə kimi nüfuzlu və öz mövqeyində qətiyyətli dövlətin rolu müstəsna əhəmiyyət daşıyır.

Bu gün Azərbaycan və Türkiyə iki qardaş ölkə və strateji müttəfiqlər kimi regionda yeni tarixi reallıqlar yaradır, birgə qərarlar, müştərək qlobal layihələr vasitəsilə Avrasiya məkanında sülhə, təhlükəsizliyə, əməkdaşlığa davamlı töhfələr verir. İki qardaş ölkə bölgədə ədalətli sülhün qarantıdır, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan etibarlı tərəfdaşdır.

Prezident İlham Əliyevin əminliklə vurğuladığı kimi, qardaş xalqlarımızın iradəsi ilə ən yüksək zirvədə qərarlaşan Azərbaycan–Türkiyə münasibətləri yeni uğurlarla daha da möhkəmlənəcək, birgə fəaliyyət beynəlxalq əhəmiyyətli təşəbbüsləri reallığa çevirərək Avrasiyada siyasi və iqtisadi əhəmiyyətli inteqrasiya prosesinə töhfə verəcək.

27-ci Avrasiya İqtisadi Zirvə Toplantısı çərçivəsində aparılan müzakirələr də böyük bir coğrafiyanı əhatə edən ölkələr arasında tərəfdaşlıq münasibətlərinin dərinləşməsi, bəşəriyyətin rifahı naminə yeni əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi üçün faydalı olacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

**Fevralın 24-25-də Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə paytaxtda "Kənddən şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq. Yarmarkada, ümumilikdə, 20-dən artıq rayondan 40-dan çox fermerin iştirakı gözlənilir.**

## Şəhərə 90 çeşiddə kənd töhfəsi



Fermerlər tərəfindən yarmarkada 90-a qədər çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışı həyata keçiriləcək. Satışa çıxarılacaq məhsullar müxtəlif regionlarda fəaliyyət göstərən və yarmarkada iştirak üçün əvvəlcədən qeydiyyatdan keçən fermerlər tərəfindən yetişdirilir.

Yarmarkanın əsas üstünlüklərindən biri də məhsulların satışının birbaşa fermerlər tərəfindən həyata keçirilməsidir. Məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Vətəndaşlar burada fəaliyyət göstərən Səyyar Qida Laboratoriyasının xidmətlərindən də faydalana biləcəklər.

Xatırladaq ki, yarmarkada iştirak edəcək fermerlər ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla təmin olunacaqlar. Alıcılar təbii kənd məhsullarını qeyd edilən tarixlərdə saat 9:00-dan 19:00-dək Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (metronun "Gənclik" stansiyasının yanı) ünvanında baş tutacaq yarmarkadan əldə edə bilərlər.

## "Bakı" ES – 17 ildə 8,86 milyard kilovat-saat enerji

**2007-ci il fevralın 22-də istismara verilmiş modul tipli "Bakı" Elektrik Stansiyası ahəngdar rejimdə fəaliyyət göstərir. Ötən 17 il ərzində burada, ümumilikdə, 8,86 milyard kilovat-saat elektrik enerjisi istehsal olunub.**



Xatırladaq ki, stansiyada hər birinin gücü 8,7 meqavat təşkil edən 12 ədəd qaz porşenli aqreqat quraşdırılıb. "Bakı" Elektrik Stansiyanın ümumi qoyuluş gücü isə 104,4 meqavat təşkil edir.

***XQ***

## Yapon şirkətləri Qarabağ və Naxçıvanda

**Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov Bakıda Yaponiyanın Milli Gününə həsr olunmuş rəsmi qəbulda bildirib ki, yapon şirkətləri təkcə Qarabağ bölgəsində deyil, Naxçıvan Muxtar Respublikasında da energetika sahəsində müxtəlif layihələr həyata keçirir.**

E.Məmmədov daha sonra bərpa olunan enerji sahəsin-



də Yaponiyanın ölkəmizlə əməkdaşlığını daha da inkişaf etdirəcəyinə əminliyini diqqətə çatdıraraq vurğulayıb ki, hazırda Azərbaycan işğalçıdan təmizlənən ərazilərdə yeni iqtisadi layihələr həyata keçirir, geniş yenidənqurma işləri aparır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaranmış nəqliyyat qovşağı sülh və regionlararası ticarət üçün yeni imkanlar açır.

Hazırda Ağdamda yaradılmış sənaye parkına, Cəbrayıldakı Araz Vadisi İqtisadi Zonasına maraq artmaqdadır. Ölkəmizin iqtisadi inkişaf kursunda işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının həyata keçirilməsi, "yaşıl enerji" zonalarının yaradılması əsas istiqamətlərdən biridir.

## "Yaşıl kart" sığorta ödənişləri 82 faiz artıb

**İcbari Sığorta Bürosunun məlumatına görə, 2023-cü ildə Azərbaycanda "Yaşıl kart" beynəlxalq sığorta sistemi üzrə 429 yol-nəqliyyat hadisəsinə görə 1 milyon 662 min manat sığorta ödənişi verilib. Bu, 2022-ci illə müqayisədə müvafiq olaraq 52,7 faiz və 82,3 faiz çox olub. Beləliklə, ötən il bir hadisə üzrə orta ödəniş 3min 873 manata çatmaqla əvvəlki ilə nisbətən 19,4 faiz yüksəlib.**



2023-cü ildə "Yaşıl kart" satışı hesabına toplanılan sığorta haqlarının 16,4 faizi sığorta ödənişinə yönəldilib. Bu nisbət 2022-ci ildə 30,2 faiz olub.

Ötən il yol-nəqliyyat hadisələrinin 55-i ölkə daxilində baş verib və həmin hadisələr üzrə 130 min manat sığorta ödənişi reallaşdırılıb. Əvvəlki il isə ölkə daxilində müşahidə edilən 57 yol-nəqliyyat hadisəsinə görə isə 140 min manat sığorta ödənişi həyata keçirilib.

***XQ***

# Latviyanın ölkəmizin kənd məhsullarına böyük ehtiyacı var

**İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) Latviyaya ixrac missiyası təşkil edəcək. AZPROMO-nun bununla bağlı yaydığı məlumatda bildirilir ki, ixrac missiyasının təşkilinə dair müzakirələr Azərbaycanda səfərdə olan Latviyanın kənd təsərrüfatı nazirinin müavini Normunds Şmitsin rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilən görüş zamanı aparılıb.**

İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin icraçı direktoru Yusif Abdullayev rəhbərlik etdiyi qurumun fəaliyyəti, ixracın təşviqi mexanizmləri, "Made in Azerbaijan" brendi, logistikanın subsidiyalaşdırılması barədə qonağa ətraflı məlumat verib. Qeyd olunub yerli ixracatçıların Latviya bazarına çıxış imkanlarının araşdırılması və genişləndirilməsi, o cümlədən ölkəmizdə istehsal olunan məhsullarının təqdim edilməsi məqsədilə bu ölkəyə ixrac missiyasının təşkili planlaşdırılır. Söhbət zamanı, həmçinin Latviyanın ənənəvi qida məhsullarının ölkəmizin bazarına girişini təmin etmək üçün latviyalı sahibkarlar cari ilin may ayında keçiriləcək "InterFood Azerbaijan" sərgisində iştirak etməyə dəvət olunublar.

Latviyanın kənd təsərrüfatı naziri Normunds Şmits Azərbaycanın ixrac etdiyi kənd təsərrüfatı məhsullarına Latviyada əhəmiyyətli tələbin olduğunu qeyd edib. İki ölkədən olan idxalçılar və ixracatçılar arasında əlaqələndirmə işlərinin aparılmasının vacibliyini vurğulayan nazir müavini bildirib ki, qida məhsullarının təhlükəsizliyi, baytarlıq, fitosanitar nəzarəti kimi sahələrdə əməkdaşlığın intensivləşdirilməsi yerli şirkətlərin Latviyaya ixracını stimullaşdıracaq.

Görüş zamanı bu kontekstdə hər iki ölkədə fəaliyyət göstərən sahibkarların əlaqələndirilməsi çərçivəsində tərəflər arasında potensial ixrac və idxal oluna biləcək məhsullar üzrə məlumat mübadiləsinin aparılmasına dair razılıq əldə olunub.

Yeri gəlmişkən, Azərbaycanla Latviya arasında münasibətlərin tarixi keçmiş SSRİ dövründə başlayıb. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra münasibətlər yeni mərhələyə qədəm qoyub. Azərbaycanın və Latviyanın müstəqil subyektlər kimi iqtisadi-siyasi münasibətlərin dərinləşdirilməsinə, qarşılıqlı maraqların təmin olunmasına xidmət edən təşəbbüslərlə çıxış etməsi gələcək əməkdaşlıq üçün yeni imkanlar açıb.

Ötən müddətdə ölkələrimiz arasında əməkdaşlığa təkan verən lazımi hüquqi baza yaradılıb. Bu baxımdan Azərbaycan və Latviya hökumətləri arasında ticarət-iqtisadi əməkdaşlıq prinsipləri haqqında Saziş, habelə gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında konvensiyanı qeyd etmək olar.

Son illər Azərbaycanla Latviya arasında hökumətlərarası komissiyalar çərçivəsində də qarşılıqlı iqtisadi əlaqələrə təkan verən bir sıra mühüm layihələr həyata keçirilib. Eyni zamanda ölkələrimiz regional təşkilatlar, o cümlədən Baltik–Qara Dəniz–Xəzər hövzəsi regionunda inteqrasiya proseslərinin intensivləşdirilməsi üçün Baltik Dənizi Dövlətlərinin Şurası çərçivəsində uğurla əməkdaşlıq ediblər.



Ötən əsrin 90-cı illərindən başlayaraq Azərbaycan və Latviya arasında qarşılıqlı investisiya qoyuluşu sahəsində fəal əməkdaşlıq həyata keçirilib. Belə ki, 1995–2022-ci illərdə Latviya Azərbaycan iqtisadiyyatına 1 milyard dollar investisiya qoyub. Azərbaycan isə öz növbəsində Latviya iqtisadiyyatına 166 milyon dollar məbləğində investisiya yönəldib.

İki ölkə arasındakı qarşılıqlı ticarət dövriyyəsi üzrə göstəricilər yüksək olmasa da, son illər bu sahədə müəyyən irəliləyiş hiss olunur. Təkcə onu qeyd etmək kifayətdir ki, pandemiyanın tüğyan etdiyi 2020-ci ildə Azərbaycanla Latviya arasında ticarət dövriyyəsi 12 milyon 673 min dollar təşkil etdiyi halda, 2022-ci ildə bu göstərici 4 dəfəyə yaxın artaraq 46 milyon 342 min dolları ötüb. Daha bir diqqətçəkən məqam ondan ibarətdir ki, son illər ümumi ticarət dövriyyəsində müsbət saldo Azərbaycanın xeyrinə dəyişməkdədir. Belə ki, 2020-ci ildə ölkəmizdən Latviyaya cəmi 874 min dollarlıq ixrac həyata keçirildiyi halda, 2022-ci ildə bu göstərici 3 dəfədən çox artaraq 27,6 milyon dollar təşkil edib. Həmin il bu ölkə ilə aparılmış ixrac əməliyyatlarının, demək olar ki, 98 faizi qeyri-neft sektorunun payına düşüb. Bu, o deməkdir ki, Latviya qeyri-neft məhsullarımızın idxalı baxımından Şimal-Şərqi Avropada mühüm ölkədir.

Latviya Respublikasının Prezidenti Egils Levitsin 2023-cü il martın 8-də Azərbaycana işgüzar səfəri isə ölkələrimiz arasında iqtisadi əlaqələrə bir dinamizm gətirib. Elə ötən il ərzində iki ölkə arasında ticarət dövriyyəsində qeydə alınmış artım dinamikası da bunu deməyə əsas verir. Təkcə bir faktı qeyd etmək yetərlidir ki, 2023-cü ilin yanvar-avqust aylarında Azərbaycanın Latviya ilə ticarət dövriyyəsinin ümumi həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 17,76 milyon dollar və ya 68,1 faiz artaraq 43,8 milyon dolları üstələyib. Dövlət Gömrük Komitəsinin hesabatına əsasən, ötən ilin 8 ayında Azərbaycandan Latviyaya 30,2 milyon dollar dəyərində məhsul ixrac edilib ki, bu da 2022-ci ilin eyni göstəricisindən 16,96 milyon dollar və ya 2,27 dəfədən çoxdur. Həmin dövrdə Azərbaycanın ümumi qeyri-neft-qaz məhsulları üzrə ixracın 1,2 faizi bu ölkənin payına düşüb.

2023-cü ilin 8 ayında Latviyadan Azərbaycana göndərilən məhsulların dəyəri isə 13,6 milyon dollar təşkil edib ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 800,4 min dollar və ya 6,2 faiz çoxdur. Yeri gəlmişkən, ötən ilin yanvar-avqust aylarının nəticələrinə görə, ölkənin ümumi ticarət dövriyyəsində Latviya ilə ticarətin payı 0,12 faiz təşkil edib. Bu isə bir il öncəki eyni göstəricini 0,05 faiz bəndi üstələməsi deməkdir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan “Yaşıl” gələcəyə “yaşıl işıq” yandırır

**(əvvəli 1-ci səhifədə)**

Dövlətimizin başçısına prezident seçkilərində qələbə və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Bakıda keçirilməsi münasibətilə təbriklərini çatdıran Con Kerri iqlim maliyyələşdirilməsi mövzusunun gündəlikdə duran əsas məsələlərdən biri olduğunu vurğulayaraq hazırda “yaşıl” keçidlə əlaqədar texnoloji inkişafın çox sürətlə getdiyini və bu istiqamətdə yaxşı nəticələrin əldə olunduğunu, Bakıda da qəbul ediləcək qərarların iqlim dəyişikliyi prosesində beynəlxalq səylərə ciddi təkan verəcəyinə ümidvar olduğunu bildirib.

Həmin gün dövlətimizin başçısı ilə görüşən ABŞ-ın Dövlət katibi Antoni Blinken indiki dövrün Azərbaycanın COP rəhbərliyini öz üzərinə götürməsi baxımından çox vacib olduğunu vurğulayıb. O, COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıraraq konfrans çərçivəsində ABŞ-ın da Azərbaycanla əməkdaşlığa və ölkəmizi bu istiqamətdə dəstəkləməyə hazır olduğunu qeyd edib.




Prezident İlham Əliyev isə ABŞ Dövlət katibinə təşəkkürünü bildirərək COP29-un ölkələrimiz arasında ikitərəfli gündəliyin önəmli bir hissəsi olduğunu vurğulayıb, Azərbaycanın bütün təşəbbüslərində ABŞ hökumətinin dəstəyinə ümid etdiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı, həmçinin COP29-un Azərbaycanla ABŞ arasında əməkdaşlığın genişləndirilməsi və bu istiqamətdə birgə işin aparılması üçün çox yaxşı imkanlar yaratdığını vurğulayıb.



Bununla yanaşı, Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Avropa Komissiyasının Avropa Yaşıl Saziş Təşəbbüsü, təsisatlararası əlaqələr və planlaşdırma üzrə icraçı vitse-prezidenti Maroş Şevçoviç, Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabir, ATƏT-in Baş katibi, Münxen Təhlükəsizlik Konfransı Fondu Şurasının vitse-prezidenti xanım Helqa-Mariya Şmid, Münxen Təhlükəsizlik Konfransının sədri Kriştof Xoysqen və başqaları ilə görüşləri zamanı da COP29-la bağlı ətraflı müzakirələr aparılıb, bu beynəlxalq platformanın iqlim dəyişiklikləri məsələlərinə mühüm töhfə verəcəyi diqqətə çatdırılıb.

Bugünlərdə Fransanın paytaxtı Parisdə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının “COP28-dən sonra: birləşmək, hərəkət etmək və Birləşmiş Ərəb Əmirliklərində əldə olunmuş konsensusu həyata keçirmək vaxtıdır” adlı sessiyalar üzrə yüksək səviyyəli dəyirmi masada çıxış edən Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev isə deyib ki, COP29-da əsas vəzifələrdən biri maliyyələşdirmə mexanizmlərini inkişaf etdirmək olacaq. Onun sözlərinə görə, ölkələrin, beynəlxalq təşkilatların və özəl sektorun səylərinin birləşdirilməsini tələb edən zərərin azaldılması, uyğunlaşdırılması və ödənilməsi üçün maliyyənin səfərbər edilməsi mühüm əhəmiyyət kəsb edəcək.

COP29-la bağlı məsələlər Azərbaycanın energetika naziri Pərviz Şahbazovun bugünlərdə ABŞ Dövlət Departamentində keçirdiyi görüşlərin də əsas müzakirə mövzusu olub. Energetika Nazirliyinin məlumatına görə, Vaşinqtonda ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsinin müavini Rik Dyuk ilə görüşdə COP29 tədbirinə sədrliyi dövründə Azərbaycanın “yaşıl enerji” keçidini sürətləndirən kursu, Milli Səviyyədə Müəyyən Olunmuş Töhfələr, “yaşıl enerji” dəhlizi üzrə ABŞ ilə əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycanın “yaşıl inkişaf”ına nail olmaq məqsədilə qısa müddətdə enerji sahəsində yeni qanunvericilik bazasının yaradıldığı, elektrik enerjisində bərpaolunan enerjinin payının artırılması və neft-qaz əməliyyatlarının, o cümlədən Səngəçal terminalının karbonsuzlaşdırılması üçün 2027-ci ilədək 8 sənaye miqyaslı elektrik stansiyasının istismara veriləcəyi bildirilib.

Görüş zamanı, həmçinin Xəzər dənizinin 157 qiqavat külək enerjisi potensialı əsasında “yaşıl” elektrik enerjisi və “yaşıl qaz”ların ixracı məqsədilə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın iştirakı ilə “yaşıl enerji dəhlizi”nin icra olunduğu qeyd edilib. Eyni zamanda, ABŞ ilə bu enerji dəhlizi üzrə əməkdaşlıq imkanları nəzərdən keçirilib, SOCAR-ın “Neft və Qazın Dekarbonizasiyası Xartiyası”na qoşulması, məşəldə yandırmaları sıfıra endirmək, sıfır metana çatmaqla bağlı hədəfləri ölkəmizin iqlim dəyişikliyinə qarşı mübarizə tədbirlərinə sadiqliyinin göstəricisi kimi dəyərləndirilib.

Energetika nazirinin ABŞ Enerji Departamentinin katibi Cennifer Qranholm ilə görüşündə ikitərəfli enerji əməkdaşlığının yeni mərhələdə inkişafı, təbii qaz və “yaşıl enerji”nin tədarükü, həmçinin COP29-la bağlı məsələlər müzakirə edilib. Nazirliyin məlumatına görə, görüş zamanı Azərbaycanın ənənəvi enerji təchizatçısı kimi həyata keçirdiyi enerji təhlükəsizliyi layihələri, eləcə də “Xəzər–Qara dəniz–Avropa” və “Mərkəzi Asiya–Azərbaycan–Avropa” “yaşıl enerji” dəhlizlərinin inkişafına dair fikir mübadiləsi aparılıb. Bu dəhlizlərin əhəmiyyəti regionlararası inteqrasiya, enerji təhlükəsizliyi və enerji keçidi aspektində dəyərləndirilib.

Söhbət zamanı COP29-a sədrlik edən ölkə kimi Azərbaycanın bərpaolunan enerji və enerji keçidi istiqamətlərində gördüyü tədbirlərdən, qlobal iqlim məqsədlərinə nail olmaq üçün göstərdiyi səylərdən ətraflı bəhs edilib. Qeyd olunub ki, 2027-ci ilədək 2 qiqavat “yaşıl enerji” istehsalı güclərinin enerji sisteminə inteqrasiyası nəticəsində qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payı 33 faizə çatacaq. Bununla yanaşı, ölkəmizin sosial-iqtisadi inkişaf strategiyası, işğaldan azad edilmiş ərazilər və Naxçıvanın “yaşıl enerji zonası”na çevrilməsinin “yaşıl enerji” keçidini təşviq etdiyi vurğulanıb.

Görüşdə, həmçinin enerji saxlanc sistemləri, emissiyaların azaldılması və Azərbaycanın COP çərçivəsində təşəbbüslərinə dair fikir mübadiləsi aparılıb, mümkün tərəfdaşlıq formaları nəzərdən keçirilib.

**M.YAQUBZADƏ**
**XQ**

# Təbiətin yaraları və qlobal həmrəylik

**Bu gün müxtəlif problemlərin tüğyan etdiyi mürəkkəb bir dünyada yaşayırıq. Gözləmədiyimiz bir halda elə təbii fəlakətlərlə üzləşirik ki, bu, geniş miqyasda dağıntıya və çoxlu insan tələfatına səbəb olur. Zəlzələlər, torpaq sürüşmələri, daşqınlar, qasırğa və digər təbii fəlakətlər bütün dünyanı öz ənginə alıb.**

Təbii ki, bütün bunların ilkin səbəbi planetimizin qeyri-humanist münasibətlərin real hədəfinə çevrilməsidir. Əgər dünyamız həddindən artıq nüvə, döyüş sursatı ilə yüklənirsə, dağıdıcı, viranedici müharibələrin meydanına çevrilirsə, hansı normal həyat tərzindən söhbət gedə bilər?




Bir çox mənfi amillər də dünyanın ekosisteminə ziyan vurmaqdadır. Yaşadığımız elmi-texniki inqilab əsrində əhalinin sürətlə artması, yeni təbii ehtiyatların istifadəyə verilməsi, kənd təsərrüfatının sənayeləşdirilməsi, texniki tərəqqinin sürətləndirilməsi ətraf mühitə öz təsirini göstərməyə bilməz. Texniki tərəqqinin nailiyyətləri bir tərəfdən əhalinin təbiətdən asıllığını azaldırsa, təbii ehtiyatlardan səmərəli istifadəni asanlaşdırırsa, digər tərəfdən də bu nailiyyətlərdən düzgün istifadə olunmaması ekoloji tarazlığın pozulmasına gətirib çıxarır. Belə ki, hava, dəniz, şirin su hövzələri çirklənir, meşələr məhv olur, torpaq örtüyü sıradan çıxır, nadir bitki və heyvan növlərinin sayı azalır.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Bəxtiyar Hüseynov**



yuxarıda vurğuladığı fikirlərini davam etdirərək bildirib ki, təbiətlə harmonik münasibət qurulmadıqda bu cür ciddi problemlər yaranır. Məsələn, yerdə həyatın yaranması və inkişafını təmin edən amillərdən biri olan atmosferə diqqət çəkək. Atmosfer hər şeydən öncə tənəffüs almaqdan ötrü canlı orqanizmlər üçün həyati əhəmiyyət kəsb edir. Əgər insan qidasız 60 gün, susuz 6-7 gün qala bilərsə, havasız 4 dəqiqədən artıq yaşaya bilməz. Yerdə enerji və maddələr mübadiləsinin həyata keçirilməsində mühüm rol oynayan atmosferin çirklənməsi bu gün əsas ekoloji problem kimi qarşıda durur.

Qeyd edək ki, bu çirklənmə sənaye, nəqliyyat və s. sahələrdə çox böyük həcmdə müxtəlif yanacaq növlərindən səmərəsiz istifadə ilə bilavasitə bağlıdır. Bu sahələrdən hər il havaya 20 milyard tondan artıq bərk və qaz halında hissəciklər daxil olur. Mineral yanacağın və müxtəlif növ tullantıların yandırılmasından əmələ gələn karbon turşusu və sulfidli qaz atmosferin temperatur rejiminə, optik xassələrinə, ayrı-ayrı regionların hava şəraitinə mənfi təsir göstərir.

Tədqiqatçıların sözlərinə görə, sulfidli qazlar turş yağışlar əmələ gətirir. Avropada və Şimali Amerikada geniş yayılan bu yağışlar meşələri, şirin su hövzələrindəki canlı aləmi məhv edir, kənd təsərrüfatı məhsullarının keyfiyyətini və məhsuldarlığını aşağı salır. Havaya zərərli maddələrin daxil olmasının qarşısını almaq bu gün istehsal texnologiyasının daha da təkmilləşdirilməsini və müasir avadanlıqlardan düzgün istifadə olunmasını ön plana çəkir. Qeyd edək ki, yaşıllıqlar da atmosferin tənzimlənməsində mühüm rol oynayır. Təkcə bunu demək kifayətdir ki, bir hektar meşə sahəsi bir ildə 18 min kubmetr havanı zəhərli maddələrdən təmizləyir və 10-20 tona yaxın karbon qazı udur.

B.Hüseynovun sözlərinə görə, atmosfer canlı orqanizm, tənəffüs üçün nə qədər mühüm əhəmiyyət kəsb edirsə, su da həyat üçün bir o qədər böyük önəm daşıyır. Bu baxımdan Xəzər dənizi neft, qaz və başqa xammal ehtiyatları ilə yanaşı, canlı aləmlə də çox zəngin bir hövzədir. Nadir balıqlar, quşlar, su bitkiləri, onurğasız heyvanlar bu hövzənin əvəzolunmaz sərvətidir. Dünyada ağ balığın 70 faizi, qara kürünün demək olar ki, hamısı Xəzəryanı dövlətlərin, o cümlədən Azərbaycan, Rusiya Federasiyası, Qazaxıstan, Türkmənistan və İran İslam Respublikasının hesabına istehsal olunur.

Lakin çox təəssüf ki, Xəzərin ekoloji vəziyyəti heç də qənaətbəxş deyil. Ümumiyyətlə, dəniz və okeanların suyu ən çox neft və neft tullantıları ilə çirklənir. Suyun üzərində əmələ gələn neft pərdəsi oksigenin sərbəst hövzəyə daxil olmasına mane olur, bu da canlı aləmi, bioresursların həyatını təhlükə qarşısında qoyur. Xəzərin məişət tullantıları ilə çirklənməsi oradakı canlı aləmin tükənməsinə, qiymətli balıq növlərinin azalmasına və nəticədə yox olmasına səbəb olur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı bildirir ki, yeni əsrin başlanğıcında bəşəriyyət artıq iqlim dəyişmələri və onun fəsadları, bioloji müxtəlifliyin getdikcə azalması, ozon qatının dağılması, hidrosferin çirklənməsi, turş yağışlar və s. bu kimi qlobal ekoloji problemlərlə üz-üzədir. Təsadüfi deyil ki, müasir ekoloji vəziyyət həyəcan siqnalı çalaraq bütün dünyada haqlı olaraq narahatlıq doğurur. Beynəlxalq birlik iqlim dəyişmələri və onun fəsadlarına qarşı mübarizədə həmrəylik nümayiş etdirərək keçən il dekabrın 9-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyasında – COP28 sammitində bir araya gəlməsi də bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, sammitin dekabrın 11-də keçirilən plenar iclasında isə növbəti COP29-un məhz Azərbaycanın evsahibliyi etməsi haqqında yekdilliklə qərar qəbul olunub. Tədbirdə çıxış edən Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bu qərara görə, COP-un Şərqi Avropa Qrupu Dövlətlərinə minnətdarlığını bildirərək ölkəmizin bu uğurunu respublikamızda iqlim dəyişikliyi ilə bağlı həyata keçirilən genişmiqyaslı mübarizə tədbirlərinin daim diqqətdə saxlanılması, Prezident İlham Əliyevin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində nümayiş etdirdiyi güclü siyasi iradə ilə əlaqələndirib.

Ümumiyyətlə, COP29 kimi mötəbər bir tədbirin ölkəmizdə keçirilməsi ilə bağlı yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyətin Azərbaycana böyük hörmət və etimadın, eləcə də milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə verdiyi töhfənin mühüm göstəricisidir. Bu, COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, “yaşıl ideya”lar və “yaşıl proqram”larla bağlı məsələlərə Azərbaycan platformasından baxılacağı və onun təcrübəsinin öyrəniləcəyi deməkdir.

COP29-un Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin COP29-a ev sahibliyi etmək üçün ölkəmizi dəstəklədiyini böyük uğur kimi səciyyələndirən dövlətimizin başçısının sözlərinə görə, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcək və dünyada hər kəs bir daha bizim gündəliyimizin “yaşıl enerji” ilə bağlı olduğunu görəcək. “Yaşıl enerji” növlərinin yaradılması və “yaşıl enerji”nin dünya bazarlarına nəqlinin dövlətimizin enerji siyasətində prioritet istiqamətə çevrildiyinə əmin olacaq.

Qeyd edək ki, hazırda Azərbaycanın ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istehsal edilən güc 1688 meqavat təşkil edir ki, bu da ümumi gücün təqribən 20 faizinə bərabərdir. Bununla belə, regionun alternativ və bərpaolunan enerji potensialının zənginliyi ilə seçilən ölkəmizdə bu göstəricinin artırılması üçün imkanlar çox yüksəkdir. Belə ki, təsdiqlənmiş proqnozlara görə, Azərbaycanın quru ərazisində 37 qiqavatlıq külək və günəş enerjisi, Xəzər dənizinin Azərbaycan sektorunda isə 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Bütövlükdə isə, ölkəmizin bərpaolunan enerji sahəsində potensialı 200 qiqavata yaxın qiymətləndirilir.

Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin əsas hədəflərindən biri də məhz ölkəmizdə bərpaolunan enerji mənbələrinin potensialından səmərəli istifadənin gücləndirilməsindən ibarətdir. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycanda 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının hazırkı göstərici ilə müqayisədə daha 50 faiz artırılması, eləcə də istixana qazı emissiyalarının 2050-ci ilə qədər 40 faizədək azaldılması nəzərdə tutulur. Eyni zamanda, yaxın illərdə Azərbaycanda istehsal ediləcək bərpaolunan enerjinin 80 faizinin ixracı planlaşdırılır.

Azərbaycanın energetika nazirinin müavini Samir Vəliyevin sözlərinə görə, 2030-cu ilə qədər ölkəmizdə ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payının 30 faizədək artırılması planlaşdırılır. Bununla belə, nazir müavini hesab edir ki, 2027-ci ilin sonunadək 1870 meqavat həcmində “yaşıl güc”lərin ölkənin enerji sisteminə inteqrasiyası nəticəsində bərpaolunan enerjinin payı proqnozlaşdırılmış hədəfdən daha çox, yəni 33 faizə çatdırıla bilər. Bu məqsədlərə nail olmaq üçün isə ölkəmizin energetika sektorunda islahatlar davam etdirilir.

**V. BAYRAMOV**
**XQ**

# Avropa Komissiyasının COP29 maraqları

**Avropa Komissiyası BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını uğurla keçirmək üçün COP29 komandası ilə sıx əməkdaşlıq edəcək. Bunu Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simson martın 1-də Bakıda keçiriləcək Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu toplantısı ilə bağlı Azərbaycan mətbuatına açıqlamasında bildirib.**



O, Avropa İttifaqının Azərbaycanın COP28 konfransında 2030-cu ilədək bərpaolunan enerji imkanlarını üçqat, enerji effektivliyi üzrə tədbirləri isə ikiqat artırmaqla bağlı qlobal öhdəliyə qoşulmasını müsbət qarşıladığını vurğulayıb.

Kadri Simsonun sözlərinə görə, “Yaşıl enerji” üzrə ikinci Məşvərət Şurasında əsas diqqət Azərbaycanda dənizdə külək və günəş enerjisi üzrə böyük imkanların, eləcə də, regional səviyyədə fiziki qarşılıqlı əlaqələrin və bazar inteqrasiyasının inkişafına yönəldiləcək.

***XQ***



# Energetika naziri ABŞ-ın ekoloji layihələri ilə tanış olub

**Azərbaycan və ABŞ-ın Milli Bərpa Olunan Enerji Laboratoriyası (NREL) ilə tərəfdaşlıq imkanları dəyərləndirilib və əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib. Bu barədə Energetika Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, energetika naziri Pərviz Şahbazov ABŞ-a səfəri çərçivəsində Denver şəhərində yerləşən NREL-də olub. Nazir bərpaolunan enerji və enerji səmərəliliyi texnologiyalarının tədqiqatı, inkişafı, tətbiqi yolu ilə enerji transformasiyasında mühüm rol oynayan laboratoriyanın fəaliyyəti ilə tanış olub. Günəş, külək, hidro, bioenerji, hidrogen, bərpaolunan enerji mənbələrinin şəbəkəyə inteqrasiyası sahələrində inkişaf proseslərini, yenilikləri əks etdirən tədqiqatlara dair təqdimatlar dinlənilib.

Daha sonra təhlükəsiz, dayanıqlı gələcək enerji sistemlərinə səmərəli keçidi təşviq edən “Enerji sistemlərinin inteqrasiyası”, hidrogenin istehsalı, saxlanması, nəqli və istifadəsinə dair araşdırma və inkişaf tədbirlərini həyata keçirən “Hidrogen Tədqiqatları” və “Elmi-Texnoloji” mərkəzlərə baş çəkilib.

***XQ***

Qədim oğuz yurdu

# Göyçədə bir kənd vardı – Daşkənd

**Oğuz yurdunun füsunkar təbiətə, əsrarəngiz gözəlliklərə, qədim tarixə malik yaşayış məskənlərindən biri olan Daşkənd kəndi Göyçə mahalının şərqində, rayon mərkəzi Basarkeçərdən 8 kilometr cənub-şərqdə yerləşir. "Daşkənd" türk mənşəli toponimdir, sözün mənası "qayalıq və daşlı yer" deməkdir. Kənd relyefə uyğun olaraq bir hissəsi daşlıq, kəmərvari silsilə qayalıq üzərindəki düzənlikdə, qalan hissəsi qayalığın ətəklərindəki düzənlik ərazidədir. Kənd dəniz səviyyəsindən təxminən 2450-2550 metr yüksəklikdədir. Daşkənd, Basarkeçər, Qıxbulaq, Aşağı Şorca, Yuxarı Şorca, Qoşabulaq, Sarıyaqub kəndləri ilə əhatə olunmuşdur.**

Daşkəndin tarixi çox qədimdir. Bura qədim yaşayış məntəqəsi kimi Son tunc və Erkən dəmir dövründə (Bizim eradan əvvəl II minilliyin sonları–I minilliyin əvvəlləri) mövcud olmuşdur.

Kəndin ərazisində aparılan qazıntılar zamanı tapılan tunc və dəmir məişət əşyaları, əmək alətləri, kəhraba qaşlı bəzək əşyaları, silahlar (ox və nizə ucluqları, qılınc) və küp qəbirlər bunu təsdiqləyir.

Xalqların böyük köçü (IV-VI əsrlərdə) zamanı bu ərazilərə gələn yeni-yeni türk tayfaları (saklar, kimmerlər, hunlar, oğuzlar və s.) aborigen türklərlə qarışaraq yeni etnosların yaranmasına səbəb olmuşlar.

Müxtəlif tarixi dönəmlərdə baş vermiş dövlətlərarası toqquşmalar Daşkəndin tarixinə təsirsiz ötüşməmişdir. Əhali qanlı müharibələr səbəbindən köçməyə, yaşayış yerlərini dəyişməyə məcbur olmuşdur.

Kənddə VI-VII əsrlərə aid oğuz qəbiristanlığı vardı. Yaşayış evlərinin tikintisi məqsədilə evlərin bünövrəsi qazılarkən oradakı qəbirlərdən müasir insanlardan xeyli böyük insan skletləri aşkarlanırdı. Bu məzarlar "Oğuz qəbirləri" adlanırdı. Bu da onu göstərir ki, burada elə tarixən Oğuz türkləri yaşamışlar.

Daşkənd Erkən Orta əsrlərdə Qafqaz Albaniyasının tərkibinə daxil olmuşdur. Bunu Daşkəndin ərazisində xristian alban türklərinə məxsus çox sayda məzarlıqlar, ayrı-ayrı qəbirlər, habelə, iki məbəd–ibadətgah da təsdiq edir. Bunlar 1181-ci ildə tikilmiş S.Astvatsatsin məbədi, eləcə də, təxminən, XIII əsrdə tikilmiş S.Gevorq məbədidir. Birinci məbəd təbii təsirlərə məruz qalıb tavan hissəsinin bəzi yerləri uçsa da, ikinci məbəd olduğu kimi qalmışdır. Azərbaycan türklərinin tarixi torpaqları olan Göyçə mahalı zaman-zaman mövcud olmuş Ərəb Xilafətinin, Sacilər, Salarilər, Şəddadilər dövlətinin, Səlcuq imperatorluğunun, Eldənizlər, Hülakülər, Ağqoyunlu və Qaraqoyunlu dövlətlərinin, Səfəvi imperatorluğunun tərkibinə daxil olmuşdu.

Səfəvilər dövründə (1501-1736-cı illər) Göyçə mahalı Çuxursəd bəylərbəyliyinin tərkibində idi. Çuxursəd bəylərbəyliyi birinci dəfə 1583-cü ildə Osmanlı dövlətinin tərkibinə daxil olsa da, 1604-cü ildə I Şah Abbasın idarəçiliyinə keçib. Osmanlılar işğal olunmuş ərazilərin idarəsinə lazim olan hüquqi bazanı hazırlamaq üçün sənədlər tərtib etmişdilər. Bu sənədlər "müfəssəl dəftər" və "icmal dəftəri" adlanırdı. "İcmal dəftəri"ndə ərazidəki kəndlər və təsərrüfat subyektləri (tiyul, ziyamət, timar) siyahıya alınaraq ödənilən vergilər, "müfəssəl dəftər»-də ərazidə yaşayan vergi mükəlləfiyyətli əhali siyahıya alınırdı.

Daşkəndin adı "İrəvan əyalətinin icmal dəftəri"ndə, "İrəvan əyalətinin müfəssəl dəftəri" ndə və Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir.

1828-ci il Türkmənçay müqaviləsindən sonra İrəvan və Naxçıvan xanlıqlarının ərazisində Rusiya İmperiyasına tabe olan "erməni vilayəti" (1828-1840-cı illərdə mövcud olmuşdu) yaradıldı. Göyçə mahalı, o cümlədən, Daşkənd kəndı "erməni vilayəti"nə verildi. Yeni yaradılmış "erməni vilayəti"nin idarəçiliyinə verilmiş kəndlərinin siyahısını tərtib edən İ.Şopen Daşkəndin adını 43-cü sırada qeyd etmişdir.

İ.Şopenə görə, İrəvan sərdarı Hüseynqulu xan Qacar Rusiya İmperiyasının Cənubi Qafqaza hücumundan müdafiə olunmaq üçün Göyçə mahalının boş qalmış kəndlərinə qarapapaqları məskunlaşdırırdı.

1829-cu il rus-türk müharibəsindən sonra Rusiya işğal etdiyi Bəyazid paşalığından 1.485 erməni ailəsini Göyçə mahalına köçürüb onun cənubunda, az bir qismini də qərbində yerləşdirdi. Ermənilərin yaşadığı ərazi SSRİ-nin dövründəki inzibati-ərazi bölgüsünə görə Martuni və Kamo rayonlarına aid edilmişdir. Bu ərazi 1831-ci ilin kameral siyahısında "Göyçə mahalı" adlanırdı. 1831-ci ilin siyahısına görə, Göyçə mahalındakı 999 müsəlman ailəsində 3.164 nəfər kişi, 2.443 qadın, cəmi 5.607 nəfər azərbaycanlı yaşayırdı. Rus işğalından qabaq Göyçə mahalında cəmi 15 erməni ailəsi və 90 nəfər erməni yaşayırdı. 1829-cu il Rusiya–Türkiyə müharibəsindən sonra Osmanlının Bəyazid paşalığından Göyçə mahalına köçürülmüş 1.485 erməni ailəsi isə Göyçə gölünün cənubundakı 24 boş kəndə yerləşdirilmişdi.

XIX əsrin 40-cı illərin inzibati-idarə islahatına uyğun olaraq, İrəvan quberniyası (1849-cu il) yaradıldı. Daşkənd kəndi Yeni Bayazit qəzasının tərkibində İrəvan quberniyasına tabe edildi.

1842-ci ilin kameral siyahısında "Göyçə nahiyəsi" adlansa da, sonradan erməni vilayətinin ərazisində yaradılan İrəvan quberniyasının tərkibində Novobəyazid qəzası adlandırılmışdır. Qəza mərkəzi olan Kəvərin adını da 1850-ci ildə dəyişib Novobəyazid qoymuşdular [18, 153]. Bu ad Türkiyədən gətirilən ermənilərin Bəyazid paşalığından olmaları ilə bağlı idi. (1959-cu ildə həmin yaşayış məntəqəsi Kamo adlandırılmışdır.



Kənddə 1831-ci ildə 357 nəfər, 1873-cü ildə 560, 1886-cı ildə 816, 1897-ci ildə 1004 1908-ci ildə 816, 1914-cü ildə 1389, 1916-cı ildə isə 1054 nəfər azərbaycanlı yaşamışdı.

Ermənilər Rusiya imperiyasının himayəsinə sığınsalar da, imperiyada hökumət əleyhinə baş verən hadisələrdən öz mənafeləri üçün vəziyyətdən məharətlə istifadə edirdilər. Ərazi iddialarından əl çəkmir, tarixi türk torpaqları hesabına ərazilərini genişləndirməyə çalışırdılar. 1905-1907-ci illərdə baş vermiş Birinci Rus inqilabı dövründə Bakıda, Qubada, Şamaxıda, Qarabağda, Zəngibasarda, Vedibasarda, Zəngəzurda, Ağbabada, Şörəyeldə və Naxçıvanda olduğu kimi Göyçə mahalında da ermənilərin Azərbaycan türklərinə qarşı təcavüzkar niyyətləri qanlı hadisələrə, qətliamlara gətirib çıxardı. Digər kəndlərdə olduğu kimi, Daşkənddə də əhalinin şəxsi təsərrüfatları talan edilir, mal-qaraları, məişət əşyaları əllərindən zorla alınırdı. Erməni təcavüzündən cana doyan əhali kənddən çıxmağa məcbur olaraq Kəlbəcərin kəndlərinə pənah gətirmişdi. Əhali bir neçə ildən sonra doğma yurdlarına qayıtmışdı.

Məlum olduğu kimi, Rusiyadakı 1917-ci il Oktyabr inqilabı nəticəsində Cənubi Qafqazda siyasi dəyişikliklər baş vermiş və burada 3 yeni dövlət yaranmışdı. Göyçə mahalı və onun bir hissəsi olaraq Göyçə gölü Azərbaycan Xalq Cümhuriyyəti ilə Ermənistan Res-publikası arasında mövcud olan sərhədin bir hissəsini təşkil edirdi. Göyçə gölünün şərq tərəfindəki torpaqları "Göyçə dairəsi" inzibati ərazi statusu ilə Azərbaycana məxsus idi. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin qəbul etdiyi son qanun Göyçə mahalı ilə bağlı olmuşdur.

1918-ci ildə ermənilər öz mənfur antitürk niyyətlərini reallaşdırmaq üçün Göyçədə qətliamlara rəvac verəndə Daşkənd ən çox zərər çəkən yurd yerlərindən biri oldu.

Daşnakların silahlı quldur dəstələrinə Göyçə mahalında Andranikin silahdaşı Sulikov başçılıq edirdi. Silahlı dəstənin ərzaqla, atlarının yemlə təmin olunmasını tələb edən daşnak quldurları azərbaycanlıların yaşadıqları kəndlərə basqınlar edərək talanlar və qətillər törədirdilər. Sulikovun amansızlığına və qəddarlığına dözməyib onu qətlə yetirdilər. Onun qətlində Daşkənddən Məşədi Qasım və Hacı Rəhim, Aşıq Nəcəf iştirak etmişdilər. Bu səbəbdən də Göyçədə erməni talanlarından ən çox zərər çəkən yurd yerlərindən biri Daşkənd oldu.

Azğınlaşmış ermənilər türk qanına susayaraq "1918-ci il yanvarın 24-də Göyçənin Çamırlı kəndinə basqın edən daşnak terrorçuları 10 sakini vəhşicəsinə qətlə yetirdilər. Bunu eşidən Məşədi Qasım həmkəndlilərindən ibarət dəstə ilə Çamırlıya köməyə gedir. Digər kəndlərdən də köməyə gəlmiş silahlı dəstələr erməni-daşnak terrorçularını geri oturdurlar.

Ermənilərin Daşkəndə talançı basqınları mütəşəkkil xarakter alır. Ermənilərə qarşı kəndin igid sakinləri Məşədi Qasım, Kərbəlayi Zeynal (Rəsullular), Əliş, İdris (Qızılhacılılar), Qocaman oğlu Mədət, Hacı Rəhim, Koroğlu Məhəmməd, Vəli (Koralılar), Ziyad (Babakişilər), Nağı bəy, Tağı oğlu Məhərrəm, Hacı Dünyamalı oğlu Abbasəli və başqaları kəndin müdafiəsini təşkil etmişdilər. Ermənilər ciddi müqavimətlə rastlaşaraq geri çəkilməyə məcbur olmuşdular.

Erməni-daşnak qüvvələrinin Daşkəndə vaxtaşırı hücumları barədə Azərbaycan Xalq Cümhuriyyətinin orqanı "Azərbaycan" qəzeti (3 fevral 1919-cu il) "İrəvan: Erməni-müsəlman məsələsi. yeni vicdansız təcavüzlər" məqaləsində yazmışdır ki, ermənilər 1918 sənəsi may ayında müsəlman kəndlərinə hücum etmişlər. Lakin müsəlmanlar erməni hücumlarının qarşısında dayana bilmiş, hətta, haylar beş-altı yüzə qədər tələfat vermişlər. Məqalədə deyilir: "Mən Qazaxlıyam. ...Daşkəndə qonaq getmişdim. 750 nəfərdən ibarət erməni əsgərləri 3 pulemyot, 2 topla NovoBəyazid qəzası kəndlərindən xərac toplamaq üçün müsəlman kəndlərinin üstünə gəlmişdilər. ... Sonra "Daşkənd» adlanan kənddən 280 min manatlıq ot, taxıl, neft... qarət etdilər. Bundan savayı, həmin kəndin sakini Məşədi Qasımın 120 baş qoyununu, 24 baş qaramalını, 50 araba otunu və 10 min manatlıq ev əşyalarını özləri ilə apardılar.



Digər tarixi sənəddə, İrəvan quberniyası Yenibəyazit qəzası Daşkənd kənd sakinləri Məşədi Qasım Hacı Kərim oğlu və Böyük Əli Hacı Mirzə Ələkbər oğlunun Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirinin adına 23 yanvar 1919-cu il tarixli xahişnaməsində də erməni vandalizmi öz əksini tapmışdı:

"Erməni hökuməti qoşunlarla məmur qismində müsəlman kəndlərinin sakinlərini tamamilə talan etdi: – Zağalı, Daşkənd, Zod, Hüseynquluağalı, Sarıyaqub, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Aşağı Narçamor, Yeni Keti, Qayabaşı, Qoşabulaq, Ağkilsə, Zərzibil, İnəkdağı, Sultanəliqışlağı, Oğruca, Böyük Məzrə, Bala Məzrə, Kəsəmən, Şişqaya, Sətənəxaç, Qızıl-Payka. Qoşunlar hər kənddə 5-6 gün qalırlar. Talan etdikdən sonra çıxıb başqa kəndə gedirlər. Aşağıdakı kəndləri tamamilə yandırmışlar: Örkülü, Alçalı, Kəminli, Yarpızlı, Qanlı, Kərkibaş, Çaxırlı, Kefli-Kürdü və Böyük Məzrə."

1919-cu il aprelin 13-20-də daşnakların Göyçəyə növbəti basqısı zamanı 22 kənd yenidən dağıdıldı, 15 min əhali Cavanşir qəzasının dağlıq ərazilərinə qaçmaq məcburiyyətində qaldı. Dağlıq zolağın V sahəsinin müsəlman əhalisi üzrə müvəkkil İ.Sultanovun bu faciə barədə verdiyi məlumatda ("Azərbaycan" qəzeti. 19 may 1919-cu il) dağıdılmış kəndlərin siyahısın-da birinci sırada yenə də Daşkəndin adı gəlir.

Ermənilərin Daşkəndə qarşı budəfəki vəhşiliyi isə səbəbsiz deyildi. Aprel qırğınlarından əvvəl daşnaklar Zod yaxınlığında ciddi məğlubiyyətlə üzləşmişdilər və Andranikin silahdaşı Sulikovun qətli mərasimində daşkəndli Aşıq Nəcəfin də olduğu barədə şayiələr erməniləri təbdən çıxarmışdı. Onlar Aşıq Nəcəfi hədəf seçmişdilər. Hiylə ilə danışığa dəvət edərək onu kürəyinə samovar bağlayaraq faciəli şəkildə qətlə yetirdilər. Aprel qırğınlarında artıq Aşıq Nəcəf sağ deyildi, o, faciəli surətdə qətlə yetirilsə də, bu da daşnakların ürəyini soyutmamışdı. Onlar bu haqq aşığının nəslinin və Daşkənd əhalisinin qanına susamış, top və pulemyotla silahlanaraq yenidən kəndə hücum etmişdilər. Daşkəndlə Basarkeçər arasında, Qaraburunda və Səngər təpəsi deyilən yerdə müdafiəçilər istehkam qurmuşdular. Bir neçə saat ciddi müqaviməti görən ermənilər topdan atəş açırlar. Əhali kəndi tərk etməyə məcbur olur. Yurd-yuvasından didərgin düşən əhali Yelli dərə və Tərsə-Keyti istiqamətində Kəlbəcərə üz tutur. Erməni təcavüzündən yayınan bir çox insanlar sərt şaxtada donub həlak olur. Erməni quldurları kəndə daxil olub evlərini tərk edə bilməyən qocaları, əlsiz-ayaqsız insanları qətlə yetirib talançılıq edirlər.

Didərgin düşmüş əhali sovet hakimiyyəti qurulduqdan sonra yenidən yurd-yuvasına qayıdır.1922-ci ildə kəndə qayıdanların sayı 882 nəfər, yəni 1916-cı ildəki əhalinin 40 faizi həddində idi ki, bu da Daşkəndin 1919-cu ildə yaşadığı faciənin miqyasını tam mənada təsəvvür etməyə imkan verir.

Bolşevik Rusiyası Göyçə dairəsini Azərbaycandan qoparıb Ermənistana verdi. Keçmiş Göyçə mahalının yerində Hrazdan, Sevan, Martuni, Kamo, Vardenis (Basarkeçər) və Krasnoselski rayonları yaradıldı ki, onlardan yalnız sonuncu 2 rayonda türklər yenə də sayca əksəriyyət təşkil edirdilər.

1941-1945-ci illərdə faşist Almaniyasına qarşı müharibədə kəndin əhalisi çətinliklərə, məhrumiyyətlərə baxmayaraq cəbhəyə hər cür yardım göstərmişdi. Müharibədə iştirak edən Daşkənd sakinlərindən 122 nəfər həlak olmuşdu.

Sovet hakimiyyəti illərində də Göyçədə həyata keçirilən erməniyönlü siyasət, etnik təmizləmə prosesi davam etdirilmişdir. 1947-ci il dekabrın 23-də İ.V.Stalin "Ermənistan SSR-dən kolxozçuların və digər əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin 4083 nömrəli qərarını imzaladı. Həmin qərara uyğun olaraq, əhalinin köçü mərhələ-mərhələ həyata keçirilməli idi.1953-cü il mayın 18-də əhalinin bir hissəsi Daşkənddən yük maşınları ilə Uluxanlı (Zəngibasar) stansiyasına gətirilmiş, oradan isə vaqonlarla Yevlax stansiyasına gətirilərək 130 ailə, 621 nəfər deportasiya olundu. Əhalinin istəyi ilə Bərdə ilə Tərtər arasında Çinarlıq deyilən yerdə Yeni Daşkənd kəndinin əsasını qoydular. Stalinin ölümündən sonra köç dayandırıldı. Əhalinin qalan hissəsi Daşkənddə qaldı və 17 ailə yenidən Daşkəndə qayıtdı. XX əsrin 60-80-ci illərində Daşkənddə 10 illik məktəb, univermaq, poçt, avtomat telefon stansiyası, mədəniyyət klubu, kino zalı, kitabxana, məişət evi, yeməkxana, dəyirman fəaliyyət göstərirdi. Burada traktor parkı və qaraj vardı. Kolxozun təsərrüfatına 60-dan çox avtomobil, traktor, kombayn ... daxil idi. Kolxozun əsas təyinatı maldarlıq və əkinçilik idi. Maldarlıq və qoyunçuluq fermalarında 20-dən çox qaramal naxırı və qoyun sürüsü bəslənirdi. Deportasiya zamanı kolxozun əmlakı və bütün əhalinin mal-qarası, şəxsi təsərrüfatı ermənilər tərəfindən talan edilmişdi.

Qərbi Azərbaycanın digər bölgələrində olduğu kimi Göyçədəki yurd adları erməniləşdirildi. 1969-cu ildə rayon mərkəzi Basarkeçərin adı dəyişdirilərək Vardenis adlandırıldı. Daşkəndin adını dəyişib "Karaguğ" adlandırmaq təşəbbüsü Daşkənd kənd sovetinin sədri Xasay Zeynalovun inadlı müqaviməti ilə boşa çıxdı.

Bu qədim tarixi yurdun türklərin məskəni olduğu erməni mənbələrində öz təsdiqini tapmışdır. Erməni tarixçisi Z.Korkodyanın "Sovet Ermənistanının əhalisi 100 ildə: 1831-1931" kitabında rəsmi mənbələrə istinadən verdiyi məlumata görə, Daşkəndin türk əhalisinin sayı 1873-cü ildə 560 nəfər, 1897-ci ildə 1004 nəfər, 1916-cı ildə 1954 nəfər olmuşdur.

1987-ci ilin məlumatına görə, Daşkənd kəndində 458 ailə, 2343 nəfər əhali yaşayırdı. Bədnam "Böyük Ermənistan" iddiasinda olan ermənilərin məkrli siyasəti nəicəsində Qərbi Azərbaycanın digər ərazilərində olduğu kimi, Daşkəndin əhalisi zorakılıqla 1988-ci ilin noyabr-dekabr aylarında tamamilə deportasiya edildi. Bundan sonra kəndə 2001-ci ildə 441 nəfər, 2008-ci ildə 471 nəfər, 2010-cu ildə 520 nəfər, 2011-ci ildə 597 nəfər erməni yerləşdirilmişdi.

Daşkənd kəndinin sakinləri I və II Qarabağ müharibələrində fədakarlıqla iştirak etmişlər. Qocamanov Tofiq Əsədxan oğlu, Məhərrəmov Mehdi Əmirxan oğlu, Süleymanov Nurəddin Əmirxan oğlu, Zeynalov Nəbi Surxay oğlu, Canbaxışov Mahmud Surxay oğlu, Hümbətov Azad Arif oğlu fədakarlıqla vuruşaraq şəhidlik zirvəsinə ucalmışlar.

Biz daşkəndlilər Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurlu uzaqgörən siyasəti sayəsində öz doğma yurdumuza qayıdacağımız günü səbirsizliklə gözləyirik.

*Nazim ZEYNALOV,*
*tarixçi, tədqiqatçı-publisist*

# Ermənistan işğalçı dövlət olduğunu etiraf edir

## *Buna görə də təzminat ödəməkdən yaxa qurtara bilməz*

**Qərbi Azərbaycan torpaqlarında özlərinə dövlət qurmuş ermənilər, bu azmış kimi, Qarabağ iddiası ilə 30 il ərzində ölkəmizin 20 faizlik bir ərazisini də işğal altında saxlamışdır. Nəticədə ölkəmizə milyardlarla dollar həcmində zərər vurmuşdur. Buna görə Ermənistan təzminat ödəməlidir və Azərbaycana dəvət olunmuş beynəlxalq ekspertlərin dəyən zərərin hesablanması ilə bağlı fəaliyyəti də olmuşdur. Ermənistanın işğalçı dövlət olması və 30 il ərzində Azərbaycan dövlətinə vurduğu zərərə görə təzminat ödəməsi məsələsi artıq gündəmə daşınmaqdadır.**

Ermənistanın baş naziri Nikol Paşinyanın Münxen səfərində Almaniyadakı erməni icması ilə görüşündə maraqlı etirafları olmuşdur.

Ermənistanda belə hesab edirlər ki, Paşinyan Ermənistanın son 30 illik siyasətində Azərbaycan torpaqlarını işğal etməsi faktını açıq şəkildə dilə gətirməklə Ermənistanı çətin duruma salmışdır. Görüşdə iştirak edənlərdən birinin Dağlıq Qarabağ ermənilərinin öz müqəddaratını təyin etmə haqqı İlə bağlı sualına Paşinyan demişdir ki, Azərbaycanla sülh müqaviləsinin mətnində Qarabağ ermənilərinin məsələsi yoxdur. Bu isə o deməkdir ki, Qarabağ ermənilərinin məsələsi artıq gündəmdə deyil, bu məsələ bağlanmışdır. Maraqlı məqam ondan ibarətdir ki, Paşinyan cavabında deyir ki, biz həmin "öz müqəddaratını təyin etmə haqqı" anlayışını götürməklə və Dağlıq Qarabağın müstəqilliyini tələb etməklə elə hesab etmişik ki, Azərbaycana qarşı siyasi həmlə edirik. Əslində, bu beynəlxalq normanı yaradan Qərbə qarşı mübarizə aparmışıq. Bu isə ağıllı yanaşma deyildi...

Bu sözləri ilə Paşinyan Ermənistanın beynəlxalq birliyin prinsiplərinə qarşı çıxdıqlarını etiraf edir. Yaradılan Minsk qrupu da, işə müdaxilə edən ölkələr də bu məsələnin həllində hər zaman Azərbaycanın ərazi bütövlüyü prinsipindən çıxış etmişlər və bu prinsip heç vaxt dəyişməmişdir. Qarabağın Azərbaycan ərazisi olması heç vaxt heç kim tərəfindən şübhə altına alınmamışdır və faktiki olaraq bu prinsiplərdən yanaşıldıqda Ermənistan Azərbaycanın bu ərazisini işğal etdiyi faktı dünya birliyi və beynəlxalq qurumlar tərəfindən qəbul edilmişdir. Bəli, BMT tərəfindən 1966-cı ildə millətlərin öz müqəddaratını təyin etmə normaları qəbul edilmişdir və bu normalar heç cür Qarabağda yaşayan erməni əhaliyə şamil oluna bilməzdi, çünki erməni xalqı Ermənistan Respublikasının timsalında bir dəfə bu haqqı almışdır. Bu normanın ikinci dəfə başqa bir ölkənin ərazisində hansısa topluma verilməsi BMT-nin prinsiplərinə zidd idi. Və faktiki olaraq Ermənistanın belə tələblərdə bulunması başqa bir ölkənin ərazisinə iddia hesab olunmuşdur və 44 günlük müharibə zamanı bu işğal sona çatdırılmışdır.



Paşinyan bu görüşdəki çıxışında faktiki olaraq demək istəyir ki, biz münaqişənin müzakirə olunduğu bütün beynəlxalq dairələrdə "dünyanı aldatmağa çalışmışıq", amma, nəhayət, ortaya çıxmışdır ki, Ermənistan başqa bir ölkənin ərazisini işğal etmişdir. Belə məlum olur ki, 30 il ərzində Ermənistan işğalçı olmuşdur ki, bunun arxasında isə Ermənistan üçün çox ciddi məhrumiyyətlər gəlməlidir.

Paşinyanın bu çıxışını şərh edən politoloqlardan biri, David Qriqoryan öz "Youtube" kanalında deyir ki, Paşinyan bu çıxışı ilə Ermənistanı çətin duruma salmışdır. "Əgər sən etiraf edirsənsə hansısa ölkənin ərazisini işğal etmisən, buna görə cavab verməlisən. Ərazini işğal etdiyinə, 30 il onu işğal altında saxladığına görə, bu ölkəyə vurduğun zərərə görə cavab verməlisən. Söhbət milyardlarla dollardan gedir. Vəsait olaraq Ermənistan bu məbləği ödəmək gücündə olmayacaq. Bu zaman iki variant ortaya çıxır: Birincisi, Azərbaycana 30 ildə vurduğun zərərə görə vəsait ödəməlisən, ikincisi, pulun yoxdursa əvəzinə torpaq verməlisən".

Erməni şərhçilər bu çıxışın Ermənistanın dövlət başçısına məxsus olmasının təhlükəli nəticələr verə biləcəyi ehtimalından bəhs edirlər. Bu fikirlər beynəlxalq məhkəmələrin qərar verməsində əsas kimi qəbul edilə bilər və edilməlidir. Ermənistan Azərbaycan ərazilərini uzun illər işğalda saxladığına və ölkəmizə maddi zərər vurduğuna görə məhkum edilməlidir.

***Qafar MEHDİYEV,***
***XQ-nin Türkiyə müxbiri***

23 fevral 2024-cü il, cümə Xalq qəzeti

# "Doha Ekspo 2023"də Azərbaycanın Milli Günü




**Fevralın 22-də Qətərdə "Doha Ekspo 2023" Beynəlxalq Bağçılıq Sərgisində (International Horticultural Expo 2023 Doha) Azərbaycanın Milli Günü keçirilib.**

2023-cü il oktyabrın 2-də başlayan və bu il martın 28-dək fəaliyyət göstərəcək "Doha Ekspo 2023" Beynəlxalq Bağçılıq Sərgisi "Yaşıl səhra, daha yaxşı ətraf mühit" (Green Desert, Better Environment) mövzusunda təşkil edilib. Məqsəd davamlı innovasiyaları təşviq etmək və səhralaşma ilə mübarizə aparmaqdır. "Doha Ekspo"da fəaliyyət göstərən pavilyonlar sırasında Heydər Əliyev Mərkəzinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə yaradılan Azərbaycan pavilyonu da yer alıb.

"Doha Ekspo"da təşkil olunan Milli Gün çərçivəsində Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyəti Qətərin dövlət naziri Həməd bin Abdulaziz Al-Kuvari, bu ölkənin mədəniyyət naziri Şeyx Abdülrəhman bin Həməd Al Tani, bələdiyyə naziri Abdullah bin Həməd bin Abdullah Al Atiyya, "Doha Ekspo 2023"ün Baş komissarı Bader bin Omar Al Dafa ilə görüşdə ölkəmizin Ekspo sərgilərindəki təcrübəsi, eləcə də "Doha Ekspo 2023"də uğurlu iştirakı barədə müzakirələr aparıb.

Daha sonra Milli Günün açılışı olub, Azərbaycanın Dövlət Himni səsləndirilib və Dövlət Bayrağı qaldırılıb.

Tədbirdə Azərbaycanın və Qətər Dövlətinin rəsmiləri, bu ölkədə akkreditasiya olunmuş 60-a yaxın ölkənin səfiri iştirak edib.

Milli Günün açılış tədbirində çıxış edən Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov Azərbaycan–Qətər münasibətlərinin qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslandığını, sıx təmasların iki ölkə arasında əlaqələrin daha da inkişafına töhfə verdiyini bildirib. "Doha Ekspo 2023"də Azərbaycanın Milli Gününün keçirilməsinin ölkəmiz üçün əhəmiyyətli olduğunu vurğulayan Anar Ələkbərov Beynəlxalq Bağçılıq Sərgisinin dünyanın gündəmindəki ən vacib məsələlərdən birinə - iqlim dəyişmələri ilə bağlı məsələlərə töhfə verəcəyinə ümidvar olduğunu deyib.

Ölkəmizin dünyanı narahat edən iqlim dəyişmələri ilə bağlı qlobal məsələlərin həllinə böyük önəm verdiyini və bu istiqamətdə əməli işlər görməkdə davam etdiyini diqqətə çatdıran Prezidentin köməkçisi bu baxımdan Azərbaycanın noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibliyi edəcəyini xüsusi vurğulayıb.

Dohada belə uğurlu və vacib platformanı təşkil etdiyi üçün Qətər Dövlətinə təşəkkürünü bildirən Anar Ələkbərov deyib: "Ölkələrin bir araya gəlməsi humanitar əlaqələrin və əməkdaşlığın inkişafı üçün çox önəmlidir. Qarşılıqlı dostluq və hörmət prinsiplərinə əsaslanan xalqlarımız tarixən dini və mədəni əlaqələrlə bir-birinə bağlı olub. Hazırda iki ölkə arasında münasibətlər qarşılıqlı dostluq prinsiplərinə əsaslanır. Ölkələrimiz arasında əlaqələr müxtəlif sahələrdə dinamik inkişaf edir. Hesab edirəm ki, dostluq münasibətlərinə əsaslanan əməkdaşlıq münasibətlərimiz bundan sonra da uğurla davam edəcək".

Sonra "Doha Ekspo 2023"ün Baş komissarı Bader bin Omar Al Dafanın çıxışı olub. O bildirib ki, "Doha Ekspo" bizi dünya ölkələrinə maraqlı "səyahət"ə aparır. Bu gün isə qardaş Azərbaycan Respublikasının Milli Gününü qeyd etmək üçün bir araya gətirib.

Ölkəmizin bu il COP29-a ev sahibliyi edəcəyini xatırladan Bader bin Omar Al Dafa deyib ki, Azərbaycan iqlim dəyişikliyi məsələləri ilə bağlı beynəlxalq müzakirələrdə davamlılığı və əməkdaşlığı yaxşılaşdırmaq üçün COP28-ə ev sahibliyi etmiş Birləşmiş Ərəb Əmirlikləri və COP30-u qəbul edəcək Braziliya ilə fəal tərəfdaşlıq edir.

Füsunkar təbiətə malik Azərbaycanın iqlim məsələləri ilə yanaşı, iqtisadiyyatın şaxələndirilməsinə də böyük önəm verdiyini vurğulayan "Doha Ekspo 2023"ün Baş komissarı deyib: "Azərbaycanda investisiya siyasəti innovasiyaya və texnologiyaya əsaslanır. Azərbaycan neft-qaz sektorundan başqa, digər sahələri də sürətlə inkişaf etdirərək iqtisadiyyatının şaxələndirilməsini uğurla həyata keçirir. Bütün bunlar ölkədə bərpaolunan enerji, kənd təsərrüfatı sənayesi və turizm kimi inkişaf edən sahələrdə investorlar üçün geniş fürsətlər yaradır.

Daha sonra Xalq artisti Azər Zeynalovun ifasında "Azərbaycan" mahnısı, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının ifasında isə qədim xalq rəqslərimizdən olan "Uzundərə" rəqsi təqdim edilib. Mərasim çərçivəsində, həmçinin Azərbaycanın təbiəti və tarixi abidələrini əhatə edən fotosərgi təşkil olunub.

Açılışdan sonra tədbir iştirakçıları "Doha Ekspo 2023" Beynəlxalq Bağçılıq Sərgisindəki Qətər pavilyonuna baxış keçiriblər.

Qeyd edək ki, ərazisi 1,7 milyon kvadratmetr olan "Doha Ekspo 2023" Qətər paytaxtının ən böyük parklarından biri olan Al Bidda parkında keçirilir.

Qonaqlar daha sonra Azərbaycan pavilyonunu ziyarət ediblər.

Pavilyonda, həmçinin Azərbaycan mədəniyyətinə dair eksponat və məlumatlar yer alıb. Burada xalçaçılıq, misgərlik, şəbəkə kimi xalq sənətkarlığı, milli geyimlər, eləcə də muğam triosu nümayiş olunur.

Qonaqların pavilyona ziyarəti zamanı muğam triosunun ifası olub, kvartetin ifasında Azərbaycan bəstəkarlarının əsərlərindən nümunələr, milli mətbəximiz təqdim edilib.

"Doha Ekspo 2023"də Azərbaycanın Milli Günü axşam saatlarında Azərbaycan Mədəniyyət Nazirliyi ilə birgə təşkil olunan konsert proqramı ilə davam edib.

*XQ*

# Xalq yazıçısı Şamaxıda dəfn olunub

**Ötən gün 81 yaşında dünyasını dəyişmiş Əməkdar incəsənət xadimi, Xalq yazıçısı Mövlud Süleymanlı Şamaxıda dəfn olunub.**



Xalq yazıçısının cənazəsi günorta saatlarında Şamaxıya gətirilib, rayonun Kərkənc kəndində torpağa tapşırılıb.

Dəfn mərasimində rayon icra hakimiyyətinin rəhbərliyi, yazıçının ailə üzvləri, qələm dostları, eləcə də ictimaiyyət nümayəndələri, jurnalistlər iştirak ediblər.

Yazıçının həyat və yaradıcılığından söhbət açılıb, ədəbiyyat və publisistikamıza xidmətləri qeyd edilib.

Sonra yazıçı vəsiyyətinə uyğun olaraq Kərkənc kənd qəbiristanlığında anasının qəbri yanında dəfn edilib.

Dəfn mərasimindən sonra Şamaxı Cümə məscidində ehsan süfrəsi təşkil olunub.

*XQ*



## Süleyman Ələsgərov – 100

# Üzeyir Hacıbəylinin görkəmli yetirməsi

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 22-də tanınmış bəstəkar, dirijor və pedaqoq, Dövlət mükafatı laureatı, Xalq artisti Süleyman Ələsgərovun anadan olmasının 100 illiyi haqqında sərəncam imzalayıb. Bu, mədəni irsə, görkəmli sənət adamlarına diqqətin daha bir təzahürüdür.**



...Səhər "Sumqayıt–Bakı" qatarı ilə işə gələndə mobil telefonuma baxırdım. Saytlardan birində filarmoniyada bəstəkar Süleyman Ələsgərovun 100 illiyi ilə bağlı konsert veriləcəyi xəbərinə rast gəldim. Elə qatardan düşüb üzü Milli Konservatoriyaya tərəf – Bülbül prospektində yerləşən redaksiyamıza gedirdim ki, musiqi məbədinin sağındakı küçənin Süleyman Ələsgərovun adını daşıdığını bildirən lövhə diqqətimi çəkdi. Təsadüf idimi? – bilmədim.

Bildiyim odur ki, bir anlıq özümü konsertdə sandım, sənətkarın musiqilərindən parçalar qulaqlarımda səsləndi. Süleyman Ələsgərov küçəsindən ötə-ötə xatırladım ki, bəstəkarın ilk mahnısı müharibəyə həsr olunmuş "Gözlə məni" olub və bu mahnını Azərbaycan vokal məktəbinin banisi, adı artıq gəlib çatdığım prospektə verilmiş və burada abidəsi qoyulmuş Bülbül oxuyub.

İş yerimdəki kompüterdə Süleyman Ələsgərovu aradım. Tapdığım məlumatlar onun tərcümeyi-halı, yaradıcılığı barədə bilgilərimi zənginləşdirdi. 1924-cü il fevralın 22-də musiqi beşiyi Şuşada anadan olmuş bəstəkarın sənətə orada tar sinfinə getməklə, texnikumun bədii özfəaliyyət kollektivlərində fəal iştirak etməklə başladığını öyrəndim.

Süleyman Ələsgərov 1948-ci ildə fərqlənmə ilə bitirdiyi Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq ixtisası üzrə Boris Zeydmanın sinfində oxuyub. Həmin ildə konservatoriyanın yaradıcısı dahi Üzeyir bəy dünyasını dəyişsə də, məhz Süleyman Ələsgərov kimi ardıcılları onun ruhunu yaşadıblar. Gənc məzun əvvəlcə Bakı Orta İxtisas Musiqi Məktəbinə rəhbərlik edib. 1956-cı ildən isə konservatoriyada xalq musiqisi kafedrasında fəaliyyət göstərib və 1971-ci ildən həmin kafedranın müdiri olub.

Yaradıcılığı Azərbaycan professional musiqi tarixinin ən parlaq səhifələri sırasında olan Süleyman Ələsgərov daim xalq yaradıcılığından bəhrələnib, fərdi sənət üslubunu bu yolla zənginləşdirib.



Respublika radiosunda, Musiqili Komediya Teatrında, Kinematoqrafiya Komitəsində, filarmoniyada müxtəlif vəzifələrdə çalışıb. Üzeyir ruhlu bəstəkarın musiqili komediyaları rəngarəng mövzuları, dolğun obrazlar aləmi ilə yadda qalıb. "Məhəbbət gülü", "Ulduz" "Olmadı elə, oldu belə", "Özümüz bilərik", "Sevindik qız axtarır", "Hardasan, ay subaylıq", "Həmişəxanım", "Gurultulu məhəbbət" bu qəbildəndir. 1967-ci ildə "Milyonçunun dilənçi oğlu" komediyasına görə Ü.Hacıbəyli adına Respublika mükafatına layiq görülüb. 1992-ci ildə "Subaylarınızdan görəsiniz",1995-ci ildə "Hərənin bir ulduzu" musiqili komediyalarını yazıb.

Dövrünün qabaqcıl fikirli vətənpərvər mütəfəkkirlərinin irəli sürdüyü ideyaların sədaqətli davamçısı olan Süleyman Ələsgərov musiqinin bir çox janrında öz yaradıcılıq imkanlarını sınayıb, zövq oxşayan əsərlər yaradıb. Mahnılar onun yaradıcılıq irsində xüsusi yer tutur. Təbi bulaq kimi çağlayan bəstəkar Azərbaycanda zəhmət mövzusuna və əmək qəhrəmanlarına həsr olunan mahnı janrının əsasını qoyub və bu janrı məharətlə inkişaf etdirib. Neftçi İsrafil Hüseynova "Hünər nəğməsi", pambıqçı Şamama Həsənovaya "Şamama", çoban Süleyman Bağırova "Qəhrəman çoban", inşaatçı Məmməd Hüseynova "Usta Məmməd", manqa başçısı Bahar Talıbovaya "Bahar" mahnılarını həsr edib.

Bəstəkarın romansları bir ayrı aləmdir. Nizami Gəncəvinin "Sərvi xuramanım mənim", Məhəmməd Fizulinin "Vətənimdir", Cəfər Cabbarlının "Yada düşdü", M.Muşfiqin "Küsmərəm" və s. şeirlərə yazdığı romanslar müəllifə böyük şöhrət gətirib.

Ömrünün müdriklik çağında dogma Qarabağda erməni nankorlarının separatçı hərəkətləri Süleyman Ələsgərovun Vətənə məhəbbət, düşmənə nifrət aşılayan əsərlər yaratmaq əzmini daha da gücləndirib. "Yürüş mahnısı", "Bu torpağa bağlıyıq", "Haradasan, igid oğlan", "Biz qələbə çalmalıyıq", "Bura vətəndir" mahnıları, "Gənclik marşı", "Azərbaycan polisi", "Əsgər marşı", "Güllələnən abidələr" balladası və sair nümunələrlə ürəkləri riqqətə gətirib.

Nəsiminin sözlərinə Süleyman Ələsgərovun yazdığı "Neylərəm" romansı bu misra ilə başlayır: "Dilbəra, mən səndən ayrı təndə canı neylərəm?". Elə təndə canı musiqi ilə yoğrulmuş bəstəkarın özü də ömrünün bir gününü belə könlünün dilbəri saydığı nəğmələrdən ayrı yaşamayıb. Odur ki, ötən əsrin sonuna 1 il qalmış dünyasını dəyişsə də, yaddaşlarda "Təxti-Süleyman" abidəsi ucaldıb.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Milli kinomuzun sevimli "ana"sı

**Gözləri ekrandan ayrılmağa qoymayan kino möcüzələrlə dolu bir dünya, sirr pəncərəsidir. Bu aləmin əbədiyaşar sakinləri aktyor və aktrisalardır. Azərbaycan kinosunda mahir ana obrzaları ilə tanınmış Xalq artisti Sədayə Mustafayeva da müxtəlif filmlərə çəkilmiş xoşbəxt taleli sənətkarlarımızdan olub. Yarım əsrdən çox Gəncə Dövlət Dram Teatrında çalışan istedadlı aktrisa ilə bağlı xatirələri çəkildiyi kino lentləri də canlandırır.**

Sədayə Mustafayeva sənətə1940-cı ildə – 14 yaşında Şəki teatrında qədəm qoyub. Sonra fəaliyyətini Ağdaş və Göyçay tearlarında davam etdirib. 1950-ci ildə isə Gəncə Dövlət Dram Teatrının direktoru, Xalq artisti Məhəmməd Burcəliyevin dəvəti ilə qədim şəhərin sənət məbədini seçib. Burada çeşidli obrazlar qalereyası yaradıb.

Onun kino fəaliyyəti 1966-cı ildən başlayır. Belə ki, Salam Qədirzadənin "Xəzan yarpaqları" hekayəsinin motivləri əsasında kinorejissor Eldar Quliyevin diplom işi kimi çəkdiyi 25 dəqiqəlik qısametrajlı "Biri vardı, biri yoxdu" səssiz filmində debüt edib. Sadıq Həsənzadə ilə birlikdə qoca kişi ilə qarının niskilli həyatını canlandırıb. Sonra aktrisa ekranda 20-dən artıq bir-birindən maraqlı obraz yaradıb, özü də daha çox ana rollarında oynayıb. "Qanun naminə"də Xatun, "Mən ki gözəl deyildim"də Gözəl, "Şərikli çörək"də Şamama, "Qaynana"da Mülayim, "Ölsəm, bağışla"da Suğra xala, "Ağ atlı oğlan"da Mirvari nənə, "Həm ziyarət, həm ticarət"də Suğra xala, "Gün keçdi"-də Əsmərin anası, "Qızıl ayaqlı qaz"da Şəfiqənin anası, "Var olun, qızlar"da Rüstəmin anası, "Firəngiz"də Məsmə, "Gümüşü furqon"da Mədinənin anası, "İlıq dənizdə buz parçası"da Təqaüdçünün anası, "Cin mikrorayonda"da Ana, "İşarəni dənizdən gözləyin"də Komandanın anası, "Şəhərli biçinçilər"də Humay, Amerika kinemotoqrafçıları ilə birgə "Azərbaycanfilm"in istehsalı olan "İlk körpü"də ("Dağıdılmış körpülər") Əsmər obrazları bu qəbildəndir.



Kinorejissor Muxtar Dadaşovun Süleyman Rəhimovun "Mehman" povesti əsasında ekranlaşdırdığı 97 dəqiqəlik "Qanun naminə" bədii filmində yaratdığı Xatun obrazı xüsusilə yaddaqalandır. Saflıq mücəssəməsi olan Xatun ananın oğlu Mehmanla canıyanan söhbətləri, müdrik nəsihətləri aktrisanın ifasında olduqca təbii səslənir, özündə əsl azərbaycanlı qadınlarına xas olan xüsusiyyətləri ehtiva edir.

Xalq yazıçısı Bayram Bayramovun eyniadlı povesti əsasında kinorejissor Tofiq Tağızadənin ekranlaşdırdığı 76 dəqiqəlik "Mən ki gözəl deyildim" filmində Sədayə Mustafayevanın yaratdığı Gözəl arvad obrazı da maraqla izlənilən rollardandır. Müharibənin ağrılı-acılı günləri bu filmin əsas sujet xəttini təşkil edir. Həm də filmdə ailədaxili hadisələr ön planda göstərilir. Bu filmdə Gözəl arvad surəti Səidə (Xalq artisti Fidan Qasımova) ilə əlaqədə obrazın özəlliklərini ustalıqla aça bilib.

Aktrisanın maraqlı ekran obrazlarından biri də Rüstəm İbrahimbəyovun ssenarisi əsasında 1986-cı ildə kinorejissor Rasim Ocaqovun ekranlaşdırdığı 87 dəqiqəlik "Ölsəm, bağışla" bədii filmindəki Suğra xaladır. Qeyd etmək lazımdır ki, Xalq artisti Sədayə Mustafayeva kinorejissorlar içərisində daha çox Rasim Ocaqovun diqqətini cəlb edən sənətkarlardan biri olub. Belə ki, aktrisanı bir neçə filminə dəvət edən Rasim Ocaqov ona tapşırılacaq obrazların öhdəsindən böyük ustalıqla gələcəyinə inanıb. Sədayə Mustafayevanın onun filmlərində canlandırdığı ana obrazlarını tənqidçilər daim bəyəniblər.

...Suğra xala ilk baxışda qayğısız, sakit görünsə də, bu mülayim qadın cəbhədən yenicə qayıdan oğluna filmboyu qonşularının həyatından söhbət açır. Xəstə oğlunun, həbsdə ikən ölmüş həyat yoldaşının dərdi dözümlü ananın dilindən eşidilmir, amma gözlərindən, ağarmış saçlarından oxunur. Aktrisa obrazın xarakterini tamaşaçıya sadələşdirilmiş bir formada çatdıra bilir. Rejissor təfsirinə xas olan millilik məhz Suğra xala obrazından süzülərək aqil ana, təmkinli Azərbaycan qadını qismində böyük ustalqıla təqdim edilib.

Sədayə Mustafayeva Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 1958-ci ildə Əməkdar artist, 1981-ci ildə Xalq artisti fəxri adlarına, 2003-cü ildə isə Prezidentin fərdi təqaüdünə layiq görülüb.

Unudulmaz sənətkarımız 2004-cü ildə Gəncə şəhərində vəfat edib.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
***teatrşünas***

BEYNƏLXALQ HƏYAT

# Bankirlərin məxfi klubu

## "Financial Times" Avropanın bu gizlini haqqında nə yazır?



**İngiltərənin "Financial Times" nəşri yazır ki, Avropada artıq neçə illərdir ki, fəaliyyəti haqqında demək olar ki, heç nə məlum olmayan Beynəlxalq Bank Araşdırmaları İnstitutu fəaliyyət göstərir. Bu məxfi kububun üzvlərindən birinin dediyinə görə, o, Davosa əsla bənzəmir və ora düşmək çox çətindir.**

Ötən il oktyabrın sonlarında Avropanın 40-dan çox nüfuzlu bankiri üç gün ərzində sənayelərinin vəziyyətini müzakirə etmək üçün Sürix şəhərinə baxan dəbdəbəli "Dolder Grand" Hotelə toplaşmışdılar. İştirakçılara İsveçrənin maliyyə naziri Karin Keller-Sutter və Mərkəzi Bankın sədri Tomas Jordana suallar verməк imkanı yaradılmışdı. Toplantı, bu cütlüyün "Credit Suisse"in rəqibi "UBS" tərəfindən xilas edilməsində əsas rol oynamasından 6 ay sonra keçirilirdi. Təfərrüatları açıqlanmayan danışıqları, klubun üzvlərinin çox dar çərçivəsinə məlum olan son dərəcə nüfuzlu bir qurum təşkil etmişdi.

Beynəlxalq Bank Araşdırmaları İnstitutu ("Institut International d'Etudes Bancaires"IIEB) Avropa maliyyəsində ən ekskluziv və məxfi şəbəkə klubudur və bank rəhbərləri burada prezidentlərdən və baş nazirlərdən tutmuş, kral ailələri və mərkəzi bank rəhbərlərinə qədər, müxtəlif nüfuzlu şəxslərlə ünsiyyətdə olurlar.

Çoxdan bu klubun üzvü olanlardan biri "Financial Times"a bunu danışıb: "Bu, hər kəsin giriş bileti ala biləcəyi Davos deyil. Bu, həqiqətən ekskluzivdir".

"IIEB" bütün Avropada geosiyasi gərginliklər və maliyyə sabitliyi problemləri dövründə banklar arasında əlaqələri gücləndirmək məqsədilə yaradılsa da, onun gizli, dəbdəbəli görüşləri transparentliyin (açkarlığın -red) müasir tələblərinə qətiyyən cavab vermir. İsveçin "Handelsbanken" bankına rəhbərlik edən Per Boman "Financial Times"-a deyib: "Biz təşkilatın Avropa banklarını bir-birinə daha da yaxınlaşdırmaq məqsədinə xidmət etdiyi onilliklər ərzində ora üzv olmuşuq. Amma maliyyə böhranından sonra biz hiss etdik ki, onun israfçılığı və təşkilatda şəffaflığın olmaması bizim dəyərlərimizə uyğun gəlmir".

"IIEB" 73 ildir ki, Avropanın ən böyük banklarının rəhbərlərini ildə iki dəfə birləşmələr, satın almalar və qlobal siyasətin qurulması kimi həssas məsələləri müzakirə etmək üçün qitənin müxtəlif yerlərində yerləşən lüks otellərdə və kral saraylarında bir araya gətirir. İnstitutun internet saytı yoxdur, onun tərkibi, gündəliyi və iclas protokolları heç vaxt ictimaiyyətə açıqlanmır. "İştirakçılara müzakirələrin təfərrüatlarını bölüşmək məsləhət görülmür", -deyə anonimlik şərti ilə bir neçə nəfər "Financial Times"-a bildirib.

Avropanın ən nüfuzlu maliyyəçiləri arasında fikir mübadiləsi üçün forum olmaqla yanaşı, "IIEB" elit sosial klubdur, bankirlər üç gün ərzində burada təşkil edilən rəsmi şam yeməyindən, tarixi yerlərə şəxsi turlardan və yüksək səviyyəli mağazalarda alış-verişlərdən həzz alırlar.

Son illərdə gəlirlilik baxımından ABŞ-ın rəqiblərindən xeyli geri qalan avropalı kreditorlar kifayət qədər zəif göstəricilərini heç cür yaxşılaşdıra bilmirlər və qitə çoxdan gözlənilən sərhədlərarası sövdələşmə dalğasına hazırlaşır. İkinci Dünya müharibəsi bitəndən sonra yaranan "IIEB" o andan bu yana ən vacib dövrlərindən birinə qədəm qoyur.

Beynəlxalq Bank Araşdırmaları İnstitutu 1950-ci ildə Parisdə dörd Avropa bankının - "Crédit Industriel et Commercial", "Union Bank of Switzerland", "Société Générale de Belgique" və "Amsterdamsche Bank"-ın rəhbərləri tərəfindən bank, həmçinin iqtisadiyyat və pul sistemi sahəsində müxtəlif hadisələrlə bağlı ən yüksək səviyyədə müntəzəm məsləhətləşmələr aparmaq məqsədi ilə yaradılmışdır. Bu, son vaxtlara qədər bir-biri ilə müharibə şəraitində olan ölkələrin təşkilatları arasında əlaqələri gücləndirmək üçün yaradılmış çoxsaylı transsərhəd institutların formalaşdırılması səylərinin bir hissəsi idi.

"IIEB"-nin ilkin məqsədi hökumətlərin maliyyə sisteminə getdikcə daha çox müdaxilə etdiyi bir vaxtda beynəlxalq kapital axınını yaxşılaşdırmaq və valyuta nəzarəti tədbirləri ilə mübarizə aparmaq idi.

Avropanın 30 bankının rəhbəri bu təşkilatın 1951-ci ilin aprelində Parisdə keçirilən ilk iclasına toplaşmışdı. İngilis bankları orada deyildi, çünki İngiltərə Bankı əvvəlcə onlara bu quruma daxil olmağı qadağan etmişdi.

Təşkilatın ilkin arxivlərini tədqiq edən İlaria Pazotti söyləyir ki, təşkilatda müzakirə olunan mövzular XX əsrin ikinci yarısı boyunca Avropa bankirlərinin narahatlığını əks etdirir.

1950-ci illərdə keçmiş müstəmləkələrdə törəmə şirkətlərin yaradılması haqqında çox danışılsa da, 1960-cı illərdə əsas diqqət dolların beynəlxalq roluna, "Bretton Woods" sabit valyuta məzənnələri sistemi ilə bağlı problemlərə və ABŞ-ın Avropa banklarını ələ keçirməsi təhlükəsinə qarşı yönəlmişdi.

Əsrin sonunda "IIEB"-in panel iclaslarının iştirakçıları daha çox avronun təsiri, böyüyən törəmə bazarı və böyük banklar arasında birləşmə və satınalmalarla maraqlanırdılar.

"Arxivlərdə görüşlərdən yalnız az sayda fotoşəkillər qorunub saxlanılıb - əsasən yeməklər, kokteyllər və muzeylərə və saraylara səfərləri əks etdirən şəkillər var. Bu, görüşlərin məxfiliyini göstərən bir əlamətdir". İtaliyanın "Intesa Sanpaolo" bankının arxivində institutun ilk tədbirlərindən cəmi 18 fotoşəkil var.

Klubun məxfiliyə sadiqliyi bəzi üzvlərdə kənar şəxslər tərəfindən onun kartel kimi qəbul edilməsilə bağlı həssas hisslər yaradır. Onlar israr edirlər ki, banklar hələ də kommersiya rəqibləridir.

2006-cı ilin oktyabrında Afinada keçirilən "IIEB"-nin iclasından dərc edilmiş çıxışlardan birində Avropa Mərkəzi Bankının vitse-prezidenti Lukas Papademos Adam Smitin "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında araşdırma" kitabından sövdələşmə ilə bağlı xəbərdarlığı sitat gətirilir: "Eyni peşə sahibləri hətta şənlənmək və əylənmək üçün belə nadir hallarda bir araya gəlirlər, lakin görüşdükləri zaman söhbət cəmiyyətə qarşı sui-qəsd və ya qiymətləri qaldırmaq üçün hansısa hiylə ilə bitir".

Papademos belə davam edir: "Əgər o, Avropanın hər yerindən gələn aparıcı bankirlərin bu görüşünü görə bilsəydi, potensial "qiymət hiyləsi" ilə bağlı mərkəzi bank üçün həyəcan təbili çalacaq bir fikir söyləyərdimi? Mən buna çox şübhə edirəm."

"Financial Times" İsveçrənin maliyyə nazirliyi və milli bankı ilə əlaqə saxladıqdan sonra, onlar Keller-Sutter və Jordanın Sürixdə keçirilən oktyabr görüşündə iştirakını təsdiqləyiblər. Onlar həmçinin həmin şəxslərin hansı məsələləri müzakirə etdikləri barədə də ətraflı məlumat veriblər. Keller-Sutter öz çıxışında "Credit Suisse"-in iflasında onun rəhbərliyini günahlandırıb, Jordan isə maliyyə sabitliyi məsələsini şərh edərkən bankın dağılmasından danışıb.

Müzakirə olunan mövzuların əhəmiyyətinə baxmayaraq, 2010-cu ilin mayında keçirilmiş bir görüş istisna olmaqla, 70 ildən artıqdır ki, "IIEB"nin heç bir görüşü və toplantısı mediada faktiki olaraq işıqlandırılmır.

Həmin vaxt "Handelsbanken"in baş icraçı direktoru olan Boman, bankının təşkil etdiyi növbəti üç günlük toplantı zamanı "IIEB"-dən istefa verib. O, təşkilatın qeyri-şəffaflığına və avrozonanın borc böhranı şəraitində belə bir görüşün keçirilməsinin yüksək xərclərinə etiraz əlaməti olaraq bu addımı atdığını bildirib.

"IIEB"-nin iclaslarında təşkilatçı banklar adətən qonaqların yerləşdirilməsi və əylənməsi üçün bütün xərcləri ödəyir, iştirakçıların səyahət xərclərini isə onların işəgötürənləri qarşılayır. Stokholmda keçirilən tədbirə isə 40-dan çox bank rəhbəri və onların tərəfdaşları üçün beşulduzlu "Grand Hôtel"də yerləşmə, şəhərin opera teatrında şam yeməyi və onların xanımları üçün ekskluziv alış-veriş səfəri daxil olub.

Boman "Financial Times"-a deyib: "Biz Stokholmda bank məsələlərini müzakirə etmək üçün görüşə qarşı deyildik. Amma görüşün gizli şəraitdə keçirilməsi, ərli-arvadlı iştirak proqramı çox dəbdəbəli idi və biz hiss edirdik ki, bu, "Handelsbanken"nin ənənələrinə zidddir".

"IIEB"nin iclaslarında daim yüksək səviyyəli qonaqlar iştirak edirlər. 2000 və 2009-cu illərdə klubun üzvləri şahzadə Endryu tərəfindən əvvəlcə Müqəddəs Ceyms sarayında, sonra isə Bukingem sarayında qəbul ediliblər.

"IIEB"-nin 2013-cü ildə Sankt-Peterburqda keçirilən ilk iclasında Rusiyanın keçmiş prezidenti Dmitri Medvedev iştirakçılara müraciət edib. İstanbulda keçirilən klub toplantısında isə qonaqları Türkiyənin hazırkı prezidenti, o zaman baş nazir vəzifəsini icra edən Rəcəb Tayyib Ərdoğan salamlayıb.

İnstitutun 2015-ci il tədbirindən nadir ictimai fotolardan birində İtaliya prezidenti Sercio Mattarellanın Romanın dəbdəbəli Quirinal Sarayında "UBS"dən olan Sercio Ermotti və "Lloyds Banking Group"un keçmiş baş icraçı direktoru Antonio Orta-Osorio daxil olmaqla, bank rəhbərləri qarşısında danışdığını görmək olar.

İştirakçıların dediyinə görə, banklar arasında sövdələşmələr rəsmi iclasların kuluarlarında danışıqlar mövzusu olmasına baxmayaraq, söhbətlərin əksər hissəsi hipotetik xarakter daşıyır. Lakin Avropa tarixindəki ən böyük bank birləşmə və satınalma sövdələşmələrindən biri "IIEB"-nin 1997-ci ildə Brüsselin "Hilton" hotelində keçirilən toplantısında baş verib. Orada "Swiss Bank Corporation"ın icraçı direktoru Marsel Ospel və onun "Union Bank of Switzerland"dakı həmkarı Matis Kabiyallavetta İsveçrənin ikinci və üçüncü ən böyük banklarının 29,3 milyard dollar dəyərində bütün səhmlərini birləşdirməyə razılaşıblar və nəticədə "UBS" yaranıb.

O vaxtdan bəri İsveçrədə həmişə "UBS", "Credit Suisse" və "Lombard Odier" şirkətlərinin rəhbərləri üçün üç "IIEB" yeri saxlanılır. Keçən il "Credit Suisse"-in çökməsi onun kreslosunu boş qoyub. Bu vəzifəni bankın baş icraçı direktoru Culius Baer tutacaq və bu, institutun may ayında Dublində keçiriləcək növbəti iclasında baş verəcək.

**Hazırladı:**
**İlqar ÇAYRUDLU**
**XQ**

# "A QROUP SIĞORTA ŞİRKƏTİ" ASC-nin 2023-cü il yanvarın 1-dən dekabrın 31-dək mühasibat balansı (rüblük və illik)

*mın tı la*

| AKTİVLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I. UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 2 558 386,79 | 2432108,24 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 243 569,11 | 230633,65 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **İştirak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **2 801 955,90** | **2662741,89** |
| **II. QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **64 658,64** | **57338,67** |
| **Debitor borcları:** | **4 873 879,66** | **3478745,68** |
| birbaşa sığorta üzrə | 3 234 254,79 | 2000102,84 |
| **təkrarsığorta əməliyyatları üzrə:** | | **313572,25** |
| - təkrarsığortaçı üzrə | | 313572,25 |
| - təkrarsığortalı üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | 1 150 359,98 | 687138,64 |
| iddia tələbləri üzrə | 37 513,74 | 67629,53 |
| işçi heyəti üzrə | 14 647,00 | 2000 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 437 104,15 | 408302,42 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **13 268 001,56** | **12029249,37** |
| kassa | 884,54 | 943,11 |
| hesablaşma hesabı | 4 927 587,39 | 4089124,49 |
| valyuta hesabı | 1 110 214,31 | 1270690,4 |
| depozit hesablar | 6 799 999,84 | 6250000 |
| sair pul vəsaitləri | 429 315,48 | 418491,37 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **6081646,47** | **6931564,16** |
| dövlət qiymətli kağızları | 6081646,47 | 6931564,16 |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **2 028 254,67** | **1863974,31** |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | 2 028 254,67 | 1863974,31 |
| **Sair qısamüddətli aktivlər:** | | |
| gələcək hesabat dövrlərinin xərcləri | | |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | | |
| **Sair aktivlər** | **83 110,81** | **102923,97** |
| ***Cəmi qısamüddətli aktivlər*** | **26 399 551,81** | **24463796,16** |
| **CƏMİ AKTİVLƏR** | **29 201 507,71** | **27126538,05** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **İlin əvvəlinə** | |
| **I. KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 10 005 250,00 | 10005250 |
| **Emissiya gəliri** | 1401226,48 | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | | **1401226,48** |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | 1401226,48 |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **57 190,26** | **698 897,05** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 57 190,26 | 698897,05 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | **11 463 666,74** | **12 105 373,53** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **16 766 052,84** | **14394386,68** |
| Həyat sığortası sahəsi üzrə: | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 16 766 052,84 | 14 394 386,68 |
| **Qarşısıalınma tədbirləri fondu** | **63 719,11** | **45665,64** |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları:** | **45 555,50** | **0,00** |
| əməyin ödənilməsi üzrə | 2,94 | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | 45 552,56 | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **360 839,70** | |
| təkrarsığortaçı üzrə | 360 839,70 | |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **449,24** | **449,24** |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **17 236 616,39** | **14 440 501,56** |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | **501 224,58** | **580 266,52** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 501 224,58 | 580 266,52 |
| **Sair qısamüddətli öhdəliklər:** | | **396,44** |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | 396,44 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **501 224,58** | **580 662,96** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **17 737 840,97** | **15 021 164,52** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **29 201 507,71** | **27 126 538,05** |

**Sığortaçının (təkrarsığortaçının) və Hüquqi Şəxs Sığorta Brokerinin mənfəət və zərəri haqqında hesabat (rüblük və illik)**

| Gəlirlər | Məbləğ |
|---|---|
| Əsas əməliyyat gəliri: | 22051515,32 |
| birbaşa sığorta üzrə sığorta haqları | 21124520,22 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 765595,82 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissiyon muzdlar | 161399,28 |
| Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi) | 2207385,797 |
| İnvestisiya gəlirləri üzrə | 549460,99 |
| Subroqasiya gəlirləri | 233800,35 |
| Sair gəlirlər | 239471,77 |
| **CƏMİ GƏLİRLƏR** | **25281634,23** |
| Xərclər | |
| Əsas əməliyyat xərcləri: | 19141492,32 |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 15335783,06 |
| qaytarılan sığorta haqları üzrə | 731300,87 |
| tənzimləmə xərcləri | 4210 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 2343953,81 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 25724,53 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | 700520,05 |
| İşlərin aparılması xərcləri | 5225411,71 |
| Sair xərclər | 41108,89 |
| **CƏMİ XƏRCLƏR** | **24408012,92** |
| **Maliyyə mənfəəti (zərəri)** | **873621,3066** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **873621,3066** |
| **Mənfəət vergisi** | **174724,26** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **698897,0466** |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**"A-QROUP SIĞORTA ŞİRKƏTİ" ASC-nin**
***Təsisçisinə və Rəhbərliyinə***

**Rəy**

Biz **"A-QROUP SIĞORTA ŞİRKƏTİ" ASC**-nin 2023-cü il dekabrın 31-nə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, cəmiyyətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika Məcəlləsinin" (IESBA Məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də IESBA məcəlləsinin tələblərinə uyğun şəkildə yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlər barədə ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativin yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab olunur.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirir, rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər şərçivəsində uyğun audit prosedurlarını layihələndirmək məqsədilə auditə aid daxili nəzarəti başa düşürük.

Biz istifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.

Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

**"Caspian Consulting and Partners" MMC-nin direktoru Elnurə Abdinova, auditor Adışirin Ağa-zadə.**

**19 fevral 2024-cü il.**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 41 (30445) 23 fevral 2024-cü il, cümə

Texnologiya

## “Votsap”da yeni video-foto dizayn




**“Meta” şirkəti “Votsap”a Android istifadəçiləri üçün daha bir yeni funksiya əlavə edib. Statuslar istifadəçilərin öz profillərində yerləşdirə biləcəyi şaquli video və fotoşəkillərdir. Bu format “Instagram”dakı hekayələrə bənzəyəcək.**

Yenilənmiş interfeys onların göstərilmə tərzini əhəmiyyətli dərəcədə dəyişir. Əvvəlki versiyadan fərqli olaraq, yeni dizayn daha intuitiv yanaşma tətbiq edir. İndi bütün yeni statuslar söhbət siyahısının yuxarı hissəsində yerləşən "Yeniləmələr" bölməsində toplanır. Əvvəllər statuslara baxmaq üçün istifadəçi hər bir istifadəçinin profilinə ayrıca daxil olmalı idi.

*XQ*

İdman

# İlham Zəkiyev: Paris Paralimpiadasına Zəfər əhvalı ilə gedəcəyik

**Almaniyanın Heydelberq şəhərində keçirilən para-cüdo üzrə Qran-pri yarışında kişilər arasında +90 çəki dərəcəsində J1 kateqoriyasında mübarizə aparan İlham Zəkiyev medal qazanmaqla Paris Paralimpiadasına doğru daha bir inamlı addım atdı.**



İkiqat Paralimpiya çempionu, Milli Paralimpiya Komitəsinin vitse-prezidenti İlham Zəkiyev “XQ”yə müsahibəsində bugünlərdə başa çatmış yarışda lisenziya şanslarını daha da artırdığını bildirdi.

***– İlk sualımız Almaniyada yenicə başa çatmış Qran-pri yarışında iştirakınız barədə olacaq. Yarışa zədəli qatılmışdınız...***

– Sol biləyim zədəli olduğundan müalicə alırdım. Yarış lisenziya xarakterli olduğu üçün mütləq iştirak etməliydim. İşin tərsliyindən 2-ci görüşdə sağ biləyim də əzildi. Buna baxmayaraq döyüşü davam etdirməyi qərara aldım. Hazırlığım yaxşı idi. Bürünc medalla reytinqdə yerimi qoruya bildiyim üçün sevinirəm.

***– Tokio Paralimpiadasında cüdo komandamız böyük uğurla çıxış etdi. Komandamızın budəfəki Paralimpiya Oyunlarında şanslarını necə qiymətləndirirsiniz?***

– Elədir. Cüdo yığmamız Tokio Yay Paralimpiya Oyunlarını 6 qızıl, 2 bürünc medalla ümumi hesabda birinci yerdə başa vurdu. Ümumilikdə isə Azərbaycan komandası tarixi uğur qazanaraq 14 qızıl, 1 gümüş və 4 bürünc olmaqla 19 medala sahib olmuşdu. Komandamız medalların əyarına görə 162 dövlət arasında 10-cu yeri tutdu. Hazırda cüdo yığmamız əla formadadır. Vüqar Şirinli, Şəhanə Hacıyeva, Dürsədəf Kərimova, Xanım Hüseynova və digərlərinin reytinqi yaxşıdır. Namiq Abbaslının səhhətində bir az problemlər var. Yaxşı olsa, onun da reytinq xalları lisenziya şansı verir.

***– Qarşıda komandamızı hansı lisenziya turnirləri gözləyir?***

– Apreldə Antalya, mayda isə Tbilisidə Qran-pri yarışları olacaq. Kimlərin dördilliyin əsas idman yarışına vəsiqə qazanacağı mayda elan olunacaq. Onu da deyim ki, reytinqdə ilk 10-da olan idmançılar “Paris-2024”də iştirak edəcəklər. Mən özüm Paralimpiya reytinqində 3-cüyəm.

***– Necə düşünürsünüz, komandamız Tokio Paralimpiadasında qazandığı tarixi nailiyyəti təkrarlaya bilərmi?***

– İndiyədək 9 lisenziya əldə etmişik. Cüdo ilə yanaşı, parataekvondo, atletika, pouerliftinqçilərimizə də böyük ümidlərimiz var. Paraatletika üzrə komandamız Parisdə keçirilən dünya çempionatında 2 qızıl, 1 bürünc medal və növbəti Yay Paralimpiya Oyunlarına 4 vəsiqə qazanmaqla yüksək nəticəyə imza atdı. Parataekvondoşularımızın 3-ü özü üçün lisenziyanı rəsmiləşdirib. Güllə atıcılığı və üzgüçülük üzrə isə hərəsində 1 vəsiqəmiz var. Komandamız güclü potensiala malikdir. Milli Paralimpiya Komitəsi idmançılarımızın yüksək nəticə əldə etmələri üçün hər bir şərait yaradır. Hazırlığımız yaxşı gedir.

Tokio Paralimpiadasında özümüzü qələbəyə kökləmişdik. Bizə motivasiya verən 44 günlük müharibədə möhtəşəm Zəfərimiz idi. 2-ci görüşdə 2 barmağım sındı. Bunu mən nə rəqibə, nə də bir başqasına bildirdim. Ağrını iradəmlə dəf edərək növbəti görüşə çıxdım. Çünki dopinq nəzarətinə görə ağrıkəsicidən də istifadə etmək olmazdı. Xatırlayırdım ki, yaralı əsgərlərimizin əksəri müalicəni yarıda saxlayıb necə döyüş yoldaşlarının yanına tələsirdilər. O zaman xəstəxanalarda yaralıları ziyarət edərkən bunun şahidi olurdum. Qarşılaşmalar zamanı Vətən müharibəsində hərbçilərimizin yaralı vəziyyətdə döyüş meydanında aslan kimi vuruşmaları gözümün önünə gəlirdi ki, bu da əlavə güc verirdi. Oyunlara bu dəfə də və bundan sonra həmişə müzəffər ölkənin qalib idmançısı kimi yola düşəcəyik. Paris Paralimpiadasında da yenilməz güc nümayiş etdirəcəyik. Hamımız buna inanırıq.

*Leyla QURBANOVA*
*XQ*

Sağlamlıq



## Virusqabağı – nar qabığı

**Pandemiya bitsə də koronovirus hələ aramızdadır. Yeni-yeni ştammları ilə insanları təhdid etməkdə davam edir. Dünyanın kabusuna çevrilən koronavirus səbəbilə ölənlərin sayı hələ də durmadan artır.**

Mütəxəssisiər bildirirlər ki, virusdan qorunmaq üçün hər şeydən əvvəl hər kəs boğazını qorumalıdır. Çünki bu virus öncə boğazın selikli qişasına təsir edir. Buna görə onunla mübarizə boğazdan başlayır.

Nar qabığını qaynadıb içmək insanı xəstəlikdən qoruyur. Çünki onu içəndə, çayın tərkibindəki maddə birbaşa mədəyə gedir, ağız, qida borusu və mədədəki virus təhlükəsini ortadan qaldırır. Beləliklə, nar qabığından hazırlanan çay antivirus rolunu oynayır.

Mütəxəssislər qeyd edirlər ki, virus yayıldıqdan 48 saat sonra nar qabığından istifadə onun qarşısını almaqda xeyli müsbət təsirə malikdir. Onların fikrincə, yalnız nar qabığından yox, sarıkök və zəncəfillə hazırlanan çayla da virusdan qorunmaq mümkündür.

*Z.HÜSEYNLİ*
*XQ*

Təqvim yada salır

# Azərbaycan futbolunun Banişevski əfsanəsi






**Bu gün, fevralın 23-də Azərbaycan futbolunun əfsanəsi, 1966-cı ildə Sovet İttifaqı və dünya çempionatlarının bürünc, 1972-də Avropa çempionatının gümüş mükafatçısı, “Şöhrət” ordenli Anatoli Andreyeviç Banişevskinin doğum günüdür. Anadan olmasının 78-ci ili tamam olur. Ötən illərdəki kimi, bu gün yenə futbol ictimaiyyətimiz iyirminci əsrdə Azərbaycan idmanının yetirdiyi ən görkəmli şəxsiyyətlərdən biri, unudulmaz “9 nömrə”ni dərin ehtiramla yad edir. Əlbəttə, “Xalq qəzeti” də həyata 1946-cı il fevralın 23-də göz açıb, 1997-ci il dekabrın 10-da, 51 yaşında əbədiyyətə qovuşmuş dünya şöhrətli mərkəz hücumçusunu hörmətlə xatırlayır.**

…1996-cı ilin yanvar ayı idi. Məşhur hakimimiz, Tofiq Bəhramov və Eldar Əzimzadənin layiqli davamçısı Rüstəm Rəhimov Bakıdakı futbol veteranlarının Gəncədə yerli veteranlarla yoldaşlıq görüşü keçirmək üçün səfərə hazırlaşdıqlarını bildirib, mənə də onlarla birlikdə getməyi təklif etdi. Təklifi minnətdarlıqla qəbul etdim.

Səfərin təfsilatına varmadan yalnız onu deyim ki, Gəncədən Bakıya qayıdarkən avtobusda Banişevski ilə yanaşı əyləşmişdim. Yolda söhbət zamanı Anatoli futbolda keçən həyatı, istedadının parladığı vaxtlarda ölkənin müxtəlif komandalarından aldığı dəvətlər, amma sevimli “Neftçi”ni, doğma Bakını, Azərbaycanı bütün klublardan, şəhərlərdən və respublikalardan üstün tutduğu barədə fəxrlə söz açdı.

Söhbət əsnasında 1966-cı ildə İngiltərədə keçirilmiş dünya çempionatında SSRİ komandası heyətində çıxışı və Azərbaycana bürünc medalla qayıtması haqqında da danışdıq ( xatırladaq ki, həmin çempionatda sovet futbolçuları 3-cü yer uğrunda görüşdə Portuqaliyaya 1:2 hesabı ilə uduzsalar da, mükafatçılar sırasında oldular, onda Beynəlxalq Futbol Federasiyası bu dəfə dördüncü yerin sahibinə də bürünc medal verilməsini qərara almışdı), həmçinin çempionatın bağlanış mərasimindən sonra təşkil edilən ziyafətdə Böyük Britaniyanın o zamankı Baş naziri cənab Vilsonun Banişevskiyə müraciətlə dediyi “Bakı nefti Rusiya üçün nə qədər əhəmiyyətlidirsə, sizin də oyununuz komandanız üçün bir o qədər faydalıdır” sözlərini də xatırladıq.

Çempionat günlərində ingilis jurnalistlərin Banişevskinin oyununa, ustalığına 150 min funt sterlinq qiymət qoyduqları da yada düşdü…

Sonralar ustad jurnalist, Əməkdar mədəniyyət işçisi Şakir Yaqubov (Allah rəhmət eləsin) 2002-ci ildə nəşr etdirdiyi “Banişevski olduğu kimi” kitabında bu barədə danışarkən mötərizədə yazmışdır: (“Düz 30 il sonra jurnalist Oqtay Bayramov bu məqamı ona xatırladanda Banişevski köks ötürüb deyəcək: “Hə, yadımdadır… Yadımdadır… Kalan pul idi…O vaxtkı hesabla, təxminən, bir milyon dollar…”).

A.Banişevski dünyada tanınan və alqışlanan böyük şəxsiyyət idi. Respublikamızda uşaqdan tutmuş böyüyədək hamının sevimlisiydi. Xeyirxah və səxavətli futbol dünyası öz qəhrəmanlarına sevgi və məhəbbətini heç vaxt əsirgəmir. Azərbaycan da əfsanəvi futbolçusuna həmişə minnətdardır.

Yaşıl meydanlarda təkrarolunmaz oyununa görə!

Alqışlarla müşayiət olunan sürətli və kəsərli hücumlarına, vurduğu 100-dən çox qola görə!

Cəmi 20 yaşında ikən “Neftçi”də və SSRİ yığma komandasında qazandığı iki bürünc medala görə!

Ən başlıcası isə, istedadının çiçəkləndiyi və sürətlə şöhrətin zirvəsinə yüksəldiyi vaxtlarda Sovet İttifaqının müxtəlif komandalarından aldığı dəvətləri qəbul etməyib, sevimli “Neftçi”yə, doğma Bakıya, Azərbaycana axıradək sadiq qaldığına görə!

Anatoli Banişevski futbolumuzun başı üzərində heç vaxt sönməyən parlaq bir ulduz idi. Elə indi də!

P.S. Hörmətli Rüstəm müəllimə bir daha təşəkkür etmək istərdim. Əgər o, 28 il əvvəlki tədbirin təşkilatçılarından biri kimi mənə də Gəncəyə getməyi təklif etməsəydi, avtobusdakı söhbət baş tutmazdı.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

Hava

## Yenə yağıntılı və dumanlı olacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən fevralın 23-də Bakıda və Abşeron yarımadasında havanın arabir yağıntılı olacağı gözlənilir.**

Yarımadanın bəzi yerlərində intensivləşəcəyi ehtimalı var. Gecə və səhər ayrı-ayrı yerlərdə zəif duman olacaq. Mülayim şimal-şərq küləyi əsəcək. Gecə 2-4°, gündüz 4-6° isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunundan 773 mm civə sütununa yüksələcək, nisbi rütubət 80-90 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq.

Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 6-10° isti, dağlarda gecə 3-8°, gündüz 0-3° şaxta olacaq.



*Q. QASIMOV*
*XQ*

***✓ 2024-cü il fevralın 19-da Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən Quliyev İltimas Məmməd oğlunun adına verilmiş iri qabaritli yük avtomobilinə icazə blankı (DAZVOL) itdiyi üçün etibarsız sayılır. Sənədi tapan şəxsi mükafat gözləyir. Telefon-050-388-46-66.***

***✓ 1997-ci ildə Gədəbəy Rayon Hərbi Komissarlığı tərəfindən Allahverdiyev Azər Vaqif oğlunun adına verilmiş veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN**

“Xalq qəzeti”nin əməkdaşı Zülfiyyə Həsənova M.Şəhriyar adına 193 saylı məktəbin müəllimi Ellada Nəsirovaya əzizi

**YEGANƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 3805
SİFARİŞ 405
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00